INTERNATIONAL
OLYMPIC
COMMITTEE

# OLİMPİYA GÜNDƏLİYİ-2020

## MƏZMUN VƏ İLKİN MƏLUMAT



# Müqəddimə

BOK İŞ-n 2013-cü il dekabr ayında Montroda keçirdiyi sahə seminarından sonra BOK-un 2014-cü il fevralında Soçidə keçirdiyi sessiyasında 2020-ci ilin Olimpiya gündəliyinin bir hissəsi kimi 25 mövzu müzakirə edildi.

Sessiyada aparılan müzakirələr nəticəsində BOK Prezidenti dəqiq təklifləri hazırlamaq tapşırığı ilə 14 işçi qrup (İQ) təyin etdi. İşçi qruplar 2014-cü ilin iyun ayında görüşdü.

İşçi qrupların təklifləri İcra Şurasına təqdim edildi və 2014-cü ilin iyul ayında keçirilmiş Olimpiya Sammitində Olimpiya Hərəkatının elementləri ilə birlikdə müzakirə edildi.

Sonrakı məsləhətləşmə 2014-cü il sentyabr ayında, təkliflərin bütün BOK komissiyaları ilə bölüşdürülməsi zamanı aparıldı.




Bu proseslə eyni zamanda, 2014-cü ilin fevral ayından bəri BOK 270 əməkdaşlığın yaratdığı 1,200 ideya və Olimpiya Hərəkatı çərçivəsində maraqlı tərəflərdən, o cümlədən ictimaiyyətin müxtəlif təşkilatları və şəxslərindən (alimlər, QHT, bizneslər, və s.) 43,500 elektron məktub aldı. Bu ideyalar müvafiq işçi qruplarla bölüşdürüldü.




*Qeyd: Bundan əlavə, QHT 43,500 təklif təqdim etmişdir*



Birləşdirildikdən sonra, 14 işçi qrupundan alınmış və məsləhətləşmə prosesi nəticəsində, həmçinin birbaşa yardımlar sayəsində daha da zənginləşdirilmiş 40 Olimpiya gündəliyi-2020 tövsiyəsi mövcuddur (növbəti səhifədəki cədvələ baxın).
Olimpiya gündəliyi-2020 8 və 9 dekabr 2014-cü il tarixdə Monakoda keçirilmiş 127-ci BOK Sessiyasında yekdilliklə təsdiq edilmişdir.
40 təfərrüatlı tövsiyələr şəkil-tapmacanın (pazl) ayrı-ayrı hissələri kimidir və onlar bir yerə yığıldıqda, Olimpiya Hərəkatının gələcəyini bizə aydın təsvir edir. Onlar bizim getdiyimiz yolu, Oyunların unikallığını mühafizə etmə və cəmiyyətdə Olimpiya dəyərlərini gücləndirmə yollarını bizə aydın şəkildə göstərir.

İslahatlar bir il Olimpiya Hərəkatının bütün maraqlı tərəfləri, o cümlədən xarici ekspertlər və ictimaiyyətlə müzakirələr və məsləhətləşmələrdən sonra qəbul edildi. Bu proses zamanı ictimaiyyətdən 40,000-dən artıq təklif alındı ki, nəticədə təxminən 1,200 ideya yarandı. 127-ci sessiyadan qabaq İcra Şurası tövsiyələri tamamlamadan əvvəl on dörd İşçi qrup Olimpiya Hərəkatı boyu və geniş ictimaiyyətdə aparılan müzakirələri və debatları birləşdirdi.

Onların tətbiqi ilə bağlı işlər artıq başlamışdır. BOK Olimpiya kanalında işə başladı. 2024-cü il iştiraka ərizə prosesi üçün yeni Dəvət Prosesi artıq başlanmışdır və o, şəhərlərə öz uzun müddətli idman, iqtisadi, sosial və ekoloji planlarına ən çox uyğun gələn Olimpiya layihələrini təqdim etmək imkanı verir. İslahatların bəziləri artıq tenderdə iştirak edən şəhərlərlə 2022 prosesinə daxil edilmişdir. 40 tövsiyənin hamısının tətbiqi üzrə təfərrüatlı iş planı fevralda BOK İcra Şurasına təqdim ediləcək.

# BOK Prezidenti Tomas Baxın 7 dekabr 2014-cü ildə Monakoda keçirilən 127-ci BOK Sessiyasının Açılış mərasimində nitqi

Beynəlxalq Olimpiya Komitəsinin bu növbədənkənar sessiyasina bizim əziz həmkarımız Əlahəzrət Monako şahzadəsi Albertin sahiblik etməsi çox əlamətdar hadisədir. Beş Olimpiya Oyununda idmançı kimi iştirakı və hazırda dövlət başçısı olması ilə o, Olimpiya dəyərlərinin qorunmasına və idmanın cəmiyyətdə möhkəmləndirilməsinə yönəlmiş Olimpiya gündəliyi-2020-nin ruhunu təmsil edir. Ona görə də, mən bu dəvətinə görə şahzadə Albertə və Monakoda səmərəli və səmərəli qonaqpərvərliklərinə görə Moneqask Olimpiya Komitəsinin bütün üzvlərinə minnətdarlığımı bildirmək istərdim. Sağ olun Monsenyor!

Biz həmçinin artıq 99 ildir bizi qonaqpərvərliklə qəbul edən İsveç Konfederasiyasının prezidenti Zati-aliləri c-b Didye Burkhalteri (Didier Burkhalter) səmimi qəlbdən salamlayırıq. Xoş gəlmisiniz, cənab Prezident!

"İdman dünyanı dəyişəcək qüvvəyə malikdir"
Bu, dahi humanist və lider Nelson Mandelanın sözləri idi. Biz bu mesajı dəyişiklik vasitəsilə inkişafa töhfə verməyə bir ilham kimi qəbul etməliyik. Bu, hər şeydən əvvəl bizim özümüzə aiddir. **Siz ancaq özünüz dəyişməyə hazır olduqdan sonra digərlərini dəyişməyə ilhamlandıra bilərsiniz. Biz hamımız buraya idmanda bu dəyişikliyin önündə getmək üçün toplaşmışıq.**

**Siz hər hansı dəyişikliyə başladıqda əvvəlcə üç suala cavab verməlisiniz: Nə üçün? Nə? Necə?**

**Nə üçün** Olimpiya hərəkatında vacib və geniş miqyaslı **dəyişikliklər** etməliyik? Biz 2012 və 2014-cü illərdə möhtəşəm Olimpiya Oyunları keçirdik. Bizim maliyyə vəziyyətimiz stabildir. Biz əldə etdiyimiz mənfəətin 90 faizindən çoxunu idmana və idmançılara paylayırıq. **Bu o deməkdir ki: BOK dünyanın hər yerində idmanı dəstəkləmək üçün gündə - hər bir gün üç milyon dollardan artıq vəsait sərmayə edir.** İndiyə qədər dünyanın hər yerində bu qədər insan Olimpiya oyunlarını izləməmişdi. **Deməli, biz müvəffəqiyyətə nail olmuşuq. Müvəffəqiyyət dəyişiklik üçün ən yaxşı səbəbdir.**

Həmişəkindən daha sürətlə dəyişən dünyamızda dünən əldə edilmiş müvəffəqiyyətin bu gün heç bir əhəmiyyəti yoxdur. Bu günün müvəffəqiyyəti sizə ancaq sabah üçün dəyişikliyi hərəkətə gətirmək imkanı verir. 100 illik tarixlə əldə edilmiş sanballı bünövrə əsasında biz təxminən il yarım bundan əvvəl birlikdə gələcək problemləri qabaqcadan düşünməyə başladıq. Artıq üzləşdiyimiz problemlər və daha əhəmiyyətlisi, artıq qarşımızda görə bildiyimiz problemlər. **Biz bu problemləri bu dəqiqə həll etməsək, tezliklə onlar üstümüzə töküləcək. Biz bu dəyişiklikləri özümüz yönəltməsək, digərləri bizi onlara doğru sürüyəcək. Biz dəyişiklik obyekti deyil, dəyişiklik liderləri olmaq istəyirik.**

Mən bu nitqi teatrda söyləsəydim, kinayəli təbəssümlə deyərdim: **Dəyişmək ya dəyişməmək, budur məsələ.**

Lakin bu, nə üçün sualına cavabın ancaq bir hissəsidir. Çünki o, bizə dəyişməyə böyük imkanımız olduğunu deyir. O, bizə dəyişmə zərurəti haqqında demir. **Biz dəyişməliyik, çünki bu gün idman cəmiyyətə elə vacibdir ki, cəmiyyətin qalan hissəsinə etinasız yanaşmaq olmur.**

Biz adada yaşamırıq, biz müasir, dəyişkən, rəqəmsal cəmiyyətin ortasında yaşayırıq. Biz Olimpiya prinsiplərimizin bir hissəsi kimi Olimpiya idman növlərini cəmiyyətə xidmətə cəlb etmək istəyiriksə, biz bu cəmiyyətlə əlaqə yaratmalıyıq, biz bu cəmiyyətlə hörmətlə dialoq aparmalıyıq. Bu cəmiyyət həmişəkindən daha tez dəyişir. Cəmiyyət idmanın dəyişməsini gözləməyəcək. **Biz Olimpizmin dəyərlərinin, yəni mükəmməllik, hörmət, dostluq, dialoq, dəyişkənlik, ayrı-seçkiliyin olmaması, dözümlülük, ədalətli oyun, həmrəylik, inkişaf və sülh kimi dəyərlərin cəmiyyətdə müvafiq qalmasını istəyiriksə, dəyişmək vaxtı indidir.**

Britaniyalı filosof Bertran Rassel bir dəfə deyib, "... dəyişiklik elmi, proqres etikdir". BOK kimi dəyərə əsaslanan təşkilatlar üçün tək dəyişiklik naminə dəyişmək kifayət deyildir. **Bizim üçün dəyişiklik tək kosmetik təsir və ya tək prosedura olmamalıdır, dəyişikliyin məqsədi olmalıdır. Bu məqsəd də proqresdir. Bizim üçün proqres dəyərlərimiz vasitəsilə idmanı cəmiyyətdə möhkəmləndirmək deməkdir.**

Bu, bizi ikinci suala gətirib çıxarır: belə proqresə nail olmaq üçün nəyi dəyişmək lazımdır? Özümüz üçün bu suala cavab vermək üçün biz ətrafımızdakı dünyaya nəzər salmalıyıq. Biz həmişəkindən daha kövrək olan dünyada yaşayırıq. Biz siyasi böhran, maliyyə böhranı, səhiyyə böhranı, terrorçuluq, müharibə və vətəndaş müharibəsi görürük. Biz daha da parçalanmış, daha da fərdiləşmiş, hətta demək olar ki, daha eqoist cəmiyyətdə yaşayırıq. Biz həmişəkindən daha çox imkanlar təklif edən qlobal cəmiyyətdə yaşayırıq. Əlaqə üçün, dialoq üçün, qlobal həmrəylik, sosial inkişaf və sülh üçün imkanlar. Biz elə bir anda yaşayırıq ki, dünyanın hansı yolu seçəcəyini, yaxud başqa sözlə desək, dünya özünü hansı yolla aparmağa icazə verəcəyini bilmirik.

Bunun hamısı bizim üçün nəyi bildirir? **Hər şeydən əvvəl, bu, o deməkdir ki, bizim dialoq, qaydalara hörmət mesajımız, bizim dözümlülük, həmrəylik və sülh mesajımız - bu Olimpiya mesajı, yəqin ki, həmişəkindən daha məqsədəuyğundur.** Biz öz Olimpiya mesajımızı möhkəmləndirmək istəyiriksə, insanlar bizim mesajımızı eşitməlidir, onlar bizim mesaja inanmalıdır; onlar "mesajı almalıdır". Lakin insanlar bizim mesajı həqiqətən almazdan əvvəl bu qeyri-müəyyənlik dövründə müxtəlif suallar verirlər.

İnsanlar gələcəyə nə qədər az etibar edirlərsə, gələcək haqqında bir o qədər çox bilmək istəyirlər. Bizim üçün bu o deməkdir ki, onlar Olimpiya Oyunlarının və bizim bütün tədbirlərimizin stabilliyi haqqında daha çox məlumat almaq istəyirlər; onlar bizim idarəçiliyimiz və maliyyə vəziyyətimizdən daha xəbərdar olmaq istəyirlər; onlar bizim öz dəyərlərimizə və sosial cavabdehliyimizə necə əməl etdiyimizi bilmək istəyirlər. Bu müasir dünya daha çox şəffaflıq, daha çox iştirak, tamlığın daha yüksək standartlarını tələb edir. **Bu müasir dünya getdikcə daha çox sübut tələb edir, özünə inamlığı qəbul etmir, hətta ən yüksək nüfuza malik şəxslərə suallar verir. Bu dünya getdikcə daha az sözə inanır.**
Olimpiya gündəliyi-2020-də biz bu suallara davamlılıq, etibarlılıq, gənclik kimi üç ümumi mövzu altında cavab veririk.

**Tender prosesinə daxil edilmiş yeni fəlsəfə ilə biz potensial namizəd şəhərləri uzun müddət davam edəcək miras qoymaq üçün ətraf mühitə hörməti, texniki-iqtisadi və inkişaf nöqteyi-nəzərindən bütöv konsepsiya təqdim etməyə həvəsləndiririk.** Bu geniş əhatəli dəyişikliklərlə biz qəbul edirik ki, Olimpiya oyunlarının davamlılığı üçün "bütün hallərə uyğun gələn bir ölçü" olmayacaq. **Oyunlara sahiblik etmək istəyən namizədlərin inkişaf məqsədləri çox fərqlidir və onlar müxtəlif inkişaf nöqtəsindən başlayırlar. Biz bu rəngarəngliyi salamlayırıq. Əslində, bu rəngarənglik Olimpiya oyunları möcüzəsinin bir hissəsidir.**

Onlar qlobal oyunlardır; ona görə də dünyanın tək bir hissəsində qəbul edilmiş standartlar etalon kimi götürülə bilməz. Olimpiya oyunları bu müxtəlif mədəniyyətlərin dialoqunu həvəsləndirir. Hər bir növbəti oyun fərqli olmalıdır. Hər bir növbəti oyun ona sahiblik edən ölkənin mədəni, sosial, ekoloji və idman tarixinin orijinal əksi olmalıdır. Olimpiya gündəliyi-2020 ilə biz Olimpiya oyunlarının təşkilatı və proqramı üçün daha çox dəyişkənlik yaratmaqla, bu rəngarəngliyi təbliğ edirik və dəstəkləyirik. Eyni zamanda biz oyunlara sahiblik edən dövlətin bizim dəyərlərə və Olimpiya oyunlarının qəlbini təşkil edən idmançılara hörmət etməsini təmin etməklə Olimpiya hərəkatının birliyini qoruyuruq.

Olimpiya gündəliyi-2020 ilə biz etibarlılıq məsələsini həll edirik - yarışlara, o cümlədən təşkilatlara etibarlılıq. BOK on beş il bundan əvvəl artıq sanballı addımlar atmışdır, ona gör də bu məsələdə əla nüfuza malikdir. Bununla belə, dünya və onun bizim təşkilat kimi təşkilatlardan gözləntiləri dəyişmişdir.

**Ona görə də, biz yaxşı idarəçiliyimizi, şəffaflığımızı və etikamızı gücləndirəcəyik:**
Etika Komissiyasının üzvlərini daha BOK İcra Şurası təyin etməyəcək, onları BOK Sessiyası seçəcək.
Etika Komissiyası Olimpiya gündəliyi-2020 ilə uyğun yeni qaydaların layihəsini hazırlayacaq. Biz daxili nəzarət üzrə məsul işçi vəzifəsini yaradacağıq.

Hüquqi nöqteyi-nəzərdən daha az şəffaf standartların kifayət etməsinə baxmayaraq, bizim maliyyə hesabatlarımız etalon kimi qəbul edilən Beynəlxalq Maliyyə Hesabatı Standartlarına (IFRS) uyğun hazırlanacaq və təftiş ediləcək. Biz MOK Üzvləri üçün ayrılmış ödənişlər norması da daxil olmaqla, illik fəaliyyətə dair və maliyyə hesabatı hazırlayacağıq ki, o, BOK Üzvlərinin həqiqətən könüllü olduğu faktını sübut edəcək.

İdman yarışlarının və idmançıların etibarlılığına gəldikdə, biz fəlsəfəni dəyişmək istəyirik. **Olimpiya Hərəkatı əsasən təmiz idmançılar deməkdir. Onlar bizim ən yaxşı səfirlərimizdir, onlar bizim nümunəvi modellərimiz, bizim xəzinəmizdirlər. Ona görə də, biz hər şeydən əvvəl təmiz idmançıları qorumalıyıq.** Biz onları dopinqdən, qabaqcadan sövdələşdirilmiş oyunlardan, manipulyasiyalardan və korrupsiyada qorumalıyıq. Biz düşüncə tərzimizi dəyişməliyik. Biz bu pisliklərə qarşı mübarizəyə sərf edilmiş hər bir sentə xərc kimi deyil, gələcək Olimpiya idman növlərinə sərmayə kimi baxmalıyıq. Biz başa düşməliyik ki, fırıldaqları aşkar etmək həddindən artıq vacibdir, lakin bu, daha vacib nəticəyə - təmiz idmançıların mühafizəsinə xidmət etməlidir. Bu, asan iş olmayacaq və uzun müddət tələb edəcək, çünki adət edilmiş düşüncə tərzini dəyişmək çox çətindir. Bir misal kimi, demək olar ki, ən qəbul edilməz bir sözdən istifadəni götürək: biz dopinq sınağında fırıldağı aşkar etdikdə, hamımız "müsbət" sınaq nəticələrindən danışırıq, sınaq idmançının təmiz olduğunu göstərdikdə isə, bunu "mənfi" sınaq nəticəsi adlandırırıq. Olimpiya gündəliyi-2020 ilə biz həmçinin bu fəlsəfədə edilən dəyişikliyin hansı təsirə malik olacağını göstəririk. Biz təmiz idmançıların daha yaxşı və daha az əziyyətli mühafizəsinə imkan verəcək novatorçu anti-dopinq tədqiqatını dəstəkləmək istəyirik. Biz qabaqcadan sövdələşdirilmiş oyunlara, manipulyasiya və korrupsiyaya qarşı davamlı tədris, agahlıq və qarşısını-alma proqramları yaratmaq istəyirik.

Olimpiya gündəliyi-2020 dəyərlərimizə və prinsiplərimizə uyğun yaşamaq qərarımızı aydın şəkildə nümayiş etdirir. **Olimpizmin 6-cı fundamental prinsipinin yeni sözləri Birləşmiş Millətlər Təşkilatının İnsan hüquqları haqqında ümumi bəyannaməsindən götürülmüşdür.** İndi bir anda o, hətta daha aydın olacaq, çünki ona cinsi oriyentasiya da daxil edilmişdir. Bu gücləndirilmiş sözlər

bizə Olimpiya oyunları zamanı bütün iştirakçılara hörmətlə yanaşılmasını təmin etməyə yardım edəcək.
"Olimpizm fəaliyyətdə" və "Olimpizm və mədəniyyət" kimi təklif edilən fəaliyyətlər idmanın dəyələrini hamı üçün daha mümkün edəcək və bizim cəmiyyətlə dialoqumuzu dəstəkləyəcək.

Olimpiya gündəliyi-2020 bizim gənclərlə əlaqəmizə yönəlmişdir. Bir idman təşkilatı kimi biz ancaq getdikcə daha çox gəncin Olimpiya oyunlarına baxması ilə kifayətlənə bilmərik. **Biz tənbəl divan tərəvəzlərini divandan qaldırmaqda maraqlıyıq və cavabdehlik daşıyırıq. Ancaq idmanla məşğul olan uşaqlar gələcəkdə idmançı ola bilər.** Ancaq idmanla məşğul olan uşaqlar idmanın tədris və sağlamlıq dəyərlərindən ləzzət ala bilər. Biz bu uşaqların idmanla məşğul olmaq imkanını artırmaqla, onları həvəsləndirmək istəyirik. Biz onların olduğu yerdən asılı olmayaraq, onlarla münasibət qurmaq istəyirik. Biz dünyanın hər yerində idmanın daha çox sayda məktəb proqramlarına əlavə edilməsini istəyirik.

Olimpiya gündəliyi-2020 Olimpiya kanalının yaradılmasını təklif etməklə, Olimpiya idman növlərinin və onun dəyərlərinin məqsədəuyğunluğunu əhatə edir. Biz idmançılarımızı və idman növlərini Olimpiya oyunları arasındakı müddətdə də onlara yarayan şəkildə dünya mətbuatında işıqlandırmalıyıq. Biz humanitar, mədəni və sosial sahələrdə gördüyümüz işlərə onlara müvafiq diqqəti verməliyik. Biz gənclərin idmançılarla, idmanla, Olimpiya tarixi, Olimpiya mədəniyyəti və Olimpiya dəyərləri ilə münasibətini daha da yaxşılaşdırmalıyıq.

**Bu Olimpiya gündəliyi-2020 sanki şəkilli tapmacadır (pazl). Hər bir parça, hər tövsiyə eyni dərəcədə əhəmiyyətə malikdir. Ancaq 40 parçanın hamısını bir yerə yığdıqda bütün şəkli görə bilərsiniz. Siz Olimpiya Oyunlarının müvəffəqiyyətinin təmin edilməsində inkişafı, Olimpiya dəyərlərinin mühafizəsində inkişafı və idmanın cəmiyyətdə möhkəmləndirilməsində inkişafı görürsünüz.**

Bu, bizi üçüncü və - lütfən, narahat olmayın - sonuncu suala gətirir. **Bu inkişafa necə nail ola bilərik?** Bu baxımdan dəyişikliyin idarə edilməsi artıq özü-özlüyündə mesaj və vasitə idi. Bu mesaj çox aydındır: **İnkişafın əməkdaşlığa ehtiyacı vardır.** Biz tək öz aramızda deyil, tək bizim əsas maraqlı tərəflərlə, Beynəlxalq federasiyalarla və Milli olimpiya komitələri ilə deyil, cəmiyyətin bütün təbəqələrindən olan insanlarla çox geniş və şəffaf məsləhətləşmələr apardıq. Biz, Olimpiya hərəkatı sizin, BOK üzvlərinin BOK-un Soçidə aparılan görüşü zamanı verdiyiniz 200-dən artıq təklifi çox əla müzakirə etdik. Biz BF və MOK rəhbərlərinin öz töhfələrini verdiyi iki Olimpiya sammiti görüşü keçirdik: Biz bütün maraqlı tərəflərin 14 İşçi qrupunda, BOK komissiyalarında və yüzlərlə ikitərəfli görüşlərdə iştirakına nail olduq. Biz ictimaiyyətdən 40,000-dən artıq təklif almışıq və nəticədə 1,200-dən artıq ideya yaranmışdır. **İşçi qruplarının təşkil edilməsi ilə biz cəmiyyət üçün açıldıq. Biz təmiz hava qəbul etmək üçün pəncərələrimizi açdıq.** Biz digər QHT, siyasət, mədəniyyət və işgüzar sektorun yüksək səviyyəli nümayəndələrinin məsləhətlərini səmimi qəlblə qəbul etdik. Onların ən arzu edilən töhfəsi bu Olimpiya gündəliyi-2020-də əks edilmişdir. Biz bunu bir dəfəlik tədbir kimi qoymaq istəmirik və qoya bilmərik. **Bu dəyişiklikləri inkişafa çevirmək istəyiriksə, biz bu dialoqu davam etdirməliyik.**

Ona görə də, biz müxtəlif QHT, siyasi rəhbərlər, mədəni cəmiyyət və sahibkarlarla məsləhətləşmə üçün tək pəncərələrimizi deyil, həm də qapılarımızı açmışıq. Son on ay ərzində biz dəyəri 10 milyard ABŞ dollarından artıq olan sponsorluq və televiziya müqavilələri imzalamışıq, və bu məbləğ dərhal idman və idmançılar arasında paylanmışdır. Bütün bu danışıqlarda Olimpiya gündəliyi-2020 əhəmiyyətli rol oynamışdır. Təxminən 2032-ci ilə qədər öhdəlik qəbul etməklə bütün bu tərəfdaşlar Olimpiya Hərəkatının və Olimpiya gündəliyi-2020-n gələcəyinə hədsiz inam nümayiş etdirmişlər.

Məni 2013-cü ilin sentyabrında prezident seçdiyiniz vaxtdan bəri və 95 dövlət və ya hökumət başçısı ilə görüşmüşəm. Bu görüşlərin əksəriyyətində Olimpiya gündəliyi-2020 və bizim siyasət dünyası ilə münasibətlərimiz əsas rol oynamışdır.

Bu yeni əməkdaşlıq və tərəfdaşlıq konsepsiyasının kulminasiyası bizim Birləşmiş Millətlər Təşkilatı ilə münasibətlərimiz oldu. **Mən həqiqətən də bu birgə təşəbbüsə böyük yardımı üçün** Baş Katib cənab Ban Ki-Muna çox minnətdaram. "Olimpiya prinsipləri Birləşmiş Millətlər Təşkilatının prinsipləridir", o dedi. Bu, 2014-cü il ərzində biz artıq əməkdaşlığı inkişaf etdirmənin yollarını müzakirə etmək üçün bir neçə görüş keçirmişik. Biz bu ilin aprel ayında BOK və BMT arasında imzalanmış Anlaşma Memorandumundan qürur və sevinc duya bilərik. **Biz Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının yekdilliklə qəbul etdiyi BOK-un lider mövqeyini və idmanın muxtariyyətini dəstəkləyən qərarından daha çox sevinc və qürur hissi duya bilərik.** Bu qərar dialoq, sülh və inkişafın dəstəklənməsində idmanın töhfəsini qəbul edir. O, idmanın sülh və inkişafın təbliğində unikal vasitə kimi təbliğ olunmasında Olimpiya Hərəkatının misilsiz töhfəsini təsdiq edir. O, beynəlxalq idman tədbirlərinin birləşdirici və barışdırıcı təbiətinə hörmət etməyi tələb edir və üzv ölkələri idmana BMT-n davamlı inkişaf məqsədləri baxımından lazımi dəstəyi verməyə həvəsləndirir.

**Cənab Ban Ki-Mun tamamilə düzgün qeyd etdiyi kimi:**
**"Bu komanda ilə, yəni Birləşmiş Millətlər və BOK ilə - ... biz birgə ideyalarımız üçün qüvvələrimizi birləşdiririk. Davamlılıq. Hərtərəflilik. Həmrəylik. Ayrı-seçkiliyin olmaması. Bu, bütün insanların fundamental bərabərliyidir."**
**Olimpiya gündəliyi-2020 Olimpiya Hərəkatının BOK-un rəhbərliyi altında BMT ilə komandada dəyərli oyunçu olmasını təmin edir.**

Əziz dostlar və həmkarlar, indi bu Olimpiya gündəliyi-2020 sizin əlinizdədir. İndi onun Olimpiya Hərəkatının gələcəyi üçün baxışımız olduğunu göstərmək sizin seçiminizdir. Əminəm ki, bizim təsisçimiz bu günlər bizi yaxından və böyük səmimiyyətlə izləyir, çünki o, həmişə islahat tərəfdarı idi.
O deyirdi, "Cəsarət ... və ümid! …. buludlarda cəsurluqla süzün və qorxmayın. Gələcək sizə məxsusdur."
Siz BOK-un keçən sessiyasından bu günə qədər xeyli cəsarət və ümid göstərmisiniz. Konstruktiv münasibətinizə, Olimpiya gündəliyi-2020 işinə böyük öhdəliyiniz və müstəsna sədaqətiniz üçün ürəkdən təşəkkürümü bildirirəm. Bu müzakirələrin əksəriyyətində biz müxtəlif münasibətlər və rəylərlə üzləşmişik. **Bu rəngarənglik zənginləşmədir. Bu rəngarənglik daha da böyük zənginləşmədir, çünki eyni zamanda bizim baxışımız və dəyərlərimizlə əlaqədar birliyi möhkəmləndirmisiniz. Beləliklə, gəlin birlikdə bu dəyişiklik yolu ilə inkişaf anından istifadə edək. Gəlin Olimpiya günədliyi-2020-n ətrafında birləşək. Gəlin Müxtəliflikdə olan Birliyin həqiqi mənasını nümayiş etdirək. Gəlin birlikdə bu möhtəşəm, həqiqətən qlobal Olimpiya Hərəkatı üçün daha parlaq gələcək formalaşdıraq.**
**Təşəkkür edirəm!**

| 14 İşçi qrup | Sədrlər | 40 tövsiyə |
|---|---|---|
| ***Olimpiya oyunlarının unikallığı*** | | |
| İşçi Qrup 1<br>Tender prosedurası | Con D. Koats, AC | 1. Tender prosesini dəvət kimi formalaşdırma |
| | | 2. Əsas imkanları və riskləri qiymətləndirməklə, namizəd şəhərləri qiymətləndirmə |
| | | 3. Tender prosesinin xərcini azaltma |
| İşçi Qrup 2<br>Davamlılıq və miras | Əlahəzrət Şahzadə Albert II | 4. Davamlılığı Olimpiya Oyunlarının bütün amillərinə daxil etmə |
| | | 5. Davamlılığı Olimpiya Hərəkatının gündəlik əməliyyatlarına daxil etmə |
| İşçi Qrup 3<br>Olimpiya oyunlarının fərqləndirilməsi | Sem Ramsami | 6. Digər idman tədbirləri təşkilatçıları ilə yaxından əməkdaşlıq etmə |
| | | 7. Müxtəlif qabiliyyətli insanlar üçün idmanı idarə edən təşkilatlarla münasibətləri gücləndirmə |
| | | 8. Peşəkar liqalarla münasibətlər yaratma |
| İşçi Qrup 4<br>Olimpiya proqramının tərkibi üçün prosedura | Franko Karraro | 9. Olimpiya proqramı üçün çərçivəni təşkil etmə |
| | | 10. İdmana əsaslanan proqramdan tədbirə əsaslanan proqrama keçmə |
| | | 11. Genderlərin bərabərliliyini dəstəkləmə |
| İşçi Qrup 5<br>Olimpiya oyunlarının idarə edilməsi | Mario Peskante | 12. Olimpiya Oyunlarının idarə edilməsi xərclərini azaltma və çevikliyini gücləndirmə |
| | | 13. Olimpiya Hərəkatının maraqlı tərəflərinin birgə fəaliyyətini maksimum qaldırma |

| 14 İşçi qrup | Sədrlər | 40 tövsiyə |
|---|---|---|
| ***İdmançılar, Olimpiya hərəkatının qəlbində*** | | |
| İşçi Qrup 6<br><br>Təmiz idmançıları müdafiə etmə | Klaudiya Bokel | 14. Olimpizmin 6-cı fundamental prinsipini gücləndirmə |
| | | 15. Təmiz idmançıları müdafiə etmə fəlsəfəsini dəyişmə |
| | | 16. Təmiz idmançıları müdafiə etmək üçün BOK-un 20 milyon ABŞ dollarına bərabər fondunu gücləndirmə |
| | | 17. Təmiz idmançılara hörmət etmə |
| | | 18. İdmançılara dəstəyi gücləndirmə |
| ***Olimpizm fəaliyyətdə: Olimpizmi ilin 365 günü qüvvədə saxlama*** | | |
| İşçi Qrup 7<br><br>Olimpiya kanalı | Tomas Bax | 19. Olimpiya kanalını işə salma |
| İşçi Qrup 8<br><br>Olimpizm fəaliyyətdə, o cümlədən: Gənclər strategiyası | Jerardi Vertein | 20. Strateji tərəfdaşlığa daxil olma |
| | | 21. BOK-un təbliğat imkanını gücləndirmə |
| | | 22. Olimpiya dəyərlərinə əsaslanan tədrisi yayma |
| | | 23. İcmalarla münasibət qurma |
| | | 24. “Ümid üçün idman” proqramını qiymətləndirmə |
| İşçi Qrup 9<br><br>Gənclərin Olimpiya oyunları | Ser Miang Ng | 25. Gənclərin Olimpiya Oyunlarının mövqeyini nəzərdən keçirmə |
| İşçi Qrup 10<br>Mədəniyyət siyasəti | Lambis V. Nikolaou | 26. İdman və mədəniyyətin qovuşmasını artırma |

| 14 İşçi qrup | Sədrlər | 40 tövsiyə |
|---|---|---|
| | | ***BOK-un rolu: Müxtəliflikdə birlik*** |
| İşçi Qrup 11<br>Yaxşı idarəçilik və muxtariyyət | Kreq Ridi | 27. Yaxşı idarəetmənin əsas prinsiplərinə əməl etmə |
| | | 28. Muxtariyyəti dəstəkləmə |
| | | 29. Şəffaflığı artırma |
| İşçi Qrup 12<br>Etika | Uisufa Ndiaye | 30. BOK Etika komissiyasının müstəqilliyini gücləndirmə |
| | | 31. Uyğunluğu təmin etmə |
| | | 32. Etikanı gücləndirmə |
| İşçi Qrup 13<br>Sponsorluq, lisenziya verilməsi və reklamın strateji şəkildə nəzərdə tutulması | Tsunekazu Takeda (İştirak etmir); Xuan Antonio Samaranx (Juan Antonio Samaranch) (Sədr müavini) | 33. Sponsorların "Olimpizm fəaliyyətdə" proqramlarına cəlb edilməsi |
| | | 34. Qlobal lisenziya proqramının hazırlanması |
| | | 35. Olimpiya Tərəfdaşları olan sponsorların BOK ilə münasibətini inkişaf etdirmək |
| | | 36. Olimpiya brendinin qeyri-kommersiya məqsədi ilə istifadəsini genişləndirmə |
| | | ***BOK strukturu və təşkilatı*** |
| İşçi Qrup 14<br>BOK Üzvlüyü | Əlahəzrət Ekshersoq Lüksemburqlu Henri | 37. BOK üzvlüyü üçün yaş həddini həll etmə |
| | | 38. Qarşıya məqsəd qoyulmuş işəgötürmə prosesini tətbiq etmə |
| | | 39. Cəmiyyətlə və Olimpiya hərəkatı daxilində dialoqu inkişaf etdirmə |
| | | 40. BOK komissiyalarının iş həcmini və tərkibini nəzərdən keçirmə |

## Gələcək Olimpiya hərəkatının gələcəyini formalaşdıracaq 20+20 tövsiyə


# Olimpiya Oyunlarının Unikallığı........................................................14

**İşçi Qrupu 1 - Tender proseduru....................................................................14**

1. Tender prosesini dəvət kimi formalaşdırma ........................................................15
2. Əsas imkanları və riskləri qiymətləndirməklə,
namizəd şəhərləri qiymətləndirmə ........................................................................18
3. Tender prosesinin xərcini azaltma ........................................................................20

**İşçi Qrupu 2 - Davamlılıq və Miras..................................................................22**

4. Davamlılığı Olimpiya oyunlarının bütün amillərinə daxil etmə ...........................23
5. Davamlılığı Olimpiya hərəkatının gündəlik əməliyyatlarına daxil etmə ..............24

**İşçi Qrupu 3 - Olimpiya Oyunlarının fərqləndirilməsi........................................25**

6. Digər idman tədbirləri təşkilatçıları ilə yaxından
əməkdaşlıq etmə .....................................................................................................26
7. Müxtəlif qabiliyyətli insanlar üçün idmanı idarə edən təşkilatlarla
münasibətləri gücləndirmə ......................................................................................28
8. Peşəkar liqalarla münasibətlər yaratma ................................................................29

**İşçi Qrup 4 - Olimpiya proqramının tərkibi üçün prosedura ...............................30**

9. Olimpiya proqramı üçün çərçivəni təşkil etmə.......................................................31
10. İdmana əsaslanan proqramdan tədbirə
əsaslanan proqrama keçmə.......................................................................................33
11. Genderlərin bərabərliliyini dəstəkləmə .................................................................47

**İşçi Qrupu 5 - Olimpiya oyunlarının idarə edilməsi ...........................................48**

12. Olimpiya oyunlarının idarə edilməsi xərclərini azaltma və çevikliyini gücləndirmə ............49
13. Olimpiya hərəkatının maraqlı tərəflərinin birgə
fəaliyyətini maksimum qaldırma...............................................................................51

# İdmançılar, Olimpiya hərəkatının mərkəzində ......................................53

**İşçi Qrupu 6 - Təmiz idmançıların müdafiə edilməsi ........................................ 53**

14. Olimpizmin 6-cı fundamental prinsipini gücləndirmə ...........................................55
15. Təmiz idmançıları müdafiə etmə fəlsəfəsini dəyişmə .......................................... 56
16. Təmiz idmançıları müdafiə etmək üçün BOK-un
20 milyon ABŞ dollarına bərabər fondunu gücləndirmə......................................... 58
17. Təmiz idmançılara hörmət etmə.......................................................................... 60
18. İdmançılara dəstəyi gücləndirmə ........................................................................ 61

**Olimpizm fəaliyyətdə: Olimpizmi ilin 365 günü qüvvədə saxlama ........62**

**İşçi Qrupu 7 - Olimpiya kanalı ........ 62**

19. Olimpiya kanalını işə salma ........63

**İşçi Qrupu 8 - Gənclər üzrə strategiya da daxil olmaqla Olimpizm fəaliyyətdə ........ 66**

20. Strateji tərəfdaşlığa daxil olma ........ 67
21. BOK-un təbliğat imkanını gücləndirmə........ 69
22. Olimpiya dəyərlərinə əsaslanan tədrisi yayma........71
23. İcmalarla münasibət qurma ........ 73
24. “Ümid üçün idman” proqramını qiymətləndirmə........75

**İşçi Qrupu 9 - Gənclərin Olimpiya Oyunları ........ 77**

25. Gənclərin Olimpiya oyunlarının mövqeyini nəzərdən keçirmə ........ 78

**İşçi Qrupu 10 - Mədəni siyasət ........79**

26. İdman və mədəniyyətin qovuşmasını artırma ........80

**BOK-un rolu: Müxtəliflikdə birlik ........82**

**İşçi Qrupu 11 - Yaxşı idarəçilik və müxtariyyət........82**

27. Yaxşı idarəetmənin əsas prinsiplərinə əməl etmə........ 84
28. Muxtariyyəti dəstəkləmə ........85
29. Şəffaflığı artırma ........86

**İşçi Qrupu 12 - Etika ........87**

30. BOK Etika komissiyasının müstəqilliyini gücləndirmə........88
31. Uyğunluğu təmin etmə ........89
32. Etikanı gücləndirmə........ 90

**İşçi Qrup 13 - Sponsorluğun, lisenziya verilməsi və reklamın strateji baxımdan nəzərdən keçirilməsi........ 91**

33. Sponsorların "Olimpizm fəaliyyətdə" proqramlarına cəlb edilməsi ........ 92
34. Qlobal lisenziya proqramının hazırlanması ........ 93
35. Baş sponsorların BOK ilə münasibətini inkişaf etdirmək ........ 95
36. Olimpiya brendinin qeyri-kommersiya məqsədi ilə istifadəsini genişləndirmə........ 96

**BOK strukturu və təşkilatı ........97**

**İşçi Qrupu 14 - BOK-a üzvlük ........ 97**

37. BOK üzvlüyü üçün yaş həddini həll etmə ........ 99
38. Qarşıya məqsəd qoyulmuş işəgötürmə prosesini tətbiq etmə........ 100
39. Cəmiyyətlə və Olimpiya hərəkatı daxilində dialoqu inkişaf etdirmə........103
40. BOK komissiyalarının iş həcmini və tərkibini nəzərdən keçirmə ........ 105

# Olimpiya Oyunlarının Unikallığı

## İşçi Qrupu 1 - Tender proseduru

| | |
|---|---|
| Sədr: | Con Kouts |
| İşçi qrupunun görüş tarixi: | 20 iyun 2014 |

**MƏZMUN**

Cari BOK tender prosesi 1999-cu ilin dekabrında 110-cu BOK Sessiyasında qəbul edilmiş islahatların nəticəsidir. Tədrisə böyük diqqət verən iki fazalı tender prosesi 1999-cu ildə tətbiq edilmişdir və bütün növbəti yay və qış Olimpiya oyunlarına sahiblik edəcək şəhərlərin seçilməsində istifadə edilmiş və, ümumiyyətlə, yaxşı hesab edilir və qəbul edilmişdir. O, hər iki ildən bir, hər tender prosesindən sonra nəzərdən keçirilərək, namizəd şəhərlərin verdiyi və BOK İcra şurasının qəbul etdiyi tövsiyələr ona daxil edilmişdir.

Təşkilatçı şəhərlə bağlanmış Müqavilə istisna olmaqla, bütün BOK tender sənədlərini www.olympic.org saytından əldə etmək
olar.

Vaxt keçdikcə, Olimpiya Oyunlarının tələbləri ilə bağlı namizəd şəhərlərə verilən məlumatın həcmi və təfərrüatı artmışdır. Qəbul edildiyi kimi, bu, BOK-un franşiza üzrə tenderə dəvəti kimi qəbul edilə bilər.

Dəyişən siyasi və iqtisadi dünya iqlimi Oyunların hazırlanmasına və bu hazırlıq mərhələlərinə çəkilən xərclərə təsir etmişdir. Xərclərlə mənfəətin müqayisəsi ilə bağlı ictimaiyyətin debatına daha çox diqqət verilmişdir. Olimpiya oyunlarının artan xərclərinə dair hesabat ictimaiyyətin Oyunlara tender təklifi vermək və sahiblik etmək həvəsinə təsir etmişdir.

Olimpiya gündəliyi-2020 tender prosesinin güclü və zəif cəhətlərini, imkanları və onu əhatə edən təhlükələri nəzərdən keçirmək, Olimpiya oyunları üçün tender təklifi verməni həm cəlbedici, həm də davamlı olmasını təmin etmək imkanı verir.

# Tövsiyə 1

## Tender prosesini **dəvət** kimi formalaşdırma

**Yeni fəlsəfini təqdim etmə: BOK potensial namizəd şəhərləri özlərinin idman növlərinə, iqtisadi, sosial və ekoloji uzun-müddətli ehtiyaclarına cavab verən Olimpiya layihəsi təqdim etməyə dəvət etməlidir.**

1. BOK yardım fazası təşkil etməlidir və bu faza zamanı BOK tender vermək fikrində olan şəhərlərə tender proseduralarına, Oyunların əsas tələblərinə və bundan əvvəlki şəhərlərin müsbət tender və Oyunlar mirasını necə təmin etdiklərinə dair məsləhət verəcək.
2. BOK mövcud obyektlərdən maksimum istifadə etməyi və müvəqqəti və sökülə bilən yarış meydançalarından istifadə etməyi fəal şəkildə təbliğ etməlidir.
3. BOK Olimpiya oyunları üçün sahib şəhərdən kənarda, yaxud müstəsna hallarda, sahib ölkədən kənarda xüsusi davamlılıq məqsədi ilə ilkin yarışların keçirilməsinə icazə verməlidir.
4. BOK Olimpiya Oyunları üçün sahib şəhərdən kənarda, yaxud müstəsna hallarda, sahib ölkədən kənarda xüsusi coğrafiya və davamlılıq məqsədi ilə tam idman növləri və ya məşqlərin keçirilməsinə icazə verməlidir.
5. BOK sahib şəhərlə müqaviləyə Olimpiya nizamnaməsinin 6-cı fundamental prinsipi ilə bağlı, o cümlədən ətraf mühitin mühafizəsi və işçi qüvvəsi ilə bağlı məsələlərə dair maddələr daxil etməlidir.
6. BOK Təşkilatçı Şəhərlə Müqaviləni (TŞM) ictimaiyyətə açıqlamalıdır.
7. TŞM-nə BOK-un OOTK-a etdiyi maliyyə töhfəsinin təfərrüatları daxil edilməlidir.
8. Müqavilənin tərkib hissələrini "məxfilik" əsasında hazırlamaqla üçüncü tərəflərin hüquqi maraqlarına hörmət etmək.
9. BOK yerli məzmuna uyğun olaraq, TŞM-nə təşkilatçı şəhər və BOK-un başqa tərəflərin imza etməsini qəbul etməlidir.
10. BOK TŞM-ni verilmiş tender prosesinin başlanğıcında təchiz etməlidir.

**TƏSİRLƏR: Hüquqi / Maliyyə / Təşkilati / Kadrlar Ehtiyatı / Digər (brend)**

☑ **Hüquqi təsir**

 ***Olimpiya Nizamnaməsinə dəyişikliklər:***

33 Təşkilatçı şəhərin seçilməsi*

33 Qaydasının Rəsmi izahatı

3.3 BOK təşkilatçı şəhər və onun ölkəsinin MOK ilə yazılı saziş bağlayır. BOK-un qərarı ilə digər yerli, regional və ya milli orqanların, o cümlədən müvafiq hallarda təşkilatçı şəhərdən kənarda digər MOK-un və yerli, regional və milli orqanlar da belə sazişin üzvü ola bilərlər. Adətən Təşkilatçı Şəhər Müqaviləsi adlanan belə saziş oyunlara sahiblik edəcək şəhər seçilən kimi dərhal bütün tərəflər arasında imzalanır.

Olimpiya oyunlarının 34 yeri, sahələri və yarış meydançaları*

BOK İcra Şurası öz qərarı ilə aşağıdakılara səlahiyyət verdiyi hallar istisna olmaqla, bütün idman yarışları, Açılış və Bağlanma mərasimləri, əsasən, Olimpiya Oyunlarına sahiblik edən şəhərdə keçirilməlidir: ~~müəyyən tədbirlərin həmin ölkədə yerləşən başqa şəhərlərdə, sahələrdə və ya yarış meydançalarında keçirilməsinə səlahiyyət verir. Açılış və Bağlanma mərasimləri sahib şəhərin özündə keçirilməlidir. Hər hansı digər idman yarışları və ya digər tədbirlərin yeri, sahələri və yarış meydançaları BOK İcra Şurası tərəfindən təsdiq edilməlidir.~~

- xüsusilə davamlılıq məqsədilə təşkilatçı şəhərdən kənarda və ya, müstəsna hallarda, oyunlara sahiblik edən ölkədən kənarda yerləşən şəhərdə (və ya şəhərlərdə) ilkin idman yarışlarının təşkil edilməsi, və

- xüsusilə coğrafiya və davamlılıq məqsədilə təşkilatçı şəhərdən kənarda və ya, müstəsna hallarda, oyunlara sahiblik edən ölkədən kənarda yerləşən şəhərdə (və ya şəhərlərdə) tam idman yarışlarının, məşqlərinin və ya tədbirlərin təşkil edilməsi.

~~2. Qış Olimpiya oyunlarında coğrafi və ya topoqrafik səbəblər müəyyən tədbirləri və ya yarışları oyunlara sahiblik edən şəhərin ölkəsində təşkil etməyə imkan vermədikdə, BOK müstəsna qaydada bu tədbirlərin qonşu ölkədə keçirilməsinə icazə verə bilər.~~

Qayda 34-ün Rəsmi izahı

1. Hər hansı tədbiri, məşqi və ya digər idman yarışlarını təşkilatçı şəhərdən kənar şəhərdə və ya yerdə təşkil etmək xahişinə belə qərarın qəbul edilməsi səbəb(lər)i daxil edilməli və yazılı şəkildə təsdiq üçün BOK İcra Şurasına təqdim edilməlidir. BOK İcra Şurası ilə başqa şərtlər razılaşdırıldığı hallar istisna olmaqla, belə xahiş ən geci BOK Qiymətləndirmə Komissiyasının namizəd şəhərə səfərindən əvvəl təqdim edilməlidir.

2. Olimpiya oyunlarının təşkilinə, aparılmasına və mətbuatda işıqlandırılmasına oyunlara sahiblik edən şəhərdə, yaxud onun qonşuluğunda və ya digər yarış sahələri və meydançalarında aparılan tədbirlər heç bir halda mane olmamalıdır.

- ***2022 Təşkilatçı Şəhərlə Müqavilə***

Bu tövsiyənin prinsipi artıq 2022 Təşkilatçı Şəhərlə Müqaviləyə aşağıdakı məzmunda tətbiq edilmişdir:

Preambula, paraqraf L

**NƏZƏRƏ ALARAQ Kİ**, Şəhər və MOK Oyunların vacibliyini və Olimpiya imicinin dəyərini başa düşür və qəbul edir, və bütün fəaliyyətləri Olimpizmin fundamental prinsiplərini təbliğ edəcək və zənginləşdirəcək qaydada aparmağa, xüsusilə hər hansı ölkə və ya şəxsə qarşı irqinə, dininə, siyasi görüşlərinə, gender və ya digər əsaslı ayrı-seçkilik göstərməməyə, həmçinin Olimpiya Hərəkatının inkişaf etdirilməsinə razılıq verir;

Fəsil II, paraqraf 21

21. İnsanların və Ətraf mühitin davamlı inkişafı

Şəhər, MOK və OOTK bu Müqavilədə nəzərdə tutulmuş öhdəliklərini və fəaliyyətlərini davamlı inkişaf konsepsiyasını dəstəkləyəcək şəkildə və ətraf mühitin mühafizəsini təbliğ edəcək şəkildə aparmağı öhdəsinə götürür. Xüsusilə, davamlı inkişaf konsepsiyası Oyunların mirasını, o cümlədən aşağıdakı Bölmə 36-da qeyd edilmiş yarış meydançalarının və digər obyektlərin və infrastrukturların Olimpiya Oyunlarından sonra da inkişafını nəzərdə tutacaq. Şəhər, MOK və OOTK Oyunların təşkil edilməsi üçün zəruri olan inkişaf layihələrinin yerli, regional və beynəlxalq qanunvericilərə və planlaşdırma, tikinti, ətraf mühitin mühafizəsi, sağlamlıq və əməyin təhlükəsizliyi və əmək qanunları ilə əlaqədar Təşkilatçı Ölkəyə tətbiq edilən beynəlxalq saziş və protokollara uyğun olmasını təmin etmək məqsədilə bütün lazımi tədbirləri görəcəklər.

☐ ***Tender təklifini vermə prosedurası üçün qaydalar***

Bütün tender vermə təklifi üçün yeni qaydaların hazırlanması.

☑ **Maliyyə təsiri**

Bütün Oyunlarda maraqlı tərəflərlə məsləhətləşmələr də daxil olmaqla, əsas tələbləri müəyyən etmək üçün tədqiqatlar.
Tender bazarına yönəlmiş və potensial namizəd şəhərlərin öz rabitə və milli dəstək fəaliyyətlərində istifadə etmələri ehtiyacına uyğunlaşdırılmış rabitə və ictimai münasibətlərə mesajların və alətlərin yaradılması.

☑ **Təşkilati təsir**

Olimpiya oyunları üçün Tender verən şəhərin əlaqələndirilməsi

- gələcək namizəd şəhərlərə onların mühitinə uyğun daha yaxşı dəyərə malik təklif yaratmağa yardım məqsədi güdən yeni filial
- cari tender prosesində şəhərlərin tətbiqi və yardım məqsədi güdən yeni filial.

☑ **Kadrlar şöbəsinə təsir**

1 əlavə tam ştatlı ekvivalent

☐ **Digər təsir**

# Tövsiyə 2

## Əsas imkanları və riskləri qiymətləndirməklə, namizəd şəhərləri qiymətləndirmə

**Qiymətləndirmə Komissiyasının hesabatı davamlılığa və mirasa xüsusilə diqqət verməklə, daha dəqiq risk və imkanların qiymətləndirilməsini təqdim etməlidir.**

1. Mövcud 14 Namizəd Şəhəri qiymətləndirmə meyarına növbəti başlıqlı yeni meyarı daxil etmə: İdmançıların Təcrübəsi.
2. BOK aşağıdakıları tender üçün müsbət amil kimi qəbul etməlidir: mövcud obyektlərdən maksimum istifadə və uzun müddətli yarış meydançası mirasının tələb olunmadığı hallarda və ya əsaslandırılması mümkün olan hallarda müvəqqəti və sökülə bilə yarış meydançalarından istifadə.
3. BOK, Olimpiya Hərəkatının maraqları ilə əməkdaşlıqla Olimpiya oyunlarına sahiblik etmək üçün lazım olan əsas tələbləri müəyyən etməlidir. İdmançıların çıxışı üçün bütün yarış meydançaları müasir meydançalar olmalıdır və əsas tələblərin bir hissəsini təşkil etməlidir.
4. BOK Olimpiya oyunlarının təşkili ilə əlaqədar iki müxtəlif büdcənin elementlərini aydınlaşdırmalıdır: bir tərəfdən infrastruktura uzun müddətli sərmayə və belə sərmayədən əldə edilən mənfəət və digər tərəfdən əməliyyat büdcəsi. Bundan başqa, BOK-un Oyunlara töhfəsi daha da yayılmalı və təbliğ edilməlidir.
5. Namizəd şəhərlə qısa tanışlıq söhbətinə BOK üzvləri və BOK Qiymətləndirmə Komissiyası ilə video-kamera ilə müzakirə daxil olacaq.
6. Komissiya sosial, iqtisadi və siyasi vəziyyətlər kimi sahələrdə üçüncü tərəfin müstəqil məsləhətindən yararlanmalı və əsas diqqət davamlılığa və mirasa verilməlidir.

**TƏSİRLƏR: Hüquqi / Maliyyə / Təşkilati / Kadrlar Ehtiyatı / Digər (brend)**

☑ **Hüquqi təsir**

*Olimpiya Nizamnaməsinə dəyişikliklər:*

33 Oyunlara sahiblik edəcək şəhərin seçilməsi*

**Qayda 33-n Rəsmi izahı**

2.3 Hər bir Qiymətləndirmə Komissiyası bütün namizəd şəhərlərin namizədliyini nəzərdən keçirəcək, sahələri yoxlayacaq və bütün namizədlər haqqında yazılı hesabatı Olimpiya oyunlarına sahiblik edəcək şəhəri seçəcək Sessiyanın açılış tarixindən ən geci bir ay əvvəl bütün BOK üzvlərinə təqdim edəcək. Belə hesabata hər bir namizədin imkanları və risklərin, o cümlədən davamlılıq və mirasın qiymətləndirilməsi daxil olacaq.

| |
|---|
| ☑ **Maliyyə təsiri**<br><br>Üçüncü tərəf müstəqil riskin qiymətləndirilməsi. |
| ☐ **Təşkilati təsir** |
| ☐ **Kadrlar şöbəsinə təsir** |
| ☐ **Digər təsir** |

# Tövsiyə 3

## Tender **prosesinin xərcini azaltma**

**BOK Namizəd Şəhərlərə yardımı davam etdirməli və tender xərclərini azaltmalıdır.**

1. Namizəd Şəhərlərə ancaq aşağıdakı tədbirlərdə iştirak etmək və aşağıdakı təşkilatlara təqdimatlar vermək icazə verilməlidir:

- Namizəd şəhərlərlə qısa tanışlıq söhbəti (Brifinq) zamanı BOK üzvlərinə,
- müvafiq olaraq ASOIF/AIOWF (yay olimpiya oyunları üzrə beynəlxalq federasiyalar assosiasiyası/qış olimpiya oyunları üzrə beynəlxalq federasiyalar assosiasiyası). Bu təqdimat Namizəd Şəhərlər tanışlıq söhbəti (brifinq) ilə birləşdirilə bilər,
- Səsvermədən əvvəl AMOK Baş Assambleyasına,
- Oyunlara sahiblik edəcək şəhərin seçildiyi BOK Sessiyasına.

2. BOK aşağıdakı xərcləri ödəyəcək:

- BOK Qiymətləndirmə komissiyasının səfəri ilə bağlı yaranmış xərclər,
- Namizəd Şəhərin Lozannada BOK Üzvlərinə Brifinqi (tanışlıq söhbəti) üçün altı akkreditasiya almış nümayəndənin səyahət və yaşayış xərcləri,
- Namizəd Şəhərin müvafiq olaraq ASOIF/AIOWF-a Brifinqi (tanışlıq söhbəti) üçün altı akkreditasiya almış nümayəndənin səyahət və yaşayış xərcləri,
- AMOK Baş Assambleyasına altı akkreditasiya almış nümayəndənin səyahət və yaşayış xərcləri,
- Oyunlara sahiblik edəcək şəhərin seçiləcəyi BOK Sessiyasına 12 akkreditasiya almış nümayəndənin səyahət və yaşayış xərcləri.

3. Namizəd Faylı ancaq elektron formatda nəşr edilməlidir.

4. BOK tender təqdim etmiş şəhər üçün işləmək hüquq olan məsləhətçilərin / lobbiçilərin jurnalını hazırlamalı və nəzarət etməlidir.
Belə məsləhətçilərin/lobbiçilərin jurnala qeyd olunması üçün ilkin şərt kimi tələb olunan BOK Kodu jurnala Etika və Kodu jurnala Davranışının rəsmi qəbulu.

5. Olimpiya Kanalının yaradılması təsdiq edildiyi hallarda BOK tenderdə çıxış edən şəhərlərin xahişi ilə, bu Kanaldan istifadəyə imkan yaradacaq.

**TƏSİRLƏR: Hüquqi / Maliyyə / Təşkilati / Kadrlar Ehtiyatı / Digər (brend)**

☑ **Hüquqi təsir**

Tender vermə Qaydaları və Prosedurаları

Məsləhətçilərin/Lobbiçilərin qeydiyyatı üçün qaydalar

Olimpiya oyunlarını təşkil etmək istəyən Şəhərlər üçün Etika Məcəlləsi və Davranış Qaydaları

| |
|---|
| ☑ **Maliyyə təsiri**<br><br>Cari namizəd fazasının qalan hissəsi üçün (altı ay qalmış, iki namizəd) 2015-ci il BOK büdcəsində 1.5 milyon ABŞ dolları ayrılmışdır. Gələcəkdə maliyyə təsiri namizədlərin sayından, həm də namizədliklərin yerindən asılı olacaq. |
| ☐ **Təşkilati təsir** |
| ☐ **Kadrlar şöbəsinə təsir** |
| ☐ **Digər təsirlər** |

# İşçi Qrupu 2 - **Davamlılıq və miras**

| | |
|---|---|
| Sədr: | Əlahəzrət Şahzadə Albert II |
| İşçi qrupunun görüş tarixi: | 19 iyun 2014 |

**MƏZMUN**

Bütün növ təzyiqlərin - sosial, iqtisadi və ekoloji - artdığı bir dünyada bütün sahələrdə, o cümlədən idmanda davamlı inkişafın birləşdirilməsi bir zərurətə çevrilmişdir. Hökumətlər, korporasiyalar, özəl bizneslər və tədbirlər - həm idman, həm də qeyri-idman - getdikcə daha çox diqqət altına düşür, hətta daha böyük məsuliyyət daşıyır.

BOK öz əməliyyatlarının bir çox amillərinə davamlılığı daxil etmiş, əsas diqqəti Olimpiya oyunlarının planlaşdırılmasına və təşkilinə vermişdir.

Müsbət nailiyyətlər aydın şəkildə nümayiş etdirilə bilsə də, Olimpiya oyunlarına sahiblik etmənin xərcləri və təsirləri ilə bağlı narahatlıq doğuran məsələləri aradan qaldırmaq üçün daha çox iş görülməlidir.

BOK rəhbərliyi ələ almağa hazır olmalıdır. Olimpiya oyunlarının təşkilinin bütün amillərində davamlılığı təmin etmək üçün daha proaktiv yaxınlaşma üsulu lazımdır.

Oyunlara sahiblik edən şəhərə davamlı və müsbət miras qoymaqla, sahib ölkə və bütün ictimaiyyət əsas məqsədlərdən biri olmalıdır.

Bundan əlavə, davamlı inkişaf bütün Olimpiya hərəkatı tərəfindən qəbul edilməlidir. qeyd olunması üçün ilkin şərt kimi tələb olunan
BOK-dan liderlik rolunu götürmək və bütün maraqlı tərəflərlə münasibət
yaratmaq gözlənilir.

Davamlılıq və miras üzrə İşçi Qrupun müzakirələri əsas diqqəti iki amilə, yəni Olimpiya oyunlarına və Olimpiya hərəkatına verir. Lakin bunlar davamlılıq və mirasla əlaqədar olan yeganə təkliflər deyil. Digər İşçi Qrupların (1, 3, 4 və 5) tövsiyələrinin məzmununda başa düşülməli bir sıra digər tövsiyələr də vardır ki, onlar bu sənədin başqa yerində təsvir edilmişdir.

# Tövsiyə 4

## Davamlılığı Olimpiadanın bütün amillərinə daxil etmə

**BOK davamlılıqla bağlı daha proaktiv və liderlik rolu götürməli və onun Olimpiya Oyunlarının planlaşdırılmasının və təşkilinin bütün amillərinə daxil edilməsini təmin etməlidir.**

1. Potensial və faktiki Olimpiya oyunları təşkilatçılarına öz layihələrinin bütün mərhələlərində iqtisadi, sosial və ekoloji sahələri əhatə edən davamlılıq tədbirlərini birləşdirmək və tətbiq etmək imkanı verən davamlılıq strategiyasının hazırlanması;
2. Yeni seçilmiş Təşkilatçı Komitələr davamlılığı təşkilat vasitəsilə tətbiq etmək üçün ən yaxşı mümkün idarəçiliyi təşkil etməlidir;
3. BOK MOK və Olimpiya Şəhərlərinin Ümumdünya Birliyi (UMVO) kimi xarici təşkilatlarla dəstəyi ilə Oyunların mirasına Oyunlardan sonra nəzarət edilməsini təmin etməlidir.

**TƏSİRLƏR: Hüquqi / Maliyyə / Təşkilati / Kadrlar Ehtiyatı / Digər (brend)**

☑ **Hüquqi təsir**

Növbəti Təşkilatçı Şəhərlə Müqavilə bir sıra öhdəliklər vasitəsilə yuxarıda verilmiş siyasətin inkişaf etdirilməsini əks etdirməlidir.

Təşkilatçı Şəhərlə Müqaviləyə təşkilatçıların Oyunlardan sonra Oyunların mirasına nəzarət edəcək müəssisələr barədə BOK-a məlumat vermək öhdəliyi daxil edilməlidir

OOTK-n davamlılıqla bağlı fəaliyyətlərinin mümkün müstəqil qiymətləndirilməsi üçün Birləşmiş Millətlər Təşkilatının Ekoloji Proqramı (UNEP) ilə Anlaşma Memorandumun hazırlanmasını nəzərdən keçirmək.

☑ **Maliyyə təsiri**

Fərdi xarici ekspertlərə işləməkdən daxili qaydada davamlılığın hazırlanmasına doğru.

☑ **Təşkilati təsir**

Davamlı inkişafın geniş sahələrini əhatə etmək və Olimpiya oyunlarının keçmiş, indiki və gələcək buraxılışlarının mirasına nəzarət etmək və sənədləşdirmək üçün qlobal miqyasda tanınmış müstəqil ekspertlərin şəbəkəsinin yaradılması tələb olunur.

☑ **Kadrlar şöbəsinə təsir**

Bir əlavə tam ştatlı ekvivalent

# Tövsiyə 5

## Davamlılığı Olimpiya hərəkatının gündəlik əməliyyatlarına daxil etmə

**BOK davamlılıq prinsiplərini əhatə etməlidir:**

1. BOK davamlılığı öz gündəlik əməliyyatlarına daxil etməlidir

- BOK davamlılığı öz mal və xidmətlər tədarükünə, o cümlədən tədbirlərin (yığıncaqlar, konfranslar və s.) təşkilinə daxil etməlidir.
- BOK səyahət təsirlərini azaltmalı və karbon emissiyalarını əvəz etməlidir.
- BOK Lozannada yerləşən qərargahı üçün mümkün olan ən yaxşı davamlılıq standartlarını tətbiq etməlidir.

2. BOK Olimpiya hərəkatının maraqlı tərəflərini davamlılığı aşağıdakı yollarla öz təşkilatlarına və əməliyyatlarına daxil etməyə cəlb etməli və yardım göstərməlidir:

- tövsiyələrin hazırlanması,
- alətlərin təchiz edilməsi, məs. ən yaxşı təcrübələr və qiymətləndirici siyahılar,
- təşəbbüslərin tətbiq edilməsində yardım və köməklik etmək üçün qeyd olunması üçün ilkin şərt kimi tələb olunan Olimpiya Həmrəyliyi kimi jurnala mövcud kanallardan istifadə etməklə,
- Olimpiya maraqlı tərəfləri arasında məlumat mübadiləsini təmin edən mexanizmləri təchiz etmək.

3. Yuxarıdakılara nail olmaq üçün, BOK UNEP kimi müvafiq ekspert təşkilatlarla əməkdaşlıq etməlidir.

**TƏSİRLƏR: Hüquqi / Maliyyə / Təşkilati / Kadrlar Ehtiyatı / Digər (brend)**

☑ **Hüquqi təsir**

BOK daxili qaydaları
Tender proseslərində, sponsorluqda, lisenziya verilməsində və müqavilələrin təzələnməsi və ya yeni müqavilələr üçün təchizatçı sazişlərində davamlı mənbə təyini siyasətini təqdim etmə.

☑ **Maliyyə təsiri**

BOK sərmayələrdən orta müddətli mənfəət əldə etmək üçün davamlılığa sərmayə qoymağa hazırdır.

☑ **Təşkilati təsir**

Məhdud sayda birinci növbəli tədbirləri tətbiq etməklə və bunları təşkilatda lazımi dərəcədə yaymaqla, məhdud sayda pozuntu olmalıdır.

☑ **Kadrlar şöbəsinə təsir**

Bu, təşkilatın öz davamlılıq fəaliyyətini tam olaraq təkmilləşdirilməsi deməkdir. Davamlılıq prinsiplərini tətbiq etmək üçün xarici ekspertlərin dəstəyi tələb olacaq.

# İşçi Qrupu 3 - **Olimpiya oyunlarının fərqləndirilməsi**

| | |
|---|---|
| Sədr: | Sem Ramsami |
| İşçi qrupunun görüş tarixi: | 18 iyun 2014 |

**MƏZMUN**

Oyunların bu yaxınlarda uğurla keçirilməsi Olimpiya oyunlarını unikal tədbir kimi gücləndirmişdir. Hərtərəfli tədqiqatlar və ictimai sorğular bizdə Olimpiya oyunlarının və BOK və Olimpiya hərəkatının təşkilatının həddindən artıq müsbət təəssüratını yaradır.

Brendin tanınması baxımından, bu yaxınlarda aparılmış tədqiqatlar* göstərdi ki, sual verilmiş şəxslərin 93 faizi Olimpiya simvolunu tanıyır - bu, onu sorğu aparılmış bütün brend nişanları arasında ən tanınan nişan edir. Tək coğrafi səviyyədə deyil, həmçinin qadınlar və kişilər arasında, o cümlədən bütün yaş intervallarında tanınma demək olar ki, bərabər idi. Sorğuda iştirak edənlər Olimpiya simvolunu qlobal, həvəsləndirici, dostluq, müxtəliflik, sülh və mükəmməllik kimi dəyərlərlə xeyli əlaqələndirirdilər.

Bu tədqiqat həm də göstərdi ki, BOK liderlik göstərən, dopinqə qarşı ciddi çıxış edən təşkilat kimi tanınır, və Olimpiya oyunlarına sahiblik etmənin təşkilatçı ölkə üçün faydalı olması geniş miqyasda qəbul edilir.

Hər iki ildən bir Oyunların platforması misli olmayan miqyasda geniş ictimaiyyəti cəlb etməyə imkan verir. Bununla belə, BOK və Olimpiya hərəkatı tərəfindən Oyunlar arasında yerinə yetirəcəyi daha davamlı əlaqə və münasibətlər kifayət miqdarda deyil.

Olimpiya oyunlarının unikallığı həmçinin onların 35 Olimpiya idman növü üzrə ən yaxşı idmançıları bir araya gətirmə qabiliyyətidir. Çoxlu müxtəlif strukturların, o cümlədən peşəkar liqaların mövcudluğu Olimpiya oyunlarının bütün idmançılar üçün ən başlıca oyuna çevrilməsi üçün müvafiq şəraitlərin olmasını tələb edir.

Olimpiya oyunları unikal olsa da, onlar eyni zamanda bir çox digər idman tədbirlərinə əlavədir. Digər oyunlar və tədbir təşkilatçıları ilə strateji alyansların Olimpiya hərəkatının daha geniş missiyasını çatdırmağa yardım edə biləcəyi qəbul edilir. Hərtərəfli qlobal idman tədbirləri təqvimi nöqteyi-nəzərindən Olimpiya sammiti artıq BOK-n müsbət liderliyi altında işçi qrupu təşkil etmişdir.

Olimpiya şəhərciyi bütün dünya üçün idmançıların heç bir ayrı-seçkilik olmadan harmoniyada yaşaya biləcəyi unikal və qüvvətli simvoldur. Olimpiya şəhərciyi və onun dünyaya yaydığı qüvvətli təsvir müdafiə edilməli və dəstəklənməlidir.

** Tədqiqat sorğusu 2014-cü il Soçi Olimpiya Oyunlarından sonra, bu ilin əvvəllərində BOK tərəfindən səlahiyyət almış KantarSport (Kantar Medianin bölməsi) tərəfindən aparılmış və 16 ölkədə cəmi 36,000 nəfər arasında sorğu keçirilmişdir.*

# Tövsiyə 6

## Digər idman tədbirləri təşkilatçıları ilə yaxından əməkdaşlıq etmə

**Digər idman tədbirləri təşkilatçıları ilə yaxından əməkdaşlıq etmə:**

1. BOK və Beynəlxalq Ümumdünya Oyunları Assosiasiyası (IWGA) idman proqramının tərkibi və onların müvafiq qiymətləndirilməsi ilə bağlı yaxından əməkdaşlıq etməlidir.
2. BOK və Beynəlxalq Ustalar arasında Oyunlar Assosiasiyası (IMGA) Olimpiya oyunlarına sahiblik edəcək şəhərlərin Olimpiya Oyunlarından sonra Ustalar arasında oyunları təşkil etmə seçimindən yararlanması imkanını tədqiq etməlidir.
3. BOK oyunlara sahiblik edən cəmiyyətdə gənclərin cəlb edilməsi və cəmiyyətə fayda verməsinə təkan vermək üçün Olimpiya oyunlarının və ya Gənclər arasında olimpiya oyunlarının bir hissəsi kimi "idman növləri laboratoriyası" və ya idman növlərinə cəlb edilmə proqramlarını tətbiq etməni nəzərdən keçirməlidir.

**İLKİN MƏLUMAT / TƏSVİR**

1. Dünya oyunları ilə əməkdaşlıq
   Dünya oyunları Olimpiya proqramına daxil edilməyən idman növlərini və fənləri nümayiş etdirir. BOK-n qısa siyahısına daxil edilmiş idman növləri, yeni fənlər və tədbirlər Dünya Oyunları zamanı qiymətləndirilə və hərtərəfli öyrənilə bilər.
2. Ustalar arasında oyunlar ilə əməkdaşlıq
   Beynəlxalq Ustalar arasında Oyunlar Assosiasiyası (IMGA) 35-dən artıq yaşı olan idmançıların Hamı üçün İdman ruhunda iştirakını təbliğ edir. Ustalar arasında Oyunların yay yarışlarına təxminən 20,000 idmançı, qış yarışlarına isə 3,000 idmançı toplanır. İştirak haqqı tamamilə iştirakçılar tərəfindən ödənilir, oyunlara sahiblik edən şəhər isə ancaq idman növləri üzrə yarışların təşkili üçün cavabdehlik daşıyır. Ustalar arasında Oyunları Olimpiya şəhərində keçirmə Olimpiya idman meydançalarının və infrastrukturlarının inkişafına imkan verməklə, çox müsbət miras fəaliyyəti ola bilər.
3. İdman növlərinə cəlb edilmə Nankində keçirilmiş İdman Laboratoriyasının böyük uğuruna əsasən, BOK oyunlara sahiblik edən ölkənin əhalisinə tək Olimpiya oyunlarına və Gənclərin Olimpiya oyunlarına baxmağı deyil, həm də fəal şəkildə inkişaf etməsini təklif edən təşəbbüsləri nəzərdən keçirməlidir.

**TƏSİRLƏR: Hüquqi / Maliyyə / Təşkilati / Kadrlar Ehtiyatı / Digər (brend)**

☑ **Hüquqi təsir**

Təşkilatçı şəhərlə Müqavilə

☑ **Maliyyə təsiri**

1. Qərar verilməlidir
2. Proqnozlaşdırılmamışdır
3. Qərar verilməlidir

☑ **Təşkilati təsir**

1. Qərar verilməlidir
2. Proqnozlaşdırılmamışdır
3. Qərar verilməlidir

☑ **Kadrlar şöbəsinə təsir**

1. Proqnozlaşdırılmamışdır
2. Proqnozlaşdırılmamışdır
3. Qərar verilməlidir

☐ **Digər təsir**

# Tövsiyə 7

## Müxtəlif qabiliyyətli insanlar üçün idmanı idarə edən təşkilatlarla münasibətləri gücləndirmə

| |
|---|
| **Müxtəlif qabiliyyətləri olan şəxslər üçün idmanı idarə edən təşkilatlarla münasibətləri gücləndirmə, bütün mümkün sahələrdə, o cümlədən aşağıdakı sahələrdə qovuşmaları öz marağına uyğun istifadə etmə:**<br>• Texniki yardım<br>• Rabitə fəaliyyətləri<br>• Olimpiya kanalı vasitəsilə tədbirlərin təbliği |
| **TƏSİRLƏR: Hüquqi / Maliyyə / Təşkilati / Kadrlar Ehtiyatı / Digər (brend)** |
| ☑ **Hüquqi təsir**<br><br>Beynəlxalq Paraolimpiya Komitəsi: mövcud müqavilə<br>Xüsusi Beynəlxalq Olimpiya oyunları: mövcud protokol sazişi<br>Karlar üçün Beynəlxalq İdman Komitəsi: Anlaşma memorandumunun təşkili mümkündür |
| ☑ **Maliyyə təsiri**<br><br>Proqnozlaşdırılmamışdır |
| ☑ **Təşkilati təsir**<br><br>Proqnozlaşdırılmamışdır |
| ☑ **Kadrlar şöbəsinə təsir**<br><br>Proqnozlaşdırılmamışdır |
| ☑ **Digər təsir**<br><br>Proqnozlaşdırılmamışdır |

# Tövsiyə 8

## Peşəkar liqalarla münasibətlər yaratma

| |
|---|
| **Peşəkar liqalar və strukturlarla münasibətlərə növbəti məqsədlərlə müvafiq Beynəlxalq Federasiyalar vasitəsilə sərmayə qoymaq və möhkəmləndirmək:**<br>- Ən yaxşı idmançıların iştirakını təmin etmə<br>- Hər bir peşəkar liqanın müxtəlif təbiətini və məhdudiyyətlərini anlama<br>- Hər bir müvafiq Beynəlxalq Federasiya ilə əməkdaşlıqla müvəqqəti əsasla ən məqsədəuyğun əməkdaşlıq modelini qəbul etmə |
| **TƏSİRLƏR: Hüquqi / Maliyyə / Təşkilati / Kadrlar Ehtiyatı / Digər (brend)** |
| ☑ **Hüquqi təsir**<br><br>Proqnozlaşdırılmamışdır |
| ☑ **Maliyyə təsiri**<br><br>Proqnozlaşdırılmamışdır |
| ☑ **Təşkilati təsir**<br><br>Proqnozlaşdırılmamışdır |
| ☐ **Digər təsir** |

# İşçi Qrupu 4 - **Olimpiya proqramının tərkibi üçün prosedura**

| | |
|---|---|
| Sədr: | Franko Karraro (Franco Carraro) |
| İşçi qrupunun görüş tarixi: | 23 iyun 2014 |

**MƏZMUN**

Olimpiya proqramı Olimpiya oyunlarının fundamental özəyidir. Proqramla bağlı qərarlar Olimpiya oyunlarının və Olimpiya hərəkatının, demək olar ki, bütün digər sahələrinə təsir edir. Bunlar, xüsusilə, Oyunların qlobal tamaşaçıları cəlb etməkdə müvəffəqiyyəti; gənc əhali ilə davam edən münasibətlərin yaradılmasının təmini; və səciyyəvi idman növlərinin və fənlərinin inkişafına və iştiraka birbaşa təsirdir.

Olimpiya oyunlarını 16 gündən artıq etməmək və davamlılıq və orijinallıq naminə Qış Olimpiya oyunlarını ancaq qar və buz üzərində keçirilən idman növləri ilə məhdudlaşdırmaq geniş şəkildə razılaşdırılmışdır.

Həm 2014-cü il BOK Sessiyasında iştirak edən BOK üzvləri, həm də Olimpiya hərəkatının maraqlı tərəfləri davamlı olaraq gələcək Olimpiya oyunlarının proqramının çevikliyini artırmaq müraciəti ilə çıxış etmişlər. Xüsusilə, 28 idman növünün hazırkı spesifikasiyasını nəzərdən keçirmək və idman növlərinə deyil, tədbirlərə diqqət yetirmək tövsiyə olunmuşdur.

Hazırda Olimpiya nizamnaməsi Olimpiya oyunlarında iştirak edə biləcək idmançıların sayını 10,500 nəfərlə məhdudlaşdırır və idman növləri üzrə bölünmə Təşkilatçı Şəhərlə Müqaviləyə əsasən müxtəlif ola bilər. Hazırda Qış Olimpiya oyunlarına limit qoyulmur - Soçidə 2,885 idmançı iştirak etmişdir. İstinad üçün, Oyunlarda iştirak edəcək bütün akkreditasiya alınmış mətbuat nümayəndələrinin sayı aşağıdakı kimi idi: London 24,274, Pekin 24,562 və Afina 20,771.

# Tövsiyə 9

## Olimpiya proqramı üçün çərçivəni təşkil etmə

**Akkreditasiyalar üçün limitləri təyin etmə:**

1. BOK Olimpiya oyunları üçün idmançıların, rəsmi şəxslərin və tədbirlərin təxmini sayını aşağıdakı kimi məhdudlaşdırmalıdır:
   - 10,500 idmançı
   - 5,000 akkreditasiya almış məşqçi və idmançıları dəstək işçiləri
   - 310 tədbir
2. BOK Qış Olimpiya oyunları üçün idmançıların, rəsmi şəxslərin və tədbirlərin təxmini sayını aşağıdakı kimi məhdudlaşdırmalıdır:
   - 2,900 idmançı
   - 2,000 akkreditasiya almış məşqçi və idmançıları dəstək işçiləri
   - 100 tədbir
3. BOK Olimpiya oyunlarında digər akkreditasiyaların ümumi sayını azaltma yollarını tədqiq etməlidir.

**TƏSİRLƏR: Hüquqi / Maliyyə / Təşkilati / Kadrlar Ehtiyatı / Digər (brend)**

☑ **Hüquqi təsir**

*Olimpiya Nizamnaməsinə dəyişikliklər*

44 Dəvət və Daxil olma*

(…)

Qayda 44-n Rəsmi izahı

~~14. BOK İcra Şurasının qərarında və Təşkilatçı Şəhərlə Müqavilədə yazılı şəkildə bunun əksi nəzərdə tutulmadığı hallarda, Olimpiya oyunlarında yarışan idmançıların sayı on min beş yüz (10,500) nəfərlə, rəsmi şəxslərin sayı ilə beş min (5,000) nəfərlə məhdudlaşdırılacaq.~~

| |
|---|
| Qayda 45-n Yeni rəsmi izahı<br><br>3.2 Müvafiq OOTK ilə başqa razılıq əldə edilmədiyi hallarda, aşağıdakı təxmini rəqəmlərdən istifadə ediləcək:<br>- Olimpiya oyunları ilə əlaqədar, on min beş yüz (10,500) idmançı, beş min (5,000) akkreditasiya edilmiş məşqçi və idmançılara dəstək işçiləri və üç yüz on (310) tədbir.<br>- Qış Olimpiya oyunları ilə əlaqədar, iki min doqquz yüz (2,900) idmançı, iki min (2,000) akkreditasiya edilmiş məşqçi və idmançılara dəstək işçiləri və yüz (100) tədbir. |
| ☑ **Maliyyə təsiri**<br><br>Daha dəqiq çərçivə ümumi planlaşdırma və maliyyələşdirmə üçün daha böyük əminlik təklif edəcək. |
| ☑ **Təşkilati təsir**<br><br>Daha dəqiq çərçivə ümumi planlaşdırma və maliyyələşdirmə üçün daha böyük əminlik təklif edəcək. |
| ☐ **Kadrlar şöbəsinə təsir** |
| ☐ **Digər təsir** |

# Tövsiyə 10

## İdmana əsaslanan proqramdan tədbirə əsaslanan proqrama keçmə

**İdmana əsaslanan proqramdan tədbirə əsaslanan proqrama keçmə:**

1. Proqramın müntəzəm nəzərdən keçirilməsi idman növlərinə deyil, tədbirlərə əsaslanmalı, Beynəlxalq Federasiyaları cəlb etməli və aşağıdakı məhdudiyyətlərə əməl edilməlidir:
    - Olimpiya Oyunları üçün: təxminən 10,500 idmançı, 5,000 akkreditasiya edilmiş məşqçi və idmançılara dəstək işçiləri və 310 tədbir,
    - Qış Olimpiya oyunları üçün təxminən 2,900 idmançı, 2,000 akkreditasiya edilmiş məşqçi və idmançılara dəstək işçiləri və 100 tədbir.
2. BOK Sessiyası hər hansı idman növünü (BF) proqrama daxil etmək qərarını verməlidir.
3. BOK OOTK-nə bir və ya bir neçə əlavə tədbirin Olimpiya oyunlarının verilmiş buraxılışının proqramına daxil etmək üçün təklif vermək imkanı verməlidir.

**İLKİN MƏLUMAT / TƏSVİR**

1. İdmana əsaslanan proqramdan tədbirə əsaslanan proqrama keçmə

İdmana əsaslı proqramdan tədbirə əsaslanan proqrama keçmə təklif edilmişdir (Olimpiya oyunları üçün maksimum təxminən 310 tədbir və Qış oyunları üçün 100 tədbir). Belə bir inkişaf həm hazırda Olimpiya proqramına daxil edilmiş idman növləri üzrə Beynəlxalq Federasiyalardan, həm də BOK tərəfindən tanınmış Beynəlxalq Federasiyalardan proqrama daxil edilməsi nəzərdən keçirilən tədbirlərin seçiminə daha çox dəyişkənlik təklif edə bilər.

Təklif edilən idman növlərinin sayı cari saydan çox olarsa, BOK cari Beynəlxalq Olimpiya Federasiyaları ilə mövcud münasibətləri nəzərdən keçirməlidir.

İdman növlərinin və tədbirlərin qiymətləndirilməsi Beynəlxalq Federasiyalar ilə əməkdaşlıqla aparılmalıdır.

2. BOK Sessiyası hər hansı idman növünü (BF) proqrama daxil etmək qərarını verməlidir

BOK Sessiyası hazırda Olimpiya proqramına daxil edilməli idman növlərinə dair qərar qəbul edir, BOK İcra Şurası isə hazırda fənləri, tədbirləri və idmançı kvotalarını müəyyən edir. Bu prinsipə əməl edilməlidir. Məsələn, tədbir hələ Olimpiya proqramına daxil edilməmiş Beynəlxalq Federasiya tərəfindən seçilərsə, belə Beynəlxalq Federasiyanın daxil edilməsi barədə qərar BOK Sessiyasında səs vermə yolu ilə veriləcək.

3. BOK OOTK-nə bir və ya bir neçə əlavə tədbirin Olimpiya oyunlarının verilmiş buraxılışının proqramına daxil etmək üçün təklif vermək imkanı verməlidir. Belə təklifə təşkilati və maliyyə modeli daxil edilməlidir.
4. Təklif edilən tədbir(lər) digər tədbirlər üçün istifadə edilən hərtərəfli nəzərdən keçirilmə prosesinə məruz qalacaq. Oyunlara sahiblik edəcək ölkənin təklif etdiyi tədbirlər Olimpiya proqramında təsvir edilmiş tədbirlər üçün meyarlara, məsələn beynəlxalq təmsilat, dopinqə qarşı qaydalar, ən yaxşı idmançıların çıxışı və s. kimi meyarlara cavab verməlidir.

   Təkliflərin məqsədəuyğun olmasına və proqramın bütün daha geniş məqsədlərinə uyğun gəlməsinə dair təsdiqi BOK verəcək.

**TƏSİRLƏR: Hüquqi / Maliyyə / Təşkilati / Kadrlar Ehtiyatı / Digər (brend)**

☑ **Hüquqi təsir**

Olimpiya nizamnaməsi + Təşkilatçı Şəhərlə Müqavilə.

**45 Olimpiya oyunlarının proqramı***

| **Hazırda OK-də qüvvədə olan Qayda 45** | **Təklif edilən düzəlişlərlə yeni Qayda 45** |
|---|---|
| 1. Olimpiya oyunlarının proqramı (bundan sonra həmçinin "proqram" adlandırılmış) hazırkı Qayda və onun Rəsmi izahatlarına uyğun BOK tərəfindən Olimpiya oyunlarının hər buraxılışı üçün təşkil edilmiş Olimpiya oyunlarının bütün yarışlarının proqramıdır. | 1. Olimpiya oyunlarının proqramı ("proqram") hazırkı Qayda və onun Rəsmi izahatlarına uyğun BOK tərəfindən Olimpiya oyunlarının hər buraxılışı üçün təşkil edilmiş bütün idman yarışlarının proqramıdır. |
| 2. Proqramın tərkib hissəsi idman növləri, fənlər və tədbirlərdir. İdman növləri BLR 45.1 və BLR 45.2 qaydalarında göstərilmiş BF ilə tənzimlənən idman növləridir. Fənn idmanın bir və ya bir neçə tədbirdən ibarət qoludur. Tədbir yerlərin tutulması və medal və diplomların təltif edilməsi ilə nəticələnən idman növü və ya onun fənlərinin biri üzrə aparılan yarışdır. | 2. Proqram iki hissədən, daha doğrusu aşağıdakı hissələrdən ibarətdir: |

| | |
|---|---|
| | 2.1. Olimpiya oyunlarının müəyyən buraxılışı üçün BOK tərəfindən tanınmış BF-lərlə tənzimlənən idman növləri arasından Sessiyanın müəyyən etdiyi qaydada seçilən bütün idman növlərinin daxil olduğu İdman Proqramı ("İdman Proqramı"). |
| | 2.2 BOK İcra Şurasının Olimpiya oyunlarının müəyyən buraxılışı üçün müəyyən etdiyi qaydada bütün tədbirlərin daxil edildiyi Tədbirlər Proqramı ("Tədbirlər Proqramı").<br>Tədbir yerlərin tutulması və medal və diplomların təltif edilməsi ilə nəticələnən səciyyəvi idman yarışıdır.<br>Tədbirlər Proqramına İdman Proqramına daxil edilmiş hər bir idman növündən bir tədbir daxil edilməlidir. |
| 3. Proqram üçün bütün idman növlərinin seçilməsi, o cümlədən hər hansı idmanın proqrama daxil edilməsi üçün meyarların və şərtlərin müəyyən edilməsi Sessiyanın səlahiyyətlərinə daxildir. Ancaq Ümumdünya Anti-dopinq kodeksini qəbul edən idman növləri proqrama daxil edilə və ya orada qala bilər. | 3. Proqram BOK Olimpiya oyunlarının əvvəlki müvafiq buraxılışlarının proqramını nəzərdən keçirdikdən sonra təşkil edilir.<br>Ancaq Olimpiya nizamnaməsinə və Ümumdünya Anti-dopinq kodeksinə uyğun gələn idman növləri proqrama daxil edilə bilər. |
| 4. Fənni və ya tədbiri proqrama daxil eymə qərarı BOK İcra şurasının səlahiyyətinə daxildir. | |

**Qayda 45-n Rəsmi izahı**

| | |
|---|---|
| 1. İdman Proqramına tətbiq edilən<br>Olimpiya oyunlarının | 1. Ümumi müddəalar |
| 1.1 Olimpiya oyunlarının hər bir buraxılışından sonra BOK proqramı nəzərdən keçirir. Hər bir nəzərdən keçirmə halında idman növlərinin, fənlərin və ya tədbirlərin daxil edilməsi standartları nəzərdən keçirilə və idman növlərinin, fənlərin və ya tədbirlərin daxil edilməsi, yaxud çıxarılması BOK səlahiyyətli orqanları tərəfindən müəyyən edilə bilər. | 1.1 BOK İcra Şurasının təklifi ilə Sessiya İdman Proqramına dair qərarı oyunlara sahiblik edəcək Şəhəri seçən Sessiyadan gec olmayaraq verəcək.<br>Sessiya tam tərkiblə səs verəcək. Səs çoxlu əldə edilmədikdə, Prezidentin qərarı ilə əlavə səs vermə keçirilə bilər və o, həm də fərdi və ya qismən yekdil səsverməyə dair də qərar verə bilər. |
| 1.2 Olimpiya oyunlarının hər hansı buraxılışının proqramının təşkil edilməsinə dair Sessiya qərarı qəbul edilməzdən əvvəl, proqrama daxil edilməsi təklif edilən idman növlərini tənzimləyən BF-lər BOK-a Olimpiya oyunlarının verilmiş buraxılışında iştiraklarını təsdiq etməlidirlər. | 1.2 Müvafiq OOTK, müvafiq BF və BOK arasında razılıq əldə edildikdən sonra BOK İcra Şurasının verdiyi təklifə əsasən İdman proqramı müvafiq Olimpiya oyunlarının açılışından ən geci üç il əvvəl Sessiyanın qərarı ilə dəyişdirilə bilər. |
| 1.3 Hər hansı idman növünün hər hansı Olimpiya oyunlarının istənilənin buraxılışına daxil edilməsinə dair qərar ən geci Olimpiya oyunlarının həmin buraxılışına sahiblik edəcək şəhəri seçən Sessiyada qəbul ediləcək. | 1.3 Olimpiya oyunlarının İdman proqramına aşağıdakı idman növləri daxil edilə bilər: |

| | |
|---|---|
| | 1.3.1 Hazırda proqrama daxil edilmiş növbəti BF-lər tərəfindən tənzimlənən idman növləri, yəni:<br>–İdmançıların Beynəlxalq Federasiyalarının<br>Assosiasiyaları (IAAF);<br>– Beynəlxalq Akademik Avarçəkmə Federasiyası (FISA);<br>– Badminton üzrə Dünya Federasiyası (BWF);<br>– Beynəlxalq Basketbol Federasiyası (FIBA);<br>– Beynəlxalq Boks Federasiyası (AIBA);<br>– Beynəlxalq Kanoe Federasiyası (ICF);<br>– Beynəlxalq Velosiped İttifaqı (UCI);<br>– Beynəlxalq Atçılıq Federasiyası (FEI);<br>–Beynəlxalq Qılıncoynatma Federasiyası (FIE);<br>–Beynəlxalq Futbol Federasiyaları Assosiasiyası (FIFA):<br>– Beynəlxalq Qolf Federasiyası (IGF);<br>– Beynəlxalq Gimnastika Federasiyası (FIG);<br>– Beynəlxalq Ağırlıqqaldırma Federasiyası (IWF);<br>– Beynəlxalq Həndbol Federasiyası (IHF);<br>– Beynəlxalq Xokkey Federasiyası (FIH);<br>– Beynəlxalq Cüdo Federasiyası (IJF);<br>– Birləşmiş Ümumdünya Güləş Təşkilatı (UWW);<br>– Beynəlxalq Üzgüçülük Federasiyası (FINA);<br>– Beynəlxalq Müasir Beşnövçülük Federasiyası (UPIM);<br>– Beynəlxalq Reqbi Şurası (IRB);<br>– Ümumdünya Taekvondo Federasiyası (WTF);<br>– Beynəlxalq Tennis Federasiyası (ITF);<br>– Beynəlxalq Stolüstü Tennis Federasiyası (ITTF);<br>– Beynəlxalq Atıcılıq İdman Federasiyası (ISSF);<br>– Ümumdünya Oxatma Federasiyası (WA);<br>– Beynəlxalq Triatlon İttifaqı (ITU);<br>– Beynəlxalq Yelkənli İdman Federasiyası (ISAF);<br>– Beynəlxalq Voleybol Federasiyası (FIVB); |

| | |
|---|---|
| | 1.3.2 Digər BOK tərəfindən tanınmış BF-in tənzimlədiyi rəsmi Digər idman növləri. |
| 1.4 Fənlərin və ya tədbirlərin hər hansı Olimpiya oyunlarının hər hansı buraxılışına daxil edilməsi qərarı BOK İcra Şurası tərəfindən Olimpiya oyunlarının açılmasına ən geci üç il qalmış veriləcək. | 1.4 Olimpiya Qış oyunlarına daxil edilə biləcək idman növləri aşağıdakılardır: |
| | 1.4.1 Hazırda proqrama daxil edilmiş növbəti BF-lər tərəfindən tənzimlənən idman növləri, yəni:<br>- Beynəlxalq Biatlon İttifaqı (IBU);<br>– Beynəlxalq Bobsley və Toboqan Federasiyası (FIBT);<br>–Ümumdünya Kerlinq Federasiyası (WCF);<br>–Beynəlxalq Buz üstündə Xokkey Federasiyası (IIFH);<br>– Beynəlxalq Kirşə İdman Federasiyası (FIL);<br>– Beynəlxalq Xizəksürənlər İttifaqı (ISU);<br>– Beynəlxalq Xizək Federasiyası (FIS); |
| | 1.4.2 Digər BOK tərəfindən tanınmış BF-in tənzimlədiyi rəsmi Digər idman növləri. |
| 1.5 Proqramda dəyişiklik etmək üçün müvafiq BF, OOTK və BOK-un səlahiyyətli orqanının razılığı ilə BLR 45.1.3 və 1.4 qaydalarında təyin edilmiş son tarixlərdən imtina etmək olar. | |
| | |

| | |
|---|---|
| 1.6 Hər hansı idman növünü proqrama daxil etmək barədə qərar qəbul etməzdən əvvəl Sessiya belə daxil etmə üçün səciyyəvi meyar və ya şəraitlər təşkil edə bilər. | |
| 1.7 Hər hansı idman növünü tənzimləyən müvafiq BF Olimpiya nizamnaməsinin və ya Ümumdünya Anti-dopinq kodeksinin tələblərinə cavab verməsə, Sessiya həmin idmanı proqramdan çıxarmaq hüququna malik olacaq. Bundan əlavə, Qayda 59-da nəzərdə tutulmuş tədbirlər və sanksiyalar tətbiq oluna bilər. | |
| 1.8 Sessiya BLR 45.2.1.2 və 3.1.2-də siyahısı verilmiş BF-in sayını azaltmaq məqsədilə bu qaydalara dəyişiklik edilməsi qərarını ancaq ciddi səbəblər əsasında, daha dəqiq desək, müvafiq BF Olimpiya nizamnaməsinin və ya Ümumdünya Anti-dopinq kodeksinin tələblərinə cavab verməsə, təklif edə və qəbul edə bilər. | |
| 1.9 BF ilə əlaqədar BLR 45.1.1.7 və ya 1.1.8 qaydalarına uyğun Sessiyaya təqdim edilmiş hər hansı qərar qəbul edilməzdən əvvəl müzakirə edilməlidir. | |

| 2. Olimpiya Oyunlarına tətbiq edilən Müddəalar | 2. Tədbir Proqramı |
|---|---|
| 2.1 İdman növünün proqrama daxil edilməsi | 2.2 Tədbirlər Proqramı ilə əlaqədar hər hansı qərar qəbul edilməzdən əvvəl BOK müvafiq BF-lər ilə məsləhətləşəcək. |
| 2.1.1 Proqrama daxil edilən idman növləri idman növünün əsasından (bundan sonra "əsas") və əlavə idman növlərindən ibarətdir. | |
| 2.1.2 Əsasa növbəti BF-in tənzimlədiyi idman növləri arasından BOK İcra Şurasının təklifi ilə Sessiyada seçilmiş ən azı 25 idman növü daxildir:<br>– İdmançıların Beynəlxalq Federasiyalarının Assosiasiyaları (IAAF);<br>– Beynəlxalq Akademik Avarçəkmə Federasiyası (FISA);<br>– Badminton üzrə Dünya Federasiyası (BWF);<br>– Beynəlxalq Basketbol Federasiyası (FIBA);<br>– Beynəlxalq Boks Federasiyası (AIBA);<br>– Beynəlxalq Kanoe Federasiyası (ICF);<br>– Beynəlxalq Velosiped İttifaqı (UCI);<br>– Beynəlxalq Atçılıq Federasiyası (FEI);<br>– Beynəlxalq Qılıncoynatma Federasiyası (FIE);<br>– Beynəlxalq Futbol Federasiyaları Assosiasiyası (FIFA);<br>– Beynəlxalq Gimnastika Federasiyası (FIG);<br>– Beynəlxalq Ağırlıqqaldırma Federasiyası (IWF);<br>– Beynəlxalq Həndbol Federasiyası (IHF);<br>– Beynəlxalq Xokkey Federasiyası (FIH); | |

| | |
|---|---|
| – Birləşmiş Güləş Növləri üzrə Beynəlxalq Federasiya (FILA);<br>– Beynəlxalq Üzgüçülük Federasiyası (FINA);<br>– Beynəlxalq Müasir Beşnövçülük Federasiyası (UPIM);<br>– Ümumdünya Taekvondo Federasiyası (WTF);<br>– Beynəlxalq Tennis Federasiyası (ITF);<br>– Beynəlxalq Stolüstü Tennis Federasiyası (ITTF);<br>– Beynəlxalq Atıcılıq İdman Federasiyası (ISSF);<br>– Ümumdünya Oxatma Federasiyası (WA);<br>– Beynəlxalq Triatlon İttifaqı (ITU);<br>– Beynəlxalq Yelkənli İdman Federasiyası (ISAF);<br>– Beynəlxalq Voleybol Federasiyası (FIVB); | |
| 2.1.3 BOK İcra Şurasının təklifi ilə Sessiya BLR 45.2.1.2 qaydalarında siyahısı verilmiş və Sessiyanın qərarı ilə əsas idman növünə daxil edilməyəcək idman növlərindən, o cümlədən BOK tərəfindən tanınmış BF-in tənzimlədiyi idman növlərindən birini və ya bir neçəsini seçə bilər. | |
| 2.1.4. Sessiyanın proqram üçün seçdiyi əlavə idman növlərinin cəmi sayı elə olacaq ki, əsas idman növləri də daxil olmaqla, proqrama daxil edilmiş idman növlərinin ümumi sayı 28-dən artıq olmasın. | |

| | |
|---|---|
| 2.2 Tətbiq olunan prosedura | 2.2 BOK İcra Şurası Tədbir Proqramı ilə bağlı qərarı müvafiq Olimpiya oyunlarının açılışına ən geci üç il qalmış verəcək. |
| 2.2.1 BOK İcra Şurası Sessiyaya əsası təşkil edən ən azı 25 idman növünü proqrama daxil etməyi təklif edir. Sessiya yekdilliklə əsasın daxil edilməsinə səs verəcək, onun qərarı verilmiş səs çoxluğu əsasında qəbul ediləcək. Belə çoxluq əldə edilməsə, Prezidentin müəyyən etdiyi kimi Sessiya əlavə səsvermə raundları keçirəcək. Belə səs vermə raundları əsasında proqrama daxil edilmiş bütün idman növləri proqramın əsasını təşkil edəcək. | |
| 2.2.2 BLR 45.2.2.1 qaydasına uyğun əsas təşkil edildikdən sonra, BOK İcra Şurası Sessiyaya BLR 45.2.1.3 qaydasında müəyyən edildiyi kimi bir və ya bir neçə əlavə idman növünün daxil edilməsini təklif edə bilər. Sessiya əlavə idman növlərinin daxil edilməsini qrup şəklində və ya fərdi səslərlə həll edə bilər və onun qərarı verilmiş səslər çoxluğuna əsasın veriləcək. | |

| 3. Qış Olimpiya Oyunlarına<br>tətbiq edilən müddəalar | 3. Digər Müddəalar |
|---|---|
| 3.1 İdman növünün proqrama daxil edilməsi | 3.1 Olimpiya oyunlarının səciyyəvi buraxılışının OOTK BOK-a oyunların ancaq bu buraxılışına bir və ya bir neçə əlavə tədbirlərin daxil edilməsini təklif edə bilər; bununla əlaqədar qəbul edilmiş bütün qərarlar bu 45 Qaydasına və onun rəsmi izahına, o cümlədən BOK tərəfindən təyin edilmiş hər hansı səciyyəvi şərtlərə uyğun veriləcək. |
| 3.1.1 Proqrama daxil edilən idman növləri idman növünün əsasından (bundan sonra "əsas") ibarətdir. | |
| 3.1.2 Əsasa aşağıdakı BF-in tənzimlədiyi idman növləri daxildir:<br>– Beynəlxalq Biatlon İttifaqı (IBU);<br>– Beynəlxalq Bobsley və Toboqan Federasiyası (FIBT);<br>– Ümumdünya Kerlinq Federasiyası (WCF);<br>–Beynəlxalq Buz üstündə Xokkey Federasiyası (IIFH);<br>– Beynəlxalq Kirşə İdman Federasiyası (FIL);<br>– Beynəlxalq Xizəksürənlər İttifaqı (ISU);<br>– Beynəlxalq Xizək Federasiyası (FIS); | |

| | |
|---|---|
| 3.1.3 Tətbiq olunan prosedura<br>Sessiya yekdilliklə əsasın qəbul edilməsinə səs verir, onun qərarı verilmiş səs çoxluğu əsasında qəbul edilir. Belə çoxluq əldə edilməsə, Prezidentin müəyyən etdiyi kimi Sessiya əlavə səsvermə raundları keçirəcək. Belə səs vermə raundları əsasında proqrama daxil edilmiş bütün idman növləri proqramın əsasını təşkil edəcək. | |
| 3.1.4 Proqrama daxil edilmək üçün əlavə idman növləri nəzərdən keçirilərsə, Olimpiya oyunlarına tətbiq edilən proseduralarla eyni proseduralar müvafiq dəyişikliklərlə tətbiq ediləcək. | |
| | 3.2 Müvafiq OOTK ilə başqa razılıq əldə edilmədiyi hallarda, aşağıdakı təxmini rəqəmlərdən istifadə ediləcək:<br>- Olimpiya oyunları ilə əlaqədar, on min beş yüz (10,500) idmançı, beş min (5,000) akkreditasiya edilmiş məşqçi və idmançılara dəstək işçiləri və üç yüz on (310) tədbir. |

| | |
|---|---|
| | - Qış Olimpiya oyunları ilə əlaqədar, iki min doqquz yüz (2,900) idmançı, iki min (2,000) akkreditasiya edilmiş məşqçi və idmançılara dəstək işçiləri və yüz (100) tədbir. |
| | 3.3 Hər hansı idman növünü tənzimləyən müvafiq BF Olimpiya nizamnaməsinin və ya Ümumdünya Anti-dopinq kodeksinin tələblərinə cavab verməsə, Sessiya həmin idmanı proqramdan çıxarmaq hüququna malik olacaq. Bundan əlavə, Qayda 59-da nəzərdə tutulmuş tədbirlər və sanksiyalar tətbiq oluna bilər. |
| | 3.4 Müvafiq BF, OOTK və səlahiyyətli BOK orqanının təsdiqi ilə BLR 45 qaydasında qeyd edilmiş hər hansı son tarix müstəsna olaraq rədd edilə bilər. |

☑ **Maliyyə təsiri**

İdman əsaslı proqramdan tədbir əsaslı proqrama keçmə Olimpiya proqramının daha təfərrüatlı və dəqiq təhlilini nəzərə alır. Bu tədqiqatlar əvvəlcə hər bir idman növü üçün ayrılıqda aparılmışdır. Gələcək modeldə bu tədqiqatlar hər bir tədbir üçün aparılmalıdır.

Belə əlavə tədqiqatlar üçün Olimpiya oyunlarına 2 milyon ABŞ dolları, Qış oyunlarına isə 1 milyon ABŞ dolları büdcə ayrılacaq.

***Tövsiyənin oyunlara sahiblik edəcək şəhərin təklifinə maliyyə təsirləri***

Yuxarıda qeyd edildiyi kimi, oyunlara sahiblik edəcək şəhərin təklifini maliyyələşdirmə modeli və növbəti gəlirin paylaşması hər hal üçün ayrılıqda müəyyən edilməlidir.

☐ **Təşkilati təsir**

☑ **Kadrlar şöbəsinə təsir**

İki əlavə tam ştatlı ekvivalent: Tədqiqatların həcmi və idarə edilən verilənlər həndəsi qaydada (qüvvətə yüksəltməklə) artacaq. Bu tədqiqatların bir hissəsi üçüncü tərəflərə həvalə edilsə də, layihənin ümumi idarə edilməsi daha çox vaxt tələb edəcək. Beynəlxalq Federasiyalar da öz nəticələrinin müzakirəsinə və təhlilinə daha çox cəlb ediləcək ki, bu da BOK İdman Departamenti ilə daha çox qarşılıqlı əlaqə tələb edəcək. Daha çox işçi qüvvəsi tələb olunacaq.

***Tövsiyənin oyunlara sahiblik edəcək şəhərin təklifinə KE təsirləri***

Qısa siyahıya salınmış idman növlərinin proqrama salınma mümkünlüyünün ənənəvi nəzərdən keçirilməsi prosesinə əlavə olaraq, BOK İdman Departamenti oyunlara sahiblik edəcək ölkənin təklif etdiyi tədbirlərin nəzərdən keçirilməsi üçün ayrıca icmal aparmalıdır.

Yeni təklif edilən modellə Olimpiya proqramının davamlı və daimi nəzərdən keçirilməsi tələb olunacaq. Daha çox işçi qüvvəsi tələb olunacaq.

☐ **Digər təsir**

# Tövsiyə 11

## Genderlərin bərabərliliyini dəstəkləmə

| |
|---|
| **Genderlərin bərabərliliyini dəstəkləmə**<br>1. BOK Beynəlxalq Federasiyalarla birlikdə işləyərək Olimpiya oyunlarında 50 faiz qadınların iştirakına nail olmağa və Olimpiya oyunlarında daha çox iştirakı yaratmaqla qadınların idmanda iştirakını stimullaşdırmağa çalışmalıdır.<br>2. BOK qarışıq cinsli komanda tədbirlərinin daxil edilməsini həvəsləndirməlidir. |
| **TƏSİRLƏR: Hüquqi / Maliyyə / Təşkilati / Kadrlar Ehtiyatı / Digər (brend)** |
| ☐ **Hüquqi təsir** |
| ☐ **Maliyyə təsiri** |
| ☑ **Təşkilati təsir**<br><br>BOK İdman Departamenti Beynəlxalq<br>Federasiyalarla onların tədbirlər siyahısının və idmançı kvotasının tam gender bərabərliyinə uyğun olmasına dair müzakirələrə daha çox cəlb olunmalıdır. |
| ☐ **Kadrlar şöbəsinə təsir** |
| ☐ **Digər təsir** |

# İşçi Qrupu 5 - Olimpiya oyunlarının **İdarə edilməsi**

| | |
|---|---|
| Sədr: | Mario Peskante (Mario Pescante) |
| İşçi qrupunun görüş tarixi: | 16 iyun 2014 |

**MƏZMUN**

Olimpiya oyunları əvvəlkindən daha uğurludur. Oyunların imici mədəniyyətindən, qitədən və ya yaş qrupundan asılı olmayaraq, ümumi ictimaiyyət arasında çox güclüdür və nəticədə Oyunlara cəlb olunma həmişəkindən daha yüksək olaraq, rekord sayda televiziya tamaşaçılarını əhatə edir.

Oyunların genişlənən qlobal cəlbediciliyinin ən yaxşı göstəricisi, yəqin ki, 1.5 milyarddan artıq tamaşaçının diqqətini çəkmiş 2008-ci il Pekin Olimpiya oyunlarının Açılış Mərasiminə baxan dünya auditoriyası oldu. Əslində, Pekindəki Açılış Mərasimi insan tarixində ən çox izlənən canlı tədbir olaraq, hətta aya insanın düşməsi hadisəsini də geridə qoymuşdur.

Dünya miqyasında Qış olimpiya oyunlarına maraq getdikcə nəzərəçarpacaq dərəcədə artır, belə ki, 2010-cu il Vankuver Oyunlarından 2014-cü il Soçi oyunlarına qədər oyunların yayımına baxan tamaşaçıların sayı 13 faiz artaraq 2.1 milyard nəfər təşkil etmişdir.

Olimpiya oyunlarının onlayn "istehlakı" da nəzərəçarpacaq dərəcədə artmışdır. London 2012

Olimpiya oyunlarında bütün onlayn Britaniyalıların 40 faizi london2012.com internet saytına baş çəkmişdir. Dünyanın hər yerindən bu səhifəyə 432,000,000 giriş olmuşdur. Soçidə keçirilən Qış Olimpiya oyunlarında rəsmi

#Sochi2014 həşteqi sosial mediada 13 milyard dəfə istifadə edilmiş, Oyunlara dair ümumi şərhlərin sayı isə 23 milyarddan artıq olmuşdur.

Oyunların təşkili ən yüksək səviyyəli gözləntilərə cavab verdi və ya ondan artıq oldu və gəlirlər artmağa davam edir. Bundan başqa, Oyunlar ona sahiblik etmiş şəhərdə idman növlərində iştirakdan və infrastrukturdan tutmuş sosial və iqtisadi mirasa qədər maddi və qeyri-maddi miras qoymuşdur.

Bununla belə, bir sıra hiss edilən və, bəzi hallarda, aydın müəyyən edilmiş təhlükələr də vardır ki, onları qəbul və həll etmək lazımdır.

Bir sıra, o cümlədən aşağıdakı amillərlə əlaqədar, Oyunların təşkil edilməsinin mürəkkəbliyi artmaqda davam edir: idmanın mürəkkəblilik dərəcəsi, aramsız olaraq inkişaf edən qlobal siyasi və sosial məzmun və Oyunların təbiətindən asılı olmayaraq, istənilən məsələni həll etməyə imkan verəcəyinə artan ümidlər.

Nəzərəçarpacaq dərəcədə özəl mənbələrdən maliyyələşdirilməyinə baxmayaraq, əməliyyat xərcləri artmaya bilməz və ictimai vəsaitlərin infrastruktur layihələrinə sərmayəsi belə bir fikir yaratmışdır ki, BOK oyunlara sahiblik edəcək şəhəri ağlabatan miras məqsədləri ilə deyil, onların "layihələrinin" ölçüsü əsasında seçir.

Yuxarıdakılardan belə bir təfəkkür yaranmışdır ki, Olimpiya hərəkatının qoyduğu tələblər aramsız olaraq artır və bu, öz növbəsində belə bir fikir yaradır ki, Oyunların ümumi xərcləri, o cümlədən infrastruktura qoyulan sərmayə daima yüksəlir.

Nəhayət, Oyunların son buraxılışları həddindən artıq uğurlu olsa da, yaranmış ümumi rəyə əsasən məzmunundan asılı olmayaraq Oyunlar üçün səciyyəvi olan riskləri minimuma endirmək üçün Oyunlara idarəetmə baxımından yanaşma üsulu daha da gücləndirilməli idi.

# Tövsiyə 12

## İdarəedilməsi xərclərini azaltma və çevikliyini gücləndirmə Olimpiya oyunlarının idarə edilməsi

**Olimpiya oyunlarının idarə edilməsi xərclərini azaltma və çevikliyini gücləndirmə**

1. BOK xərcləri azaltmaq məqsədilə tələblərə edilən dəyişikliklər üçün, onu kimin irəli sürdüyündən asılı olmayaraq, şəffaf idarəetmə prosedurasını təşkil etməlidir.
2. BOK xərcləri və mürəkkəbliyi cilovlamaq üçün maraqlı tərəflərlə birlikdə xidmətlərin səviyyəsini, Oyunların hazırlanmasını və çatdırılmasını sistemli şəkildə nəzərdən keçirməlidir. Bu baxımdan müntəzəm təkliflər irəli sürüləcək.
3. BOK səciyyəvi Olimpiya təcrübəsi tələb olunan sahələrdə OOTK üçün kompleks layihələrin təchiz edilməsini nəzərdən keçirməlidir.

**İLKİN MƏLUMAT / TƏSVİR**

Təşkilat Komitəsinin mövcud olduğu dövr ərzində qazanılmış təcrübəyə əsasən Olimpiya seçiciləri, media, sponsorlar və OOTK də daxil olmaqla digər qruplar həmişə əlavə xidmət tələb etmişlər.

Bir çox hallarda bu, birbaşa olaraq Təşkilat Komitəsi ilə maraqlı tərəflər arasında həll edilmişdir.

Yaranmış fikirlərə əsasən, belə münasibət BOK tərəfindən dəstəklənir, əslində isə bu, həmişə belə deyil. Ona görə də, dəyişiklik xahişini idarə etmək üçün mexanizm yaratmaq lazımdır.

**TƏSİRLƏR: Hüquqi / Maliyyə / Təşkilati / Kadrlar Ehtiyatı / Digər (brend)**

☑ **Hüquqi təsir**

1. Tələblərin idarə edilmə prosesinə dəyişiklik Olimpiya oyunlarının idarə edilməsi qaydalarına daxil ediləcək.
2. Proqnozlaşdırılmamışdır.
3. Təşkilatçı Şəhərlə Müqavilənin potensial təsirinin tədqiqi (o cümlədən, BOK-a səciyyəvi yerli şəraitə əsasən OOTK-a təchizatçını təyin etmək seçiminin verilməsi).

☑ **Maliyyə təsiri**

1. BOK-un kompleks həllər təchiz etməsinin Oyunların maliyyə vəziyyətinə təsiri qiymətləndirilməlidir.

.

☑ **Təşkilati təsir**

1. Dəyişikliklərin idarə edilməsi prosesi, o cümlədən problemlərin həlli mexanizmi təşkil edilməlidir.
2. Xərclərin və mürəkkəbliyin idarə edilmə prosesi təşkil edilməlidir.
3. Nəzərdən keçiriləcək mümkün kompleks həllərin və BOK təşkilatına mümkün təsirin texnik-iqtisadi əsaslandırılması aparılmalıdır.

☑ **Kadrlar şöbəsinə təsir**

1. Təchiz edilən kompleks həllin həcmindən asılı olaraq qərar veriləcək.

☑ **Digər təsir**

Peşəkar xidmət təşkilatçıları sahəsində tərəfdaşın qəbul edilməsinin mümkün təsiri tədqiq edilməlidir.

# Tövsiyə 13

## Olimpiya hərəkatının maraqlı tərəflərinin birgə fəaliyyətini maksimum qaldırma

**Ahəngdar təşkilatı təmin etmək və xərcləri azaltmaq üçün Olimpiya hərəkatı ilə qovuşmanı maksimum artırma**

1. BOK Olimpiya yarışlarının planlaşdırılmasında və həyata keçirilməsində, o cümlədən texniki cavabdehliklərin OOTK-nın BF-lərə keçirilməsinin tədqiqində Beynəlxalq Federasiyaların (BF-lər) rolunu gücləndirməlidir.

2. BOK, BOK əlaqələndirmə komissiyalarının rolunu əsasən əsas məsələlərə və xidmət səviyyələrinin yoxlanmasına yönəltməlidir.

**İLKİN MƏLUMAT / TƏSVİR**

1. BF-lər müntəzəm olaraq vacib tədbirləri təşkil etməlidirlər. Belə hallarda inkişaf etmiş təcrübə Olimpiya oyunlarının təşkilinin həcmində daha çox əhatə edilməlidir.

2. Əlaqələndirmə komissiyalarının səlahiyyəti vaxt keçdikcə artmışdır. O, elə bir nöqtəyə çatmışdır ki, komissiyaların idarə edəcəyi texniki səviyyəli işlərin həcmi onları Qayda 37-n 1-ci bölməsində qeyd edilmiş əsas səlahiyyətlərindən yayındırmağa başladı.

**TƏSİRLƏR: Hüquqi / Maliyyə / Təşkilati / Kadrlar Ehtiyatı / Digər (brend)**

☑ **Hüquqi təsir**

*Olimpiya Nizamnaməsinə dəyişikliklər*

1. Fəsil 5, Qayda 46, Olimpiya oyunlarında BF-in texniki cavabdehlikləri: BF-in Oyunların idarə edilməsinə cəlb edilməsi tövsiyələri təsdiq edildikdə təzələyin.
2. Fəsil 5, Qayda 37 və Rəsmi izahı, Olimpiya oyunlarının Əlaqələndirmə komissiyası: Oyunların idarə edilməsi üzrə tövsiyələr təsdiq edildikdə təzələyin.

☑ **Maliyyə təsiri**

1. BF-lər Oyunların həyata keçirilməsində daha çox cavabdehlik daşıyarsa, gəlirin paylanması modelinə mümkün dəyişiklik.

☑ **Təşkilati təsir**

1. & 2. Oyunların idarə edilməsi üsulu BF-in daha da artmış rolunu, o cümlədən Əlaqələndirmə Komissiyasının formatının inkişafını əks etdirmək üçün inkişaf etdirilməlidir

| |
|---|
| ☑ **Kadrlar şöbəsinə təsir**<br><br>Proqnozlaşdırılmamışdır |
| ☑ **Digər təsir**<br><br>Proqnozlaşdırılmamışdır |

# İdmançılar, Olimpiya Hərəkatının mərkəzində

# İşçi Qrupu 6 -Təmiz idmançıları müdafiə etmə

Sədr: Klaudiya Bokel (Claudia Bokel)

İşçi qrupunun görüş tarixi: 20 iyun 2014

**MƏZMUN**

İdmançılar Olimpiya hərəkatının qəlbini təşkil edir. Bunun üçün də idmançıların gözləntiləri və ehtiyacları ilə 14 işçi qrupun hamısı məşğul olur. Ona görə də, idmançılara dair tövsiyələri BOK-un idmançılara göstərdiyi dəstəyin gücləndirilməsini əks etdirən bu sənəddə verilmiş bir çox başqa təkliflərdə tapmaq olar. BOK həmişə idmançıları birinci yerə qoymuşdur və bu, 1999-cu ildə Olimpiya idmançısını İcra Şurasının daimi nümayəndəsi etmək qərarı ilə nəticələndi.

BOK getdikcə daha çox idmançıların yarışlar zamanı və ondan sonra həyat bacarıqlarına, tədrisinə və karyerasına diqqət yetirmişdir və bu baxımdan BOK İdmançıların karyera proqramı əla yardım və dəstək təchiz etməyə davam edir.

BOK-un prioritet məqsədi təmiz idmançıların qorumasıdır. Bu o deməkdir ki, dopinqə və əvvəlcədən sövdələşdirilmiş oyunlara qarşı, yarışın manipulyasiyasına və əlaqədar korrupsiyaya qarşı mübarizəyə qoyulmuş sərmayə, tədris, sınaq, tədqiqat, maddi-texniki təchizat və ya işçi qüvvəsinə sərf edilməsindən asılı olmayaraq, xərc kimi deyil, təmiz idmançılara sərmayə kimi nəzərdən keçirilməlidir.

Keçən il 20 milyon ABŞ dolları dəyərində fond təşkil edilmişdi. On milyon dollar əvvəlcədən sövdələşdirilmiş oyunlara qarşı, yarışın manipulyasiyasına və əlaqədar korrupsiyaya qarşı mübarizədə təmiz idmançıların dəstəklənməsinə, 10 milyon ABŞ dolları isə yeni anti-dopinq üsullarının tədqiqatına ayrılmışdır. Vacibi burasıdır ki, bu, maarifləndirmə, sınaq və tədqiqat üçün vəsaitlər "xərc" kimi başa düşülməməlidir, əksinə müdafiə etmək məqsədində olduqları təmiz idmançılara sərmayə kimi götürülməlidir.

2011-ci ildə BOK təşəbbüsü ilə mərc və əlaqədar məsələlərlə bağlı Olimpiya hərəkatının strategiyasını təyin etmək məqsədilə Təsisçi İşçi Qrup (TİQ) yaradıldı. TİQ hökumətlərin, beynəlxalq təşkilatların, mərc (totalizator) operatorlarının və idman hərəkatının nümayəndələrindən təşkil edildi. Strategiya sıfır-dözüm (mütləq rədd) siyasətini dəstəkləyir və üç sahəyə əsaslanır: tədris, monitorinq-məlumat toplamı və qanunvericilik-tənzimləmə.

Olimpiya hərəkatının dopinqə qarşı cari strategiyası ancaq təmiz idmançıların yarışlarda iştirakını təmin etmək məqsədilə sıfır-dözüm siyasəti əsasında təmiz idmançıların müdafiəsindən ibarətdir. O, idmançı və onun ətrafındakıların maarifləndirilməsini dəstəkləməklə hazırda əsas diqqəti aşkarlama və qarşısını alma vasitəsilə yol verməməyə yönəldir.

2003-cü ildən bəri BOK-un təşəbbüsü ilə yaradılmış WADA (Ümumdünya anti-dopinq agentliyi) Ümumdünya Anti-dopinq kodeksi vasitəsilə idmançıların dopinqdən azad idmanda iştirak hüququnu müdafiə etmək, beləliklə də ahəngdar, əlaqələndirilmiş və səmərəli anti-dopinq proqramlarının köməyi ilə idmançılar üçün bütün dünyada sağlamlığı, ədaləti və bərabərliyi təbliğ etmək məqsədini güdür. BOK hazırda Oyunlarda test proqramları və WADA-ya birbaşa maliyyə dəstəyi vasitəsilə nəzərəçarpacaq rol oynayır. İdman hərəkatının bütün iştirakçılarının dünyanın hər yerində anti-dopinq prosedurlarına qoyduqları sərmayənin ildə 500 milyon ABŞ dolları olacağı ehtimal edilmişdir.

Hazırda müxtəlif səmərəyə malik bir çox yaxşı anti-dopinq proqramları vardır ki, idmançının davranışını daha yaxşı anlamaqla, bu proqramları daha da genişləndirmək olar. Beləliklə də, xüsusilə müxtəlif Olimpiya hərəkatının maraqlı tərəflərinin idmançı komissiyaları vasitəsilə idmançılarla yaxından işləmək vacibdir. Anti-dopinq proqramlarının səmərəsi hərtərəfli tədris və ahəngləşdirmə proqramları vasitəsilə dəstəklənməlidir.

Əldə edilmiş inkişafa baxmayaraq, bütün maraqlı tərəflər razılaşır ki, idmanda dopinq hələ də nəzərəçarpacaq problemdir və sadəcə olaraq eyni tədbiri təkrarlamaq təmiz idmançıların müdafiəsini yaxşılaşdırmayacaq. Ona görə də bütün maraqlı tərəflərdən yeni yaxınlaşma üsulu tələb olunur.

# Tövsiyə 14

## Olimpizmin 6-cı fundamental prinsipini gücləndirmə

**Olimpizmin 6-cı fundamental prinsipini gücləndirmə**

**İLKİN MƏLUMAT / TƏSVİR**

Olimpizmin 6-cı Fundamental Prinsipi Birləşmiş Millətlər Təşkilatının məzmunu baxımından nəzərdən keçirilmişdir
İnsan hüquqları haqqında ümumi bəyannamənin 2-ci Maddəsində deyilir:

*"Hər bir şəxs irqindən, dərisinin rəngindən, cinsindən, dilindən, dinindən, siyasi və digər əqidəsindən, milli və ya sosial mənşəyindən, əmlak, sosial mövqe və digər vəziyyətindən asılı olmayaraq bu Bəyannamədə elan olunmuş bütün hüquq və azadlıqlara malik olmalıdır. Bundan əlavə, həmin şəxsin mənsub olduğu ölkənin və ya ərazinin, həmin ərazinin müstəqil, qəyyumluq altında olan, özü idarəolunmayan və ya suverenliyi hər hansı şəkildə məhdudlaşmış olmasından asılı olmayaraq, siyası, hüquqi və beynəlxalq statusundan asılı olaraq heç bir ayrı-seçkilik qoyulmamalıdır."*

o cümlədən, İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa konvensiyasının 14-cü Maddəsində deyilir:

*"Ayrı-seçkiliyin qadağan olunması*

*Bu Konvensiyada təsbit olunmuş hüquq və azadlıqlardan istifadə cins, irq, dərinin rəngi, dil, din, siyasi və digər baxışlar, milli və ya sosial mənşə, milli azlıqlara mənsubiyyət, əmlak vəziyyəti, doğum və ya hər hansı digər əlamətlərə görə ayrı seçkilik olmadan təmin olunmalıdır."*

**TƏSİRLƏR: Hüquqi / Maliyyə / Təşkilati / Kadrlar Ehtiyatı / Digər (brend)**

☑ **Hüquqi təsir**

*Olimpiya Nizamnaməsinə dəyişikliklər:*

Olimpiya nizamnaməsinin 6-cı Fundamental prinsipini uyğunlaşdır:

6. ~~Hər hansı ölkəyə və ya şəxsə qarşı irq, din, siyasi baxışlar, gender və ya digər əlamətlərə görə ayrı seçkilik Olimpiya Hərəkatına mövcud olma ilə uyğunlaşmır.~~ Bu Olimpiya nizamnaməsində təsbit olunmuş hüquq və azadlıqlardan istifadə irq, dərinin rəngi, cins, cinsi oriyentasiya, dil, din, siyasi və digər baxışlar, milli və ya sosial mənşə, əmlak vəziyyəti, doğum və ya hər hansı digər əlamətlərə görə istənilən növ ayrı seçkilik olmadan təmin olunmalıdır.

☐ **Maliyyə təsiri**

☐ **Təşkilati təsir**

☐ **Kadrlar şöbəsinə təsir**

☐ **Digər təsir**

# Tövsiyə 15

## Təmiz idmançıları müdafiə etmə fəlsəfəsini dəyişmə

**BOK-un son məqsədi təmiz idmançıları qorumaqdır**

**İLKİN MƏLUMAT / TƏSVİR**

Təmiz idmançıları qorumaq üçün mübarizə anti-dopinq fundamental məqsədi və əvvəlcədən sövdələşdirilmiş yarışlar, yarışların manipulyasiyası və əlaqədar korrupsiya ilə mübarizə tədbirləri olmalıdır.

BOK Olimpiya Hərəkatının fəlsəfəsində bu dəyişikliyin önündə gedərək, təmiz idmançıları diqqət mərkəzinə qoymalı və bunu idmançıların böyük əksəriyyətinin, yəni ədalətli oyun ruhu ilə mübarizə aparanların müdafiəsi üçün kampaniya kimi başa düşməlidir. Bu, bütün qərarlarda və təşəbbüslərdə birinci növbəli məsələ olmalıdır. Ona görə də, BOK fəlsəfədə dopinqə, sövdələşdirilmiş yarışlara, yarışların manipulyasiyasına və əlaqədar korrupsiyaya qarşı mübarizəyə doğru dəyişikliyi şəxsi məqsəd kimi deyil, axıra qədər aparılan vasitə kimi inkişaf etdirməlidir. Belə proqramlara sərf edilmiş pullar xərc deyil, təmiz idmançıların müdafiəsinə, deməli, Olimpiya idmanının gələcəyinə qoyulan sərmayə kimi nəzərdən keçirilməlidir.

**TƏSİRLƏR: Hüquqi / Maliyyə / Təşkilati / Kadrlar Ehtiyatı / Digər (brend)**

☑ **Hüquqi təsir**

*Olimpiya Nizamnaməsinə dəyişikliklər:*

2. BOK-un missiyası və rolu*

BOK-un missiyası Olimpizmi dünyanın hər yerində təbliğ etmək və Olimpiya hərəkatına rəhbərlik etməkdir.
BOK-un rolu aşağıdakıdır:

8. idmanda dopinqə qarşı mübarizənin önündə getmək; dopinqə qarşı mübarizənin önündə getməklə, və yarışların istənilən növ manipulyasiyasının və əlaqədar korrupsiyanın bütün formalarına qarşı tədbirlər görməklə təmiz idmançıları və idmanın tamlığını qorumaq.

☑ **Maliyyə təsiri**

Dopinqə qarşı mübarizənin önündə getmək üçün testlər tək Olimpiya oyunlarında deyil, həm də bir neçə ay əvvəl və təkrar analiz vasitəsilə 10 ilə sonraya qədər aparılmalıdır.

200,000 ABŞ dolları BF-ə və MADT-a yönəlmiş testlər üçün və 50,000 ABŞ dolları Oyunlarına hər bir buraxılışından əvvəl BOK tərəfindən aparılan testlər üçün. Təkrar analiz üçün Olimpiya oyunlarının hər buraxılışına 1.2 milyon və Qış olimpiya oyunlarının hər buraxılışına 500,000 ABŞ dolları.

☑ **Təşkilati təsir**

BOK-un topladığı məlumata, o cümlədən keçirdiyi testlərə əsasən BF-lər, MOK və MADT tərəfindən aparılan Oyunlardan qabaqkı daha səmərəli testlərə imkan yaratma və dəstəkləmə.

☑ **Kadrlar şöbəsinə təsir**

Oyunlardan qabaqkı dövr də daxil olmaqla, testləri BF, MOK və MADT ilə, o cümlədən BOK ilə əlaqələndirmə və təşkil etmə üçün, və hər bir Oyunlardan sonra 10 ilə qədər toplanmış məlumatın

təkrar analizini aparma üçün işçi heyətin sayını artırma.

☑ **Digər təsir**

Əlaqələri müvafiq olaraq uyğunlaşdırma

# Tövsiyə 16

## Təmiz idmançıları müdafiə etmək üçün BOK-un 20 milyon ABŞ dollarına bərabər fondunu gücləndirmə

**BOK öz əlavə 20 milyon ABŞ dollarlıq "Təmiz idmançıları qoruma" fondundan istifadə etməlidir:**

1. Əvvəlcədən sövdələşdirilmiş yarışlar riskinə, yarışların hər hansı manipulyasiyası və əlaqədar korrupsiyaya dair dözümlü maarifləndirmə və agahlıq proqramının hazırlanmasına 10 milyon ABŞ dolları.

2. Anti-dopinqə yeni, elmi yaxınlaşma üsulu təklif edən layihələrin dəstəklənməsinə 10 milyon ABŞ dolları.

**İLKİN MƏLUMAT / TƏSVİR**

1. Aşağıdakıların inkişafına 10 milyon ABŞ dolları:

- BOK-un maarifləndirmə, qanunvericilik və hökumətlərlə, beynəlxalq təşkilatlar və mərc operatorları ilə məlumatın bölünməsi ilə əlaqədar bütün fəaliyyətləri gücləndirmək və əlaqələndirmək üçün həyata keçirdiyi "İdmanın Tamlığı üzrə Beynəlxalq Forum".
- əvvəlcədən sövdələşdirilmiş oyunlar, yarışların hər hansı manipulyasiyası və əlaqədar korrupsiya riskləri üzrə Olimpiya Hərəkatının maraqlı tərəflərinin və INTERPOL və UNDOC kimi beynəlxalq təşkilatların himayəsi altında davamlı maarifləndirmə və agahlıq proqramları.

2. Anti-dopinqlə bağlı yeni, elmi yaxınlaşma üsulu təklif edən layihələrin dəstəklənməsinə 10 milyon ABŞ dolları.

- BOK mütəxəssislər şurası BOK Tibbi Komissiyanın himayəsi altında anti-dopinq tədqiqat layihələrini qiymətləndirməli və tövsiyə etməlidir. Bu, WADA Səhiyyə və Tibbi Tədqiqat Komitəsi ilə yaxından əlaqələndirilməlidir.
- Tədqiqat vəsaitlərinin səciyyəvi layihəyə ayrılması üçün əsas meyar tədqiqatın idmançıya yönəlmiş olması olacaq. Vəsaiti almaq üçün digər meyar diqqətin sosial elmi tədqiqata, yeni üsulların tədqiqatı və elm və təbabətin digər bölmələrindən alınmış təcrübəni məqsədəuyğun qaydada istifadə edən tədqiqata yönəlməsidir.
  Fond aşağıdakı məqsədlə istifadə edilməlidir:
  - Təmiz idmançılar üçün daha az müdaxiləli testin yeni üsullarını təşkil etmək
  - Hələ anti-dopinq icmasının bir hissəsi olmayan və müxtəlif elmi yaxınlaşma üsulu təklif edən ekspertlərdən yararlanan layihələri dəstəkləmək.

**TƏSİRLƏR: Hüquqi / Maliyyə / Təşkilati / Kadrlar Ehtiyatı / Digər (brend)**

☑ **Hüquqi təsir**

1. INTERPOL, UNODC və digər üçüncü tərəflərlə sazişlərin təşkili
2. Ekspert şura üzvləri və tədqiqat qrupları ilə müqavilələr

☑ **Maliyyə təsiri**

20 milyon "Təmiz idmançıların müdafiəsi fondu".

1. 10 milyon manipulyasiyaya və əlaqədar korrupsiyaya qarşı mübarizə
2. 10 milyon dopinqə qarşı mübarizə

☑ **Təşkilati təsir**

1. BOK Etika ofisinin himayəsi altında və müxtəlif digər şöbələrin dəstəyi ilə (İdman, MOK Əlaqələri, Hüquq və s.)
2. Korporativ və əməliyyat strukturu mövcud BOK Tibbi Komissiya ekspert qrupunun oxşar şablonuna uyğun təşkil ediləcək.

☑ **Kadrlar şöbəsinə təsir**

1. Etika ofisində əlavə ehtiyatlar tələb olunmayacaq; bununla belə iki müəyyən müddətli müqavilə müddətsiz müqaviləyə çevrilməlidir
2. Maliyyələşdirmə ərizələrinin nəzərdən keçirilməsi və işlənməsi, xarici və daxili xahişlər üzrə əlaqələrin yaradılması və yeni Ekspert Şurasını dəstəkləmək və əlaqələndirmək üçün heyət sayının 1.5 dəfə artırılması.

☑ **Digər təsir**

1. Yoxdur
2. Həm səmərənin təmini, həm də maraqlı tərəflərlə yaxşı münasibətləri saxlamaq üçün WADA ilə maliyyələşdirməni əlaqələndirmək vacibdir.

# Tövsiyə 17

## Təmiz idmançılara hörmət etmə

**Dopinq hadisəsindən sonra Olimpiya medalı ilə təltif edilmiş idmançıları xüsusi qeyd etmə:**

1. Öz Olimpiya medalını rəqibin yarışdan çıxarılmasından (diskvalifikasiya) sonra almış medal qalibləri üçün rəsmi mərasimlər təşkil edilməlidir.
2. Mərasim bütün aidiyyəti olan tərəflərə lazımi qaydada bildirilməlidir.

**TƏSİRLƏR: Hüquqi / Maliyyə / Təşkilati / Kadrlar Ehtiyatı / Digər**

☑ **Hüquqi təsir**

Yoxdur

- **Maliyyə təsiri**
  Yoxdur

☑ **Təşkilati təsir**

Təşkilat müvafiq MOK və ya BF tərəfindən idarə ediləcək. Mümkün olan hallarda medal Olimpiya oyunları zamanı BOK üzvü tərəfindən təqdim ediləcək.

☑ **Kadrlar şöbəsinə təsir**

Yoxdur

☑ **Digər təsir**

Təmiz idmançıların müdafiəsi və tanınması üçün müsbət təbliğat imkanı

# Tövsiyə 18

## İdmançılara dəstəyi gücləndirmə

**İdmançılara dəstəyi gücləndirmə:**

1. BOK idmançıların təcrübəsini Olimpiya oyunlarının qəlbində saxlamalıdır.

2. BOK idmançıları yarış meydançalarında və ondan kənarda dəstəkləmək üçün sərmayələri davam etdirməlidir.

**İLKİN MƏLUMAT / TƏSVİR**

1. BOK idmançıların təcrübəsini Olimpiya oyunlarının qəlbində saxlamalıdır:

- İdmançıların təcrübəsini Namizəd Şəhəri qiymətləndirmə meyarı kimi götürmə.
- Olimpiya oyunlarını Təşkilat Komitələri idmançıların ehtiyaclarını Açılış və Bağlanma Mərasimlərinin planlaşdırılması zamanı nəzərə almalıdır.
- İdmançıların Olimpiya oyunlarının davam etdiyi bütün müddət ərzində Olimpiya Şəhərciyində qalmasını mümkün etmə.
- İdmançıların Olimpiya Şəhərciyində təklikdə kədərlənmələri üçün yer təşkil etmək.
- London 2012 və Soçi 2014 oyunlarında pilot qaydada təşkil edilmiş İdmançı dostları və ailələri üçün biletlərin təşkili proqramını daha da inkişaf etdirmə.

2. BOK məqsədəuyğun hallarda müvafiq MOK ilə əməkdaşlıqla idmançıların yarış meydançalarında və ondan kənarda dəstəklənməsinə sərmayələri artırmalıdır.

- İdmançılara yönəlmiş ümumi rabitə, tədris və cəlbetmə strategiyasını müəyyən etmə.
- İdmançıların oyun meydançasında və ondan kənarda karyerasına həsr edilmiş vacib məsələlərə idmançıların cəlb edilməsini artırma (anti-dopinq, xəsarət və xəstəliyin qarşısının alınması, idmanda zəhlətökmənin və zorakılığın qarşısını alma, oyunların əvvəlcədən sövdələşdirilməsi və qanunsuz/qaydasız mərclər, müşayiətçilər, və s.)
- İdmançıların bu mövzularla əlaqədar bütün müvafiq vasitələrdən istifadəsi üçün vahid mərkəz təklif etmə.
- İdmançılar üçün karyera proqramlarının hazırlanmasında (MOK, İdmançı Komissiyaları, Müşayiət Komissiyası, kommersiya tərəfdaşları və s.) bütün müvafiq maraqlı tərəflərlə birgə işləmə.

**TƏSİRLƏR: Hüquqi / Maliyyə / Təşkilati / Kadrlar Ehtiyatı / Digər (brend)**

☐ **Hüquqi təsir**

☑ **Maliyyə təsiri**

Tədqiqat davam etdirilməlidir.

☐ **Təşkilati təsir**

☑ **Kadrlar şöbəsinə təsir**

İdmançılara inzibati dəstəyi gücləndirmək üçün bir əlavə tam-ştatlı ekvivalent tələb oluna bilər.

# Olimpizm fəaliyyətdə: Olimpizmi ilin 365 günü qüvvədə saxlama

## İşçi Qrupu 7 - Olimpiya kanalı

| | |
|---|---|
| Sədr: | Tomas Bax (Thomas Bach) |
| İşçi qrupunun görüş tarixi: | 19 iyun 2014 |

**MƏZMUN**

Tamaşaçıların diqqəti uğrunda rəqabətin daima artdığı bir dünyada Olimpiya idman növləri və idmançılar Oyunlar arasında tez-tez layiq olduğu diqqəti almırlar. Bundan əlavə, bəzi idman növləri müstəsna olaraq, ancaq Olimpiya oyunları zamanı işıqlandırılır.

Belə tıxaclanmış media məkanında BOK-un Olimpiya dəyərlərini təbliğ etmək, idmanı dəstəkləmək və humanitar məsələləri həll etmək üçün dünya miqyasında gördüyü işləri də təbliğ etmək çətindir.

Olimpiya Kanalının yaradılması fikri Olimpiya hərəkatının geniş dəstəyini qazanmışdır və bu təklifi tədqiq etmək üçün hərtərəfli təhqiqat aparılmışdır. BOK maliyyə və BOK hüquq departamentlərinin dəstəyi, bir sıra xarici ekspertlərin məsləhəti ilə OBS və ITMS tərəfindən aparılmış texniki-iqtisadi əsaslandırma nəticələrinə uyğun və Olimpiya kanalının yaradılması BOK-a Olimpiya proqramına daxil edilmiş idman növlərini və idmançıları Olimpiya Oyunlarından kənar vaxtda da davamlı olaraq işıqlandırmaq üçün platforma verəcək. Belə bir kanal həm də Oyunlardan sonra "təcrübəni yenidən yaşamaq" imkanları verməklə onların səbirsizliklə gözlənməsinə yardım edə bilər.

Kanal Olimpiya hərəkatının ideallarının məqsədəuyğunluğunu işıqlandırar və BOK-un çox zəngin "irsi" aktivlərini və arxivlərini dünya ilə bölüşdürmək üçün platforma təchiz edərək, BOK arxivləri üçün əlavə dəyər və məzmun yaradar. Kanal həmçinin dünyanın hər yerindən olan gənclər üçün müvafiq olan platformalardan, vəsaitlərdən və alətlərdən istifadə edərək, anlaşma, əyləncə və maarifləndirməni təşkil edərək, onları cəlb etmək üçün vacib alət ola bilər.

# Tövsiyə 19

## Olimpiya kanalını işə salma

**BOK Olimpiya kanalını işə salmalıdır.**

**İLKİN MƏLUMAT / TƏSVİR**

BOK maliyyə, BOK hüquq departamentlərinin və xarici ekspertlərin dəstəyi ilə OBS (Olimpiya yayım xidməti) və ITMS tərəfindən aparılmış texniki-iqtisadi əsaslandırma nəticələrinə uyğun Olimpiya kanalının yaradılması BOK üçün real imkan verəcək.

- Olimpiya idman növlərinin və idmançılarının Olimpiya Oyunlarından sonra da işıqlandırılması üçün platforma təchiz etmə və "təcrübəni yenidən yaşamaq" imkanları verməklə onların səbirsizliklə gözlənməsinə yardım etmə
- Davamlı olaraq Olimpiya ideallarının bugünkü dünyanın problemlərinə müvafiqliyini işıqlandırmaq
- BOK-un çox zəngin irsi aktivlərini və arxivlərini dünya ilə bölüşdürmək üçün platforma təchiz etmək, BOK arxivləri üçün əlavə dəyər və məzmun yaratmaq.
- Prioritet məsələ kimi dünyanın hər yerindən olan gənc nəsil üçün müvafiq olan üsullardan istifadə etmək, anlaşma, əyləncə və maarifləndirməni təşkil edərək, onları cəlb etmək
- Tender mərhələsində tenderdə iştirak edən şəhərlər üçün platforma təchiz etmək
- Sonda Olimpiya kanalı:
  - Olimpiya idman növləri üçün "Doğma ev" olacaq
  - Birləşdirəcək və cəlb edəcək (tamaşaçılar və qonaqlar)
  - Olimpizmin dəyərlərini təbliğ edəcək
  - İdman vasitəsilə maarifləndirəcək

*OBS tərəfindən istehsal edilən Olimpiya Kanalının versiyası bütün dünyada "ancaq rəqəmsal" formatda təklif edilən, xətti proqramlaşdırma konsepsiyasına əsaslanmış olacaq və maliyyələşdirilməsi ilkin olaraq Texniki-iqtisadi əsaslandırmada təsvir ediləcək.*

*Xətti (ənənəvi televiziya) paylanma imkanları yarandıqca OBS tədricən öz proqramlaşdırma təklifini artırmağa başlayacaq.*

Olimpiya kanalı məzmununda rəqəmsal və sosial media platformalarının yaradılması və inkişafı Olimpiya sponsorlarının cəlb edilməsi üçün yeni dəyərli aktivlər yarada bilər. Bu baxımdan, belə Olimpiya sponsorlarının artan biznes ehtiyaclarını uyğunlaşdırmaqla yanaşı BOK-un brendi/siyasətləri/qaydaları ilə uyğunlaşdırmaq üçün bütün BOK rəqəmsal aktivlərində (lakin həmçinin OOTK və MOK aktivləri) Olimpiya sponsorları üçün kommersiya rəqəmsal birləşmə imkanları aydın müəyyən edilməlidir.

| |
|---|
| **TƏSİRLƏR: Hüquqi / Maliyyə / Təşkilati / Kadrlar Ehtiyatı / Digər (brend)** |
| ☑ **Hüquqi təsir**<br><br>Olimpiya kanalı BOK nəzarəti altında olmalıdır. BOK Maliyyə və BOK Hüquq departamentləri normativ, hüquq, vergi, əməliyyat və kommersiya mülahizələri əsasında ən məqsədəuyğun korporativ və idarəçilik strukturunu tədqiq edərək BOK prezidentinə və BOK İŞ-na tövsiyə etməlidir.<br><br>ITMS, OBS, BOK Hüquq və BOK Maliyyə departamentləri təhlili davam etdirərək, üstünlük təşkil edən razılaşmalarla (məs. RHB (bölgə səhiyyə büroları) və sponsorlarla), tətbiq edilən qanun və qaydalarla, buraxılış və hüquqların məhdudlaşmaları, o cümlədən sığorta tələblərinə cavab verməyə uyğunluğu təmin etməlidir.<br><br>BOK əsasnamələrinə, tətbiq edilən sazişlərə (məs. Təşkilatçı Şəhərlə Müqavilə), digər korporativ sənədlərə lazımi düzəlişlər, o cümlədən müvafiq qeydiyyatlar təmin edilməlidir. |
| ☑ **Maliyyə təsiri**<br><br>Olimpiya Kanalı layihəsi nəzərəçarpacaq təşkilat və əməliyyat xərcləri tələb edəcək ki, onlar əsasən yayım hüquqlarından, sponsorlar və digər üçüncü tərəf təşkilatlar tərəfindən maliyyələşdiriləcək, vəsaitin cüzi hissəsi ilə Olimpiya tərəflərindən və BOK-dan veriləcək. BOK Maliyyə Komissiyasının növbəti yığıncağından sonra Komissiyanın sədri Olimpiya kanalı üçün yeddi illik maliyyə planını əks etdirən, o cümlədən proqnozlaşdırılmış xərclərin və gəlir ehtimallarının daxil edildiyi ayrıca hesabatı BOK Sessiyasına təqdim edəcək. |
| ☑ **Təşkilati təsir**<br><br>BOK Maliyyə və BOK Hüquq departamentlərinin tədqiq və təklif etdikləri korporativ struktur vasitəsilə BOK sonda Olimpiya kanalının İP və məzmun aktivlərinə sahib olacaq təşkilata çevrilə bilər və Olimpiya kanalı ilə bağlı hər hansı üçüncü-tərəf gəlirlərini ala bilər.<br><br>Olimpiya kanalının işə salınması həmçinin cari təşkilat və ehtiyatlara, əsasən də OBS və ITMS-ə təsir edə bilər.<br><br>OBS-n təşkilinə oxşar şəkildə, BOK OBS-ə öz cavabdehliklərini inkişaf etdirərək Olimpiya kanalının təşkilini və istismarını da daxil etmək göstərişi verə bilər. Genişlənmə cari OBS strukturu ilə qovuşmalardan istifadəni diqqətlə nəzərdən keçirməli, eyni zamanda OBS-n əsas yayım qolunun dəyişməz qaldığını təmin etməlidir.<br><br>İTMS kommersiya, paylanma, təbliğ və mənfəət yaradan fəaliyyətlərlə məşğul olacaq. |

☑ **Kadrlar şöbəsinə təsir**

**OBS - Olimpiya yayım xidməti**

"Ancaq rəqəmsal" quruluşda işçi qüvvəsinin strukturu bu cəhdin strategiyasını lazımi qaydada tətbiq etmək üçün cəmi 106 əlavə işçi tələb etdi. Nəticədə, OBS-n yenidən qurulması aparılaraq, şərikli vəzifələr və xidmətlər mərkəzi vasitəsilə səmərə yaradacaq iki aydın əməliyyat şöbəsi təşkil edilə bilər (Host-yayım və Olimpiya kanalı).

**ITMS**

ITMS-n cavabdehliyi altına düşən funksional sahələrin hər birinə təsir dəyəcək -
2015-2016-cı ilə mövcud olan cari hesablamalara əsasın 12
əlavə işçi.

**BOK**

Səciyyəvi BOK funksiyaları və departamentlərində (məs. BOK Hüquq, Rabitə, və s.) kadrlar ehtiyatına dəyəcək təsir qiymətləndirilməlidir.

☑ **Digər təsir**

**Mövcud rəqəmsal aktivlər**

BOK-un mövcud və ya gələcək rəqəmsal platformaları və sosial media rabitə platformaları ilə uyğunlaşdırma strategiyası daha hərtərəfli qiymətləndirilməlidir.

**Olimpiyanın arxiv materialından istifadə imkanı.**

OBS-n operativ sürətlə Olimpiya arxivlərinə girişini təmin etmə

**Brendin idarə edilməsinə təsir**

- Olimpiya kanalının işə salınması üçün lazım olan hazırlıq işləri çərçivəsində OBS və ITMS ilə birlikdə brendin görünüşü və yerləşməsi üzərində iş aparılmalıdır.
- Olimpiya sponsorları üçün kommersiya rəqəmsal qovuşma BOK brend siyasətlərində və qaydalarında aydın müəyyən edilməli, eyni zamanda belə Olimpiya sponsorları üçün inkişaf edən biznes ehtiyacları ilə uyğunlaşdırılmalıdır.

# İşçi Qrupu 8 - Gənclər üzrə strategiya daxil olmaqla Olimpizm fəaliyyətdə

| | |
|---|---|
| Sədr: | Jerardo Vertein (Gerardo Werthein) |
| İşçi qrupunun görüş tarixi: | 19 iyun 2014 |

**MƏZMUN**

BOK-un və ümumiyyətlə, Olimpiya Hərəkatının Olimpiya Nizamnaməsinin fundamental prinsipində qeyd edildiyi kimi idman vasitəsilə sülhsevər və daha yaxşı dünyanın yaradılmasına töhfəsi illər ərzində BOK-un müxtəlif müəssisələri tərəfindən "Olimpizm fəaliyyətdə" şüarı altında yerinə yetirilmiş çox saylı proqramlar və təşəbbüslərlə həyata keçirilmişdir. Bu proqramlar BOK-un mülki cəmiyyətin qlobal problemlərdən narahat olan, tək Olimpiya oyunları vasitəsilə elit idman növlərini təbliğ etməklə deyil, həm də hamını idman və fiziki aktivliyə həvəsləndirən cavabdeh üzvü kimi təsvir etmək, bununla da müsbət sosial dəyişikliklər yaratmaq məqsədi güdür.

Beynəlxalq cəmiyyət və ümumi ictimaiyyət BOK-un sosial cavabdehlik daşımasını və öz ən yaxşı aktivlərini bu məqsədə sərf etməsini ümid edir. Biz geniş əhatəmizlə və dünyanın hər yerində olan tərəfdaşlar və platformalar şəbəkəsi ilə idmanı sosial dəyişiklik üçün istifadə etmək imkanı verən yaxşı mövqeyə malikik. bizim idmanda nüfuzlu səsə malik dünya lideri olmaq legitimliyimiz; bizim qlobal brendin tanınması; və bizim Birləşmiş Millətlər Təşkilatında Müşahidəçi statusumuz. Bu baxımdan, BOK bu yaxınlarda Birləşmiş Millətlər Təşkilatı ilə ən yüksək səviyyədə əməkdaşlığı inkişaf etdirmək üçün Anlaşma Memorandumu imzalamalıdır və bu status artıq öz bəhrəsini verir.
Daha qlobal miqyasda enerjini sonda Olimpiya hərəkatının inkişafını dəstəkləyən idmanla məşğuliyyətin və elit yarışların bünövrəsini təşkil edən hamı üçün fiziki fəaliyyətə, məşq və fiziki təlimə sərmayə qoyulmasının məqsədəuyğunluğuna yenidən yönəltmək vacibdir. İdman və fiziki fəaliyyətdə uşaqlıqdan iştirak etmə böyüdükdə cəmiyyətin fəal vətəndaşı olmaq şansını artırır. Olimpiya oyunları vasitəsilə gəncləri həvəsləndirmək onların idmanla fəal məşğuliyyəti və cəlb olunması üçün kifayət deyil; məşq etmək üçün imkanlar təchiz edilməlidir.

Olimpizm fəaliyyətdə missiyasını idmanı və onun dəyərlərini BOK-un cəmiyyətdə qlobal mənfəət üçün gördüyü işin əsasına qoyan, təhlükəsiz və hərtərəfli idmana fəal cəlb olunmanın tərəfində olan və dəstəkləyən və onun müsbət maarifləndirici və sosial dəyərlərin təsirinə məruz qalan səciyyəvi çərçivəyə uyğun formalaşdırmaq vaxtıdır. Bu, həmrəylik, universallıq, əməkdaşlıq, yaxşı idarəçilik və davamlı təsirin əsas prinsiplərinə əsaslanmalı və təbliğat, imkanların artırılması, agahlığın yüksəldilməsi və təsirli və davamlı proqramlara sərmayədən istifadə etməklə həyata keçirilməlidir.

Bütün bu proqramların legitimliyini, həcmini, müdaxiləsini, ehtiyatlarını, təsirinin ölçülməsini və daxili tənzimlənməsini, daha doğrusu 1) Olimpizm fəaliyyətdə missiyasına sərmayələrin nə üçün və harada məqsədəuyğun olduğunu; 2) onların necə optimallaşdırıla və BOK-un missiyasına daha yaxşı xidmət etmək üçün daxili tənzimlənə biləcəyini; və 3) təşkilat üçün qlobal miqyasda daha böyük, ölçülə bilən və davamlı müsbət nəticələr, artırılmış etibar və daha yüksək sərmayə mənfəətinin yaradılması üçün nə lazım olduğunu yenidən qiymətləndirməyə dəyər. Bu yeni strategiyaları və siyasətləri hazırlayan zaman biz təşkilatın inkişaf etmiş və ya aydınlaşdırılmış olmasını təmin etməliyik.

# Tövsiyə 20

## Strateji tərəfdaşlığa daxil olma

**BOK öz proqramlarının təsirini artırmaq üçün bacarıqlı və beynəlxalq səviyyədə tanınmış təşkilatlarla və QHT ilə əməkdaşlığa və birliyə açıq olmalıdır.**

**İLKİN MƏLUMAT / TƏSVİR**

Beynəlxalq cəmiyyət, idman hərəkatı, özəl sektor və ümumi ictimaiyyət BOK-un sosial baxımdan cavabdeh olması və idmanın təbliğ edilməsində öz dünya lideri olma legitimliyini və sosial dəyişikliklərə nail olma qüvvəsini tanımasını gözləyir.

Bununla belə, BOK təklikdə bunlara nail ola bilməz. Mürəkkəb qlobal dəyişiklikliyi həll etmə BMT, beynəlxalq təşkilatlar, QHT, o cümlədən maliyyə təşkilatları kimi tərəfdaşların cəlb edilməsini və onların unikal imkan və təcrübələrini kapitallaşdırmanı tələb edəcək. Bizim güclü dəyərlərimizi qoruyub saxlamaqla yanaşı, biz müxtəlifliyi də salamlamalı və həm də yeni tərəfdaşlara və sosial dəyişikliklik problemlərinin innovativ yolla həll etməyə açıq olmalıyıq.

Bir çox Olimpiya tərəfdaşları idmanın və fiziki fəallığın təbliğini öz Korporativ Sosial cavabdehlik (KSC) proqramlarının əsası kimi müəyyən etmiş, xüsusilə sağlamlığın və gender bərabərliyinin təbliğini ciddi şəkildə həyata keçirməyə başlamışlar. BOK İdman İnkişaf üçün strategiyası və idman və fiziki fəallığa girişi təmin edən davamlı və təsirli proqramlara müdaxiləsi Olimpiya tərəfdaşları ilə əməkdaşlığı və onların KSC maraqlarını daha da fəallaşdırmaq üçün möhkəm əsas verə bilər və BOK-un ümumi sərmayəsinə əlavə olar və/yaxud onu azalda bilər.

**TƏSİRLƏR: Hüquqi / Maliyyə / Təşkilati / Kadrlar Ehtiyatı / Digər (brend)**

☑ **Hüquqi təsir**

Tərəfdaş təşkilatlarla müvafiq müqavilələr və Anlaşma memorandumları

☑ **Maliyyə təsiri**

Tədqiqat davam etdirilməlidir.

Buna əlavə olaraq, ənənəvi idman növlərini hamı üçün, xüsusilə də gənclər üçün inkişaf etdirmək istəyən MOK üçün cari Olimpiya Həmrəyliyi fondunu genişləndirmək mümkünlüyünü nəzərdən keçirmək tövsiyə olunur.

☑ **Təşkilati təsir**

Proqramın inkişafı və tədris bölməsinin yaradılmasına imkan vermək üçün Beynəlxalq əməkdaşlıq və inkişaf departamentini yenidən qurmaq və gücləndirmək

| |
|---|
| ☑ **Kadrlar şöbəsinə təsir**<br><br>Bir əlavə tam ştatlı ekvivalent |
| ☐ **Digər təsir** |

# Tövsiyə 21

## BOK-un təbliğat imkanını gücləndirmə

**BOK-un təbliğat imkanını gücləndirmə:**

- BOK dövlətlərarası təşkilatları və agentlikləri dəstəkləməlidir.
- BOK MOK-un təbliğat cəhdlərini həvəsləndirməli və yardım etməlidir.

**İLKİN MƏLUMAT / TƏSVİR**

Beynəlxalq cəmiyyətin BOK-un gözləntiləri böyükdür və bizim təsirli səsə, güclü qlobal brendə və dünyanın hər yerində nüfuzlu tərəfdaşları və siyasi platformaları geniş miqyasda cəlb etmə imkanına malik olan beynəlxalq təşkilat kimi unikal aktivlərimizi tanıyır. Buraya Birləşmiş Millətlər Təşkilatında malik olduğumuz imtiyazlı Daimi Müşahidəçi statusumuz, o cümlədən BMT Baş Katibinin Ofisi ilə güclü təzələnmiş tərəfdaşlıq sazişi daxildir. Bu baxımdan, BOK idman hərəkatı üzrə qlobal lider kimi əla mövqeyə malikdir və beynəlxalq siyasi platformalarda yüksək dərəcəli siyasi nüfuza malik ola bilər.

Oturaq davranışın artması, qızlar və qadınlara qarşı davamlı qeyri-bərabərliklər, qeyri-infeksion xəstəliklərin artan yükü və məktəb proqramından fiziki təlimin çıxarılması kimi əhatəli göstəricilərin meydana gəldiyi cari qlobal şəraiti nəzərə alaraq, BOK-un idman və fiziki fəaliyyətə daha çox sərmayə qoyması vacibdir və lazımi vaxtdır, çünki bunlar sonda Olimpiya Hərəkatının artmasını dəstəkləyəcək idmanla məşğul olmanın və elit yarışların bünövrəsidir və, eyni zamanda sosial kapitalı artıraraq sosial dəyişiklikləri mümkün edir.

BOK qəbul edir ki, 2015-ci ildən sonra qlobal inkişaf gündəliyi davamlı inkişafın qlobal çərçivəsini təşkil etmək üçün tarixi imkan verir. Olimpiya və idman hərəkatının lideri kimi BOK idmanın gələcək davamlı inkişaf məqsədlərinə (bu məqsədlər hazırda BMT-də dövlətlər tərəfindən müzakirə edilir) öz töhfəsini vermək üçün nəhəng potensiala malik olduğunu müdafiə etməyə imkan verən yaxşı mövqeyə malikdir.

- BOK dövlətlərarası təşkilatlar və agentliklər qarşısında, xüsusilə, aşağıdakı məsələləri müdafiə etməlidir:
  - İdmanın cəmiyyətdə rolu
  - Muxtariyyət
  - Tədris
  - İdman vasitəsilə inkişaf və sülh
- BOK MOK-un təbliğat cəhdlərini həvəsləndirməli və dəstəkləməlidir.
  - İdmanın cəmiyyətdə rolu
  - Muxtariyyət
  - Tədris
  - Hamının idmana təhlükəsiz və müdafiə edilən girişi
  - Oyunların müsbət mirası

| **TƏSİRLƏR: Hüquqi / Maliyyə / Təşkilati / Kadrlar Ehtiyatı / Digər (brend)** |
|---|
| ☑ **Hüquqi təsir**<br><br>Bu tövsiyələr əsas təşkilatlarla yeni sazişlərin və ya Anlaşma Memorandumunun imzalanmasına səbəb ola bilər ki, həmin təşkilatlarla təbliğat işləri aparıla bilər. |
| ☑ **Maliyyə təsiri**<br><br>Artmış təbliğat strategiyası ehtiyatların - əsas etibarilə, işçi qüvvəsinin, səyahət və təbliğat materiallarının və təlimin - artırılmasını tələb edəcək. |
| ☑ **Təşkilati təsir**<br><br>Təbliğat işlərinə cəlb edilən BOK üzvlərinin və Beynəlxalq<br>Əlaqələr Komissiyası Sədrinin, o cümlədən Olimpiyaçıların oynayacağı rolun artması.<br>Nyu-Yorkda BOK-un gücləndirilmiş, dinamik və görünən Daimi Müşahidəçi Ofisi.<br>Bütün təbliğat və imkanların artırılmasını inkişaf üçün idman və “Sport for All” proqramı ətrafında mərkəzləşdirilməsi.<br>Bu yeni işi çatdırmaq üçün Təbliğat və Strategiya Bölməsini yaratmaqla Beynəlxalq Əməkdaşlıq və İnkişaf Departamentini yenidən təşkil edin və gücləndirin. |
| ☑ **Kadrlar Şöbəsinə təsir**<br><br>3.4 əlavə tam ştatlı ekvivalent |
| ☑ **Digər təsir**<br><br>Təbliğat işi BOK-a BMT də daxil olmaqla əsas tərəfdaşlarla münasibətləri gücləndirməyə imkan verəcək<br>və bizim AM-nu təzələməyə yardım edəcək.<br>Brendin təsiri<br>- Təbliğat işi BOK-un nüfuzuna, nəticədə də Olimpiya brendinin qavranmasına nəzərəçarpacaq və müsbət təsir göstərəcək. |

# Tövsiyə 22

## Olimpiya dəyərlərinə əsaslanan tədrisi yayma

**Olimpiya dəyərlərinə əsaslanan tədrisi yayma**

1. BOK UNESCO ilə tərəfdaşlığını gücləndirərək, idman və onun dəyərlərini dünyanın hər yerində məktəb proqramına daxil etməlidir.
2. BOK müxtəlif MOK-un və digər təşkilatların Olimpiya dəyərlərinə əsaslanan tədris proqramını paylaşmaq üçün elektron platforma işləyib hazırlamalıdır.
3. BOK Olimpiya dəyərlərini yaymağa yardım edəcək təşəbbüsləri aşkar etməli və dəstəkləməlidir.

**İLKİN MƏLUMAT / TƏSVİR**

Uşaqlar üçün bədən tərbiyəsi, oyunlar və idman növləri fiziki sağlamlığa və emosional, sosial və idrak funksiyalarına nəzərə çarpan müsbət təsir göstərir. Hər gün ən azı 60 dəqiqə fəal olmaq uşaqlara öz sağlamlığını təkmilləşdirməyə, məktəbdə daha yaxşı oxumağa, öz bədənlərini möhkəmləndirməyə, güclü olmağa, dostları ilə əylənməyə, daha xoşbəxt olmağa və sağlam bədən çəkisinə malik olmağa, özünə inamı təkmilləşdirməyə və yeni bacarıqlar qazanmağa kömək edir. Bundan əlavə, uşaqlıqdan qazanılmış fiziki aktivlik adətləri yaşlıların da fiziki fəallıq davranışını qismən müəyyən edir ki, bu da yaşlıların səhhəti və rifahının əsas amilidir. Məktəbə əsaslanan müdaxilələr uşaqlar və gənclər arasında alçaq səviyyəli fiziki fəaliyyətə və fitnesə əks duran universal miqyasda ən müvafiq və səmərəli üsuldur.

Olimpiya Dəyərlərinin Tədrisi Proqramı (ODTP) tədris vasitəsi kimi nəzərəçarpacaq dəyəri nümayiş etdirmişdir, çünki bu metodologiya müasir cəmiyyətin problemlərinə cavab verəcək dəyərlərin, münasibətlərin, bilik və bacarıqların əldə edilməsini xüsusi qeyd edən yaxşı işlənmiş, vəziyyətə uyğunlaşan tədris proqramını hazırlamağa imkan verir.

**TƏSİRLƏR: Hüquqi / Maliyyə / Təşkilati / Kadrlar Ehtiyatı / Digər (brend)**

☑ **Hüquqi təsir**

UNESCO ilə Saziş

☑ **Maliyyə təsiri**

Tədqiqat davam etdirilməlidir.

☐ **Təşkilati təsir**

☑ **Kadrlar Şöbəsinə təsir**

ODTP-nı məktəblərə daxil etmə təbliğatda və hökumətlə münasibətlərdə təcrübə tələb edəcək. Bu bacarıq ehtiyacı təbliğat tövsiyələrində əks etdirilmişdir.

E-platformaya nəzarət və əlaqələndirmə Beynəlxalq Əməkdaşlıq və İnkişaf Departamenti tərəfindən həyata keçiriləcək. Təşəbbüs üçüncü tərəflərə həvalə ediləcəyi üçün bu, xarici podratçılara nəzarəti tələb edə bilər.

☐ **Digər təsir**

# Tövsiyə 23

## İcmalarla **münasibət qurma**

**İcmalarla münasibət qurma:**

1. İdmançılar üçün virtual mərkəz yaratma
2. Könüllülər üçün virtual klub yaratma.
3. Ümumi ictimaiyyətlə münasibət qurma.
4. Gənclərlə münasibət qurma .

**İLKİN MƏLUMAT / TƏSVİR**

1. İdmançılar üçün virtual mərkəz: İdmançılar arasında və idmançılarla daha yaxşı əlaqəni asanlaşdırmaq üçün BOK digər təşkilatlarla, o cümlədən MOK, BF, İdmançı Komissiyaları və Dünya Olimpiyaçıları Assosiasiyası ilə yaxından əməkdaşlıqla idmançılar üçün virtual mərkəz yaratmalıdır.
2. Könüllülər üçün virtual klub: Könüllülər güclü təbliğat icması yaratmaq üçün öz hekayələrini və görüşlərini bölüşdürməyə həvəsləndirilməlidir. Bu icma BOK və, ümumiyyətlə, Oyunları və lazım olduqda səciyyəvi məsələləri dəstəkləmək və könüllülərin öz doğma vətənlərindən kənarda gələcək Oyunlara ərizə vermələrini asanlaşdırmaq üçün işə salmalıdır.
3. Ümumi ictimaiyyət: İnternet və sosial media vasitəsilə tək Olimpiya oyunlarına baxmaq üçün deyil, həm də inkişaf etmək üçün (məs. "həvəsləndirilib", idman laboratoriyası, və s. kimi cəlb etmə proqramları) daha asan giriş verməklə ümumi ictimaiyyətin geniş səviyyədə marağını saxlamanın və ya gücləndirmənin yollarını qiymətləndirin.

4. Gənclər: gənclərin, o cümlədən (hələ) Olimpiya Hərəkətinə cəlb edilməmişlərin nəbzini qeyri-rəsmi və geniş dialoqda tutmaq.

**TƏSİRLƏR: Hüquqi / Maliyyə / Təşkilati / Kadrlar Ehtiyatı / Digər (brend)**

☐ **Hüquqi təsir**

☑ **Maliyyə təsiri**

Tədqiqat davam etdirilməlidir.

☐ **Təşkilati təsir**

☑ **Kadrlar şöbəsinə təsir**

Bir əlavə tam ştatlı ekvivalent: İş üçüncü tərəflərə həvalə etmək, yaxud icmanı idarə etmək üçün bir tam ştatlı işçi götürmək lazımdır.

☑ **Digər təsir**

Brendin idarə edilməsi: Yuxarıdakı məqsədlərə nail olmaq üçün Olimpiya təsvirindən və simvollarından istifadə sadələşdirilməli və onun daha geniş istifadəsini təmin etməklə yanaşı məqsədəuyğun mühafizə səviyyəsini saxlamaq məqsədi güdülməlidir. Olimpiya hərəkatının maraqlı tərəfləri üçün istifadə ilə bağlı təlimatlar işlənməlidir.

# Tövsiyə 24
# "Ümid üçün idman" proqramını qiymətləndirmə

**"Sport fot Hope" (Ümid üçün idman) proqramını qiymətləndirmə:**

1. BOK Sport fot Hope (Ümid üçün idman) proqramının uğurunu və təsirlərini növbəti iki - üç il üçün hesablamalı və bu minvalda proqramı Haiti və Zambiyanın iki mövcud mərkəzi ilə məhdudlaşdırmalıdır.
2. BOK iki mövcud "Sport fot Hope" (Ümid üçün idman) mərkəzləri üçün davamlı əməliyyat modelləri hazırlamalı və digər GHT-nı öz müvafiq peşəkarlıq sahələrinə töhfə verməklə. mərkəzlərin özünü təmin edən olması, başqa bir təşkilat tərəfində idarə və istismar edilməsi və daha BOK-un birbaşa güclü sərmayə və dəstəyindən asılı olmaması məqsədi güdməlidir.
3. BOK yerli şəkildə uyğunlaşdırılmış ənənəvi idman obyektlərinə sərmayə üçün növbəti strategiyanı müəyyənləşdirməli və Olimpiya modellərindən əldə edilmiş təcrübə və təcrübəni daha da artırmalıdır.

**İLKİN MƏLUMAT / TƏSVİR**

"Sport fot Hope" (Ümid üçün idman) proqramı 2007-ci ildə, inkişaf etməkdə olan ölkələrdə idman, tədris və sosial inkişafı dəstəkləmək üçün başlanmışdır. Proqram elit idmançıları müasir təlim obyektləri ilə, gəncləri və yerli icmaları müsbət idman və həyat tərzi imkanları ilə təchiz etmək üçün çox funksiyalı idman mərkəzlərinin tikilməsini, beləliklə də Olimpizmin prinsip və dəyərlərini təbliğ etməyi nəzərdə tutur. İlk "Sport fot Hope" (Ümid üçün idman) mərkəzi 2010-cu ildə Zambiyada açılmış, ikinci mərkəz isə 2014-cü ilin iyul ayında Haitidə işə salınmışdır.

Proqramın ilkin etapında məqsədi ondan ibarət idi ki, yerli icmalar mərkəz üzərində "sahibliyi" öz üzərinə götürəcək və mərkəzin idarə edilməsi yerli MOK-a təhvil veriləcək. Həmçinin dünyanın hər bir bölgəsində modeli təkrarlamaq mümkünlüyü nəzərə alınmışdır.

Mərkəzin işlədilməsi Zambiyada idman proqramlarının böyük nailiyyətlərinə əlavə olaraq, BOK üçün bir neçə problem yaratdı. Haitidə mərkəz yenicə açılsa da, onun ölkədəki sosial iqtisadi vəziyyətlə əlaqədar bir sıra oxşar, hətta daha mürəkkəb problem yaradacağı gözlənilir.

**TƏSİRLƏR: Hüquqi / Maliyyə / Təşkilati / Kadrlar Ehtiyatı / Digər (brend)**

☑ **Hüquqi təsir**

Qısa müddət ərzində Haitidə mövcud tərəfdaşlığı gücləndirmək və stabilliyi və əməliyyat səmərəsini təmin etmək üçün güclü və nüfuzlu tərəfdaşlarla yeni ikitərəfli razılaşmalar və anlaşma memorandumu hazırlamaq.

Həm Zambiya, həm də Haitidə BOK mövcud müqavilələri tədricən mərkəzlərə rəhbərliyi qəbul edə biləcək yeni potensial tərəfdaşlara keçirmək ümumi məqsədəuyğun çərçivə hazırlamalıdır

☑ **Maliyyə təsiri**

Növbəti bir neçə il ərzində iki mövcud mərkəzi işlətmək üçün BOK-a hər il 2,000,000 ABŞ dolları ayırmaq lazım gələcək. Digər maraqlı tərəflərin cəlb edilməsi ilə bu məbləğ tədricən azalmalıdır.

2016-cı ildən başlayaraq, BOK yerli şəraitə uyğunlaşdırılmış idman obyektlərinə bir milyon ABŞ dolları sərmayə qoymalıdır. Bu, təxminən beş infrastruktur layihəni dəstəkləməyə imkan verə bilər.

☐ **Təşkilati təsir**

☑ **Kadrlar şöbəsinə təsir**

Bir tam ştatlı ekvivalent: İki mərkəz üzərində təşkilati yaddaşı və lazımi nəzarəti saxlamaq üçün Beynəlxalq Əməkdaşlıq və İnkişaf Departamentinə "Sport for Hope" proqramını idarə edəcək, əlaqələndirəcək və rəhbərlik edəcək daimi tam-ştatlı Proqram Menecerini, o cümlədən iki mərkəzi dəstəkləyəcək Layihə üzrə Məsul şəxsi işə götürmək tövsiyə edilir.

Hazırda bizim "Sports for Hope" proqramını idarə etmək üçün müqavilə üzrə vəzifəmiz vardır, lakin bu vəzifə daima olsa risklərin qarşısını ala bilərdik və strategiyamızı yerli şəkildə ənənəvi obyektlər və proqramlara sərmayə qoymağa keçirdikcə, perspektivdə bacarıqların inkişafından faydalana bilərdik.

☐ **Digər təsir**

# İşçi Qrupu 9 - Gənclərin Olimpiya Oyunları

| | |
|---|---|
| Sədr: | Ser Miang Ng |
| İşçi qrupunun görüş tarixi: | 18 iyun 2014 |

**MƏZMUN**

İşçi Qrupun yığıncağı zamanı, o cümlədən komissiyanın görüşləri, Olimpiya sammiti zamanı ictimaiyyətdən və Nankində keçirilmiş ən son Gənclər Olimpiya Oyunlarından (GOO) sonra geniş miqdarda rəy alınmışdır. Rəylər maraqlı tərəflərin müxtəlif təbəqələrindən alınır və GOO-n demək olar ki, hər bir amilini əhatə edir. Tam və şəffaf müzakirəyə imkan vermək, o cümlədən hərtərəfli məsləhətləşmə və əks etdirməni həyata keçirmək və bütün rəyləri nəzərdən keçirmək üçün Gənclərin Olimpiya oyunlarının gələcəyini nəzərdən keçirmək üçün xüsusi komissiya təşkil ediləcək.

BOK Gənclərin Olimpiya oyunlarını yaratdıqda iki əsas problemi həll etmək istəyirdi:

- 14-18 yaşlı gənc idmançılar arasında rəqabətli idman növlərinin aşağı düşməsi,
- gənclərin idman və fiziki fəaliyyətlərdə iştirakının ümumi azalması.

GOO üçün təyin edilmiş baxış ondan ibarət idi ki, "Gənclərin Olimpiya Oyunları dünyanın hər yerindən olan gəncləri idmanda iştirak etməyə və Olimpiya dəyərlərini qəbul etməyə və ona uyğun yaşamağa həvəsləndirəcək."

Gənclər Olimpiya Oyunlarının ilk üç buraxılışı 2010-cu ildə Sinqapurda, 2012-ci ildə İnsbrukda və 2014-cü ildə Nankində keçirilmişdir. Bu üç buraxılış bütün iştirakçılardan yüksək qiymətlər almışdır. GOO həmçinin gənc iştirakçılar üçün Olimpiya dəyərlərini yeniləşdirmiş və göstərmişdir ki, onlar hələ də bu günün gənclərinə uyğundur.

"Gəncləri idman vasitəsilə maarifləndirmə" Olimpiya hərəkatının əsas missiyası və Olimpiya gündəliyi-2020-n üç əsas sütunudur. Gənclər Olimpiya Oyunlarının hələ də təzə tətbiq olmasına baxmayaraq, Gənclər Olimpiya Oyunlarının hərtərəfli təhlili və onlara təyin olunmuş missiyaya xidmət etdiklərini qiymətləndirmək üçün doğru zaman idi.

# Tövsiyə 25

## Gənclərin Olimpiya oyunlarının mövqeyini nəzərdən keçirmə

**BOK maraqlı tərəflərlə Gənclər Olimpiya Oyunlarının mövqeyini nəzərdən keçirməlidir.**

1. BOK İdarə heyəti, MOK və BF-lər ilə Olimpiya Oyunlarının baxışı, missiyası, mövqeyi, idman proqramı, Mədəniyyət və Təhsil Proqramı (MTP), protokolu, təşkilatı, çatdırılma və maliyyələşdirilməsini dərindən nəzərdən keçirmək və BOK Sessiyasında yekun müzakirə və qərarların qəbul edilməsi məqsədilə üçtərəfli komissiya yaratmalıdır.
2. BOK, Gənclər Olimpiya Oyunlarının təşkilini qeyri-Olimpiya ilinə keçirməli, 4-cü Yay Gənclər Olimpiya Oyunlarından başlayaraq 2022-dən 2023-cü ilə təxirə salmalıdır.

**TƏSİRLƏR: Hüquqi / Maliyyə / Təşkilati / Kadrlar Ehtiyatı / Digər (brend)**

☑ **Hüquqi təsir**

☑ **Maliyyə təsiri**

1. Aparılacaq qiymətləndirmənin həcmindən asılı olaraq, üçtərəfli komissiyanın işini və onun nəticələrini dəstəkləmək üçün hər iki tədqiqatı əhatə edəcək.
2. GOO-dan "qeyri-Olimpiya" illərinə keçidin təsiri qiymətləndirilməlidir.

☑ **Təşkilati təsir**

1. Həm 2016 və 2018 GOOTK, və həmçinin gələcək 2020 GOOTK, BOK-un bu Oyunları seçildikləri zaman müəyyən olunmuş format əsasında uğurlu edəcəkləri öhdəliyinə əmin ola bilərlər. Proqramda, onun formatında və ya maliyyələşdirilməsində baş verən hər hansı dəyişiklik ancaq Təşkilatçı Komitə ilə razılıqla yerinə yetiriləcək.
2. GOO qeyri-Olimpiya illərinə keçirmə ilə bağlı BOK Sessiyasının təşkilinə dəyəcək təsirin icmalı.

☐ **Kadrlar şöbəsinə təsir**

☑ **Digər təsir**

2. GOO-dan qeyri-Olimpiya illərinə keçidin ümumi idman təqviminə təsiri qiymətləndirilməlidir.

Brendin təsiri: nəzərdən keçirilən istəklərdən, missiyadan və GOO mövqeyindən asılı olaraq, brendə mümkün təsir (yəni GOO DNA)

# İşçi Qrupu 10 - Mədəni siyasət

| | |
|---|---|
| Sədr: | Lambis V. Nikolaou |
| İşçi qrupunun görüş tarixi: | 24 iyun 2014 |

**MƏZMUN**

Pierre de Coubertin-n arzusu Qədim Oyunlarda olduğu kimi "idmanı mədəniyyət və tədrislə qovuşdurmaq" idi. Illər keçdikcə, üstünlük daha çox idman lehinə verilmişdir, lakin mədəniyyətin bir daha böyük bir rol oynayacağına güclü istək mövcuddur.

Ehtiraslı tərəfdaşların olmasına baxmayaraq, Olimpiya Hərəkatının mədəni fəaliyyətlərinin təsiri məhduddur. Artıq bir çox öhdəlik götürmüş təşkilatlar və komitələr mövcuddur: 50 muzey, 60 akademiya, tədris mərkəzləri, kolleksiyaçılar, tarixçilər, rəssamlar, Mədəniyyət olimpiadalarında iştirak edən assosiasiyalar, və eləcə də, yerli təşəbbüslər yaradan azarkeşlər. Bu, nəzərə alınmalı və qüvvətləndirilməli aktivdir.

Olimpiya Hərəkatı daxilində də strukturlar parçalanmışdır. Mədəniyyət və Təhsil Komissiyasının missiyası genişdir: Toplayıcı Komissiyalar diqqəti çox səciyyəvi mövzuya verdiyi bir halda mədəniyyəti, təhsili və gəncləri inkişaf etdirmə. Digər yerlərdə, MOK-un üçdə-bir hissəsi üzrə mədəniyyətə həsr edilmiş təcrübə və resurslar, onların qanuni olaraq idman yarışlarına yönəldiyi üçün məhduddur və BF-in cəlb olunması inkişaf etdirilməlidir. 2014-cü ildə BOK daxilində Mədəniyyət və İrs Departamentinin yaradılması ilə bütün bu təşəbbüslərə yenidən baxıldı.

Ciddi kommersiya təcrübələrinə əsaslanan brendin qorunma qaydaları, "mədəniyyət istisnalarına" yol vermir, və çox zaman Hərəkatdan kənarda mədəniyyət institutları ilə yüksək səviyyəli əməkdaşlığa imkan vermir. Təəccüblü deyil ki, Olimpiya tərəfdaşları və MOK sponsorluğu diqqətini idmana yönəldib, onların Olimpiya ailəsi daxilində mədəniyyət qurumları ilə əlaqələri genişləndirildiyi halda, OOTK-lər üçün mədəniyyət əlavə maliyyə yükündən çox "dəyər yaratmaq" vasitəsi olmalıdır. London 2012 tərəfindən istifadə edilmiş "İlham Nişanı"
yol göstərə bilər.

Mədəni Olimpiada özü-özlüyündə daha böyük imkan təchiz edə bilər. Mədəniyyət müsabiqələri Oyunlardan London 1948-dən sonra yox oldu, və o vaxtdan Oyunların idarəçiliyində mədəniyyətə dair ziddiyyətli status hakim idi. Hazırda, bu Olimpiyadan çox yerli mədəniyyətin təbliğatına yönəlib, lakin ev sahibi ölkə daxilində marağı yaratmaq və genişlənərək qlobal Olimpiya mədəniyyət təşəbbüslərini nümayiş etdirmək üçün güclü bir vasitə ola bilər.

# Tövsiyə 26

## İdman və mədəniyyətin qovuşmasını artırma

**Olimpiya oyunlarında və onların arasında idman və mədəniyyətin qovuşmasını daha da gücləndirmək.**

1. Oyunlar vaxtında:

- Olimpiya Oyunlarının hər nəşrində Olimpiyaya (mədəniyyət, təhsil, inkişaf və sülh) müstəsna töhfələr üzrə Olimpiya Laurel (dəfnə yarpağı) mükafatını yaratmaq. Təltif mərasimi mərasimlərindən birində aparılmalıdır. "Olimpiya Dəfnəsi" mükafatını alacaq şəxsi müstəqil yüksək hörmətli şəxslərin daxil olduğu münsiflər heyəti seçəcək.
- Ümumi ictimaiyyəti Olimpiya Hərəkatı ilə dialoqa cəlb etmək üçün Olimpiya Evinin inkişafını tədqiq etmək.
- Olimpiya mədəniyyətini məşəlin ötürülməsi, canlı sahələr və/yaxud Mədəni Olimpiada məzmununda ümumi ictimaiyyətə təqdim etmək üçün "Olimpiya Muzeyi hərəkətdə" konsepsiyasını tədqiq etmək
- Müvəqqəti artistlər proqramının hazırlanması.

2. Olimpiya oyunları arasında:

- Mədəniyyət üzrə qlobal aparıcı şəxslər ilə möhkəm və həqiqi əlaqəni yaratmaq və dinamik irs qurmaq üçün təsirli sənətkarlar üçün xüsusi yaradılmış proqramın hazırlanma qaydasını öyrənmək.
- MOK-u Olimpiya mədəniyyəti üçün attaşe təyin etməyə həvəsləndirmə.

**TƏSİRLƏR: Hüquqi / Maliyyə / Təşkilati / Kadrlar Ehtiyatı / Digər (brend)**

☑ **Hüquqi təsir**

*Olimpiya Dəfnəsi*

- Dəfnəni təltif etmə qaydaları

*Olimpiya evi*

- Təşkilatçı Şəhərlə Müqaviləyə əlavə edilməlidir.

*Səlahiyyət verilmiş rəssamlar proqramı*

- Yoxdur

☑ **Maliyyə təsiri**

*Olimpiya Dəfnəsi*

- Olimpiya dəfnəsinin yaradılması və təltifi üçün hər buraxılış üçün 1.5 milyon İsveçrə frankı

*Olimpiya Muzeyi Hərəkətdə və Olimpiya evi*

- Tədqiqatı davam etdirilməlidir

*Səlahiyyət verilmiş rəssamlar proqramı*

- CHF 2.5 milyon üçün seçimlər/münsif/rabitə, layihənin inkişafı o cümlədən yaşayış, 10 tətbiq edilmiş layihə əsasında.

☑ **Təşkilati təsir**

*Olimpiya Dəfnəsi*

- Münsiflər və təltif Mədəniyyət və İrs Departamenti tərəfindən idarə edilə bilər.
- İctimai mərasim Oyunları OOTK komandaları tərəfindən idarə edilə bilər.

*Olimpiya Muzeyi Hərəkətdə və Olimpiya evi*

- Mədəniyyət və İrs şöbəsi daxilində, Oyunlar və MOK TİP (məşəl növbəsi/canlı sahələr) ilə əməkdaşlıq çərçivəsində podratçı/prodüserlər vasitəsilə Mədəniyyət Layihəsinin rəhbəri tərəfindən idarə edilir.

*Səlahiyyət verilmiş rəssamlar proqramı*

- Mədəniyyət və İrs şöbəsi daxilində agentlik və prodüserlər vasitəsilə “Mədəniyyət Layihəsinin rəhbəri” tərəfindən idarə edilir.

☑ **Kadrlar şöbəsinə təsir**

1.5 yeni əlavə tam ştatlı ekvivalent

*Olimpiya Dəfnəsi*

- Nəzərəçarpacaq təsiri yoxdur

*Olimpiya Muzeyi Hərəkətdə, Olimpiya Evi və Səlahiyyət verilmiş rəssamlar proqramı*

- 1 mədəniyyət üzrə layihə meneceri + 0.5 köməkçi

☑ **Digər təsir**

Brendin təsiri: BOK, hazırda ciddi kommersiya prinsiplərinə əsaslanan öz brendin mühafizə qaydalarını nəzərdən keçirərək, mədəniyyət istisnalarına imkan verməli və Olimpiya Hərəkatının xaricində mədəniyyət institutları ilə yüksək səviyyəli əməkdaşlığı təşviq etməlidir. London 2012 oyunlarının "İlhamlandırılıb" nişanının markası örnək ola bilər.

# BOK-un rolu: Müxtəliflikdə birlik

## İşçi Qrupu 11 - Yaxşı idarəçilik və Muxtariyyət

| | |
|---|---|
| Sədr: | Ser Kreq Ridi (Craig Reedie) |
| İşçi qrupunun görüş tarixi: | 23 iyun 2014 |

**MƏZMUN**

Yaxşı idarəçilik və muxtariyyət bir-biri ilə güclü əlaqədədir; onlar eyni qəpiyin müxtəlif tərəfləridir. Olimpiya Hərəkatına mənsub Təşkilatlar, öz muxtariyyətlərini iddia edən zaman, Olimpiya Nizamnaməsinə (Olimpizmin Fundamental prinsipləri, №. 5) etibar edə bilərlər. Lakin bizim Hərəkat və onun üzv təşkilatlarının muxtariyyətini təmin etmək üçün ən güclü vasitə yaxşı idarəetmənin müvafiq standartların tətbiq edilməsidir. BOK artıq yüksək beynəlxalq standartlar tətbiq edir və artıq, sonradan digər tərəfdaşlar ilə qəbul edilmiş Olimpiya və İdman Hərəkatının Yaxşı İdarəçiliyi üzrə Əsas Ümumdünya Prinsiplərini yaradıb.

Muxtariyyət özü-özlüyündə məqsəd deyil: Olimpiya hərəkatı idmanı inkişaf etdirməlidir və idmanın spesifikliyini, yəni idmanın ümumbəşəri etika normalarına, ədalətli oyun qaydalarına, hörmətə və dostluğa əsaslanan və həqiqətən universal olan hüquqla tənzimlənən insan fəaliyyətinin həyata keçirildiyi yeganə sahə olduğunu nəzərə alaraq, idmanın dəyərlərini yaymalıdır. İdman azadlığa ehtiyac duyur ki, özünün idmana xas olan işlərini öz səlahiyyəti çərçivəsində və ümumi qanunlara uyğun olaraq tənzimləyə bilsin. Siyasi dairələr idmanın bu müstəqilliyinə hörmətlə yanaşmalıdır, çünki məhz bu azadlıq sayəsində idmanın qaydaları bütün dünyada qəbul olunur və dünya idmanının hansı növündə tətbiq edildiyindən asılı olmayaraq, eyni olur.

Bu baxımdan, öz tarixində ilk dəfə olaraq BMT Beynəlxalq Olimpiya komitəsinin (BOK) və idmanın müstəqilliyini tanıyıb. O, 2014-cü il oktyabrında BMT Baş Assambleyasının Nyu-Yorkdakı iclasında tanındı. Üzv dövlətlərin qəbul etdiyi qətnamədə idmanın müstəqilliyi tanınmaqla yanaşı, həm də və hətta "idmanın müstəqilliyi və muxtariyyəti, habelə Olimpiya hərəkatına rəhbərlik sahəsində BOK-un məramı dəstəklənir".

Həmin qətnamədə idman təhsilin, sağlamlığın, inkişafın və sülhün təşviq edilməsi vasitəsi kimi təsbit olunur, habelə bu məqsədlərə nail olmaqda BOK-un və Olimpiya hərəkatının mühüm rolu vurğulanır. Mühüm olanı odur ki, həmin qətnamədə təsdiqlənir ki, "böyük beynəlxalq idman tədbirləri sülh, qarşılıqlı anlaşma, dostluq, tolerantlıq və hər hansı qəbildən olan ayrı-seçkiliyin yolverilməzliyi ruhunda təşkil edilməlidir və bu cür tədbirlərin birləşdirici və barışdırıcı mahiyyətinə hörmətlə yanaşılmalıdır". Bu, aşkar şəkildə ona dəlalət edir ki, idman tədbirlərində tam iştirak rəğbətlə qarşılanır və əksinə, bu tədbirlərin boykot edilməsi BMT-nin idman dəyərlərinə hörmət göstərmək çağırışına uyğun gəlmir.

Dövlət orqanları ilə səmərəli münasibətlər, əməkdaşlıq və səmimi dialoq idmanın inkişafı üçün fundamental əhəmiyyət kəsb edir. Dövlət orqanlarının idmanın inkişafına verdiyi dəstək və ayırdığı texniki və maddi vəsaitlər müxtəlif ölkələrdə siyasi seçimlərdən, inkişaf səviyyəsindən və prioritetlərdən asılı olaraq çox fəali ola bilər. Lakin dövlət orqanları əksər hallarda idmanın inkişafı sahəsində əsas rollardan birini oynadığına görə, bu, dövlət orqanları və idman təşkilatları arasında səmərəli əməkdaşlığın olmasını tələb edir. Sağlam və məhsuldar münasibətlər inkişaf etdirmək üçün, idman təşkilatları və dövlət orqanları arasında əməkdaşlıq tabeliyə deyil, daha çox tərəfdaşlığa əsaslanan tarazlaşdırılmış yanaşma vasitəsilə həyata keçirilməlidir və bu zaman həmin təşkilatların və onların müvafiq səlahiyyətlərinə və müstəsna hüquqlarına qarşılıqlı hörmət göstərilməlidir. Bu tarazlaşdırılmış yanaşma tətbiq edildiyi təqdirdə, məhz onun sayəsində hər bir ölkədə idmanın və Olimpiya hərəkatının inkişafı uzlaşdırılmış və tamamlayıcı şəkildə və ən səmərəli şəkildə təşviq oluna bilər. Hökumətlərlə belə tərəfdaşlıq daxilində idman siyasi cəhətdən neytral qalmalıdır. Bu o demək deyil ki, idman siyasətdən uzaqdır. İdman təşkilatlarının qərarlarında siyasi mülahizələr əks olunmalıdır, habelə idman sahəsinin və idman təşkilatlarının əleyhinə yönəlməyən və idman təşkilatlarının daxili əməliyyatlarına müdaxilə etmək və ya idman təşkilatlarının qəbul etdiyi daxili normaları özləri ilə əvəz etmək məqsədi güdməyən ölkə qanunlarına hörmət göstərilməlidir.

Muxtariyyət özü-özlüyündə məqsəd deyil, o, vəzifə də deyil. Muxtariyyəti qazanmaq lazımdır. Bizim siyasət sahəsində olan və bizim müstəqilliyimizə hörmət göstərmələrini gözlədiyimiz tərəfdaşlarımız bizim öz müstəqiliyimizi məsuliyyətli şəkildə və səmərəli idarəçiliyin əsas standartlarına uyğun olaraq həyata keçirməyimizi bizdən gözləmək hüququna malikdir.

Olimpiya və idman hərəkatının əsas universal prinsiplərinin Olimpiya hərəkatının istisnasız olaraq hər bir subyekti tərəfindən əzmlə və məsuliyyətlə yerinə yetirilməsi bizim idman təşkilatlarının çevik və səmərəli şəkildə fəaliyyət göstərməsinə imkan verir və onlara lazımi qanunilik və etimad bəxş edir və bu, nəticə etibarilə və əlbəttə ki bizim tərəfdaşların hörmətini qazanmağın və hər hansı kənar müdaxilə həvəsindən çəkinməyin ən yaxşı yoludur.

İşçi qrupu kənar ekspertlərin, o cümlədən “Transparency International” təşkilatının idarə heyətinin sədri, Dünya bankının Korporativ dürüstlük üzrə Vitse-Prezidenti və Olimpiya Tərəfdaşlarının (OT) idarəçilik üzrə ekspertlərinin verdikləri töhfələrdən bəhrələndi.

# Tövsiyə 27

## Yaxşı idarəetmənin əsas prinsiplərinə əməl etmə

**Olimpiya hərəkatına aidiyyəti olan bütün təşkilatlar Olimpiya və idman hərəkatının universal səmərəli idarəçilik prinsiplərini (SİP) qəbul etməli və onlara riayət etməlidir.**

1. Həmin prinsiplərə riayət yoxlanmalı və qiymətləndirilməlidir. Lazım olduqda, təşkilatların səmərəli idarəçilik prinsiplərinə riayət etməsinə kömək etmək məqsədilə köməkçi alətlər və proseslər BOK tərəfindən təmin oluna bilər.
2. Təşkilatlar müntəzəm qaydada özünüqiymətləndirmə əməliyyatının yerinə yetirilməsi üçün cavabdeh olmalıdır. Təşkilatların özünüqiymətləndirmələrinin nəticələri müntəzəm surətdə BOK-a məruzə edilməlidir. Bu cür məlumat olmadığı təqdirdə, BOK öz müstəqil qərarı əsasında bu cür qiymətləndirmənin keçirilməsini tələb etməlidir.
3. SİP dövri qaydada yenilənməlidir və bu prinsiplərdə şəffaflığın, dürüstlüyün və korrupsiyanın hər hansı forması ilə mübarizənin zəruriliyi vurğulanmalıdır.

**TƏSİRLƏR: Hüquqi / Maliyyə / Təşkilati / Kadrlar Ehtiyatı / Digər (brend)**

☑ **Hüquqi təsirlər**

Olimpiya və idman hərəkatının universal səmərəli idarəçilik prinsiplərini yeniləmək hərəkatının qəlbində

☑ **Maliyyə təsiri**

☑ **Təşkilati təsir**

Olimpiya hərəkatına aidiyyəti olan təşkilatlarla yazışmanı və onların təlimləndirilməsini təşkil etmək hərəkatına rəhbərlik etməkdir.

Eyni tipli qiymətləndirmə və onun nəticələrinin həyata keçirilməsi üçün alətlər yaratmaq.

Olimpiya və idman hərəkatının universal səmərəli idarəçilik prinsiplərini yeniləmək üçün kiçik işçi qrupu yaratmaq və /yaxud ekspertlərlə məsləhətləşmək
yeniləmək üçün kiçik işçi qrupu yaratmaq və /yaxud ekspertlərlə məsləhətləşmək.

☑ **Kadrlar şöbəsinə təsir**
Tətbiq olunmur

☑ **Digər təsir**

# Tövsiyə 28

## Muxtariyyəti dəstəkləmə

**BOK hər hansı ölkədə mərkəzi hakimiyyət orqanları və idman təşkilatları arasında əməkdaşlığa kömək etmək məqsədilə həmin əməkdaşlığın həyata keçirilməsi qaydasını təyin etməlidir.**

**İLKİN MƏLUMAT / TƏSVİR**

MOK-lar və ölkə hökumətləri arasında əməkdaşlıq zəruridir.

Əməkdaşlıq qaydasını tərtib edərkən, BOK idmanın və BOK-un müstəqilliyini təsdiqləyən və 2014-cü ilin oktyabrında BMT-nin Baş Assambleyasında yekdilliklə qəbul edilən qətnamədən bəhrələnə bilər. BMT-nin qətnaməsi idman təşkilatlarının öz müstəqilliklərini möhkəmləndirmək və idmanın inkişafı sahəsində əməkdaşlıq etmək məqsədilə ölkə hökumətləri ilə münasibətlərində həmin təşkilatların mövqeyini möhkəmləndirir.

**TƏSİRLƏR: Hüquqi / Maliyyə / Təşkilati / Kadrlar Ehtiyatı / Digər (brend)**

☑ **Hüquqi təsir**
Anlaşma Memorandumunun modeli

☑ **Maliyyə təsiri**
Tətbiq olunmur

☑ **Təşkilati təsir**
Tətbiq olunmur

☑ **Kadrlar şöbəsinə təsir**
Tətbiq olunmur

☐ **Digər təsir**

# Tövsiyə 29

## Şəffaflığı artırma

**Şəffaflığı artırmaya dair**

1. Hətta Beynəlxalq maliyyə hesabat verməsi standartları (BMHS) kimi nisbətən yüksək standartlar qanunla BOK-dan tələb olunmadığı halda belə, BOK-un maliyyə bəyannamələri həmin standartlara uyğun olaraq tərtib və təftiş olunmalıdır.
2. BOK illik fəaliyyət və maliyyə hesabatını, o cümlədən BOK-a üzvlərin qəbul edilməsi strategiyasını tərtib etməlidir.

**İLKİN MƏLUMAT / TƏSVİR**

BOK üzvləri könüllülərdir.

Hazırda BOK-un öz üzvlərinin öz funksiyalarını yerinə yetirməsinə aid olan əsas xərclərinin bir hissəsini ödəmək strategiyası aşağıdakı kimidir:

- Komissiyanın iclaslarında iştirak edən və ya Olimpiya oyunlarında iştirak edən üzvlər gündə 400 ABŞ dolları məbləğində müavinət ala bilər.
- İcra şurasının üzvləri İcra şurasının iclasında iştirak üçün 2,000 ABŞ dolları məbləğində birdəfəlik ödəniş ala bilər.
- BOK-un rəsmi işgüzar ezamiyyəti üzrə nəqliyyat və mehmanxana xərclərinin əvəzi qaytarıla bilər.
- Üzvlər həm də öz inzibati xərcləri üçün ildə 6,000 ABŞ dollarınadək məbləğdə vəsait almaq imkanına malikdir.

**TƏSİRLƏR: Hüquqi / Maliyyə / Təşkilati / Kadrlar Ehtiyatı / Digər (brend)**

☑ **Hüquqi təsirlər**

BOK-un Etika komissiyasının təklifi ilə BOK üzvləri üçün müavinət strategiyasının Rəsmiləşdirilməsi.

☐ **Maliyyə təsiri**

☑ **Təşkilati təsir**

Tətbiq olunmur

☑ **Kadrlar şöbəsinə təsir**

Tətbiq olunmur

.

# İşçi Qrupu 12 - Etika

| | |
|---|---|
| Sədr: | C-b Uisufa Ndiaye (Youssoupha Ndiaye) |
| İşçi qrupunun görüş tarixi: | 24 iyun 2014 |

**GİRİŞ**

BOK 1999-cu ildə Etika komissiyası təsis edən ilk idman təşkilatı idi. Bu tədbir hamı tərəfindən bir etalon kimi qəbul olundu və sonrakı illərdə bir neçə təşkilat bu nümunəyə əməl etdi.

Etik davranışın dəstəklənməsinin cari məsələ olduğunu təsdiqləməklə yanaşı, qeyd etmək lazımdır ki, BOK səmərəli və şəffaf bir prosesə və etika məsələlərini həll etmək üçün lazım olan vasitələrə malikdir. Lakin daim dəyişən mühitdə biz inkişaf etməyə davam etməliyik və hazırda bu sahədə baş verən ən son yenilikləri aşkarlamaq və onlara müvafiq olaraq uyğunlaşmaq üçün gözəl bir imkan mövcuddur.

İşçi qrupu BOK-un etika komissiyasının intizamı təmin edən bir orqan kimi deyil, tövsiyə verən bir orqan kimi öz fəaliyyətini davam etdirməsinin və Olimpiya hərəkatı üçün yüksək mənəviyyat, vicdan nümunəsi və rəhbər tutulmalı olan etalon kimi xidmət göstərməsinin əhəmiyyətini bir daha vurğuladı. Bunun üçün Etika komissiyası yenidən öz əvvəlki məramına xüsusi diqqət yetirəcək, etik prinsiplər çərçivəsini müəyyən edəcək və yeniləyəcək, habelə həmin etik prinsiplərə hörmətsizlik göstərilməsinə aid olan şikayətləri araşdıracaq.

Verilən tövsiyələrin məqsədi BOK-un müstəqilliyini möhkəmləndirmək və onun qaydalarını vahid şəklə salmaqdır. 2020-ci ilədək Olimpiya fəaliyyətinin gündəliyinə dair tövsiyələr arasında şəffaflığın artırılmasına dair təkliflər var. Bu dəyişikliklər BOK-un Əmək intizamı məcəlləsində və Etika komissiyasının fəaliyyətində əks olunmalıdır.

# Tövsiyə 30

## BOK Etika komissiyasının müstəqilliyini gücləndirmə

**BOK-un Etika komissiyasının sədri və üzvləri BOK-un iclasında seçilməlidir.**

**TƏSİRLƏR: Hüquqi / Maliyyə / Təşkilati / Kadrlar Ehtiyatı / Digər (brend)**

☑ **Hüquqi təsir**

*Olimpiya Nizamnaməsinə dəyişikliklər*

**22 BOK-un Etika komissiyası***

BOK-un etika komissiyası etik prinsiplər çərçivəsini, o cümlədən Etika Məcəlləsini həmin məcəllənin tərkib hissəsi olduğu Olimpiya nizamnaməsində təsbit olunan dəyərlər və prinsiplər əsasında müəyyən etmək və yeniləmək tapşırığını alıb. Bundan əlavə, o, həmin etik prinsiplərə hörmətsiz yanaşma, o cümlədən Etika Məcəlləsinin pozulması halları ilə əlaqədar olaraq verilən şikayətləri araşdırır və lazım olduqda, BOK-un İcra Şurasına cəza tədbirlərini təklif edir.

BOK-un Etika komissiyasının sədri və üzvləri BOK-un iclasında, gizli səsvermə yolu ilə, verilən səslərin çoxluğu ilə seçilir.

☑ **Maliyyə təsiri**

Yoxdur

☑ **Təşkilati təsir**

Yoxdur

☑ **Kadrlar şöbəsinə təsir**

Yoxdur

☑ **Digər təsir**

Yoxdur

# Tövsiyə 31

## Uyğunluğu təmin etmə

**Aşağıdakı məqsədlə BOK administrasiyanın tərkibində normalara riayət mütəxəssisi vəzifəsini təsis etməlidir:**

1. Normalara riayətlə əlaqədar olaraq BOK-un üzvlərinə, BOK-un heyətinə, MOK-lara, Beynəlxalq idman federasiyalarına (BİF) və Olimpiya hərəkatının bütün digər maraqlı tərəflərinə məsləhət vermək.

2. Normalara riayət sahəsində baş verən yeni hadisələrə dair məsləhət vermək.

**TƏSİRLƏR: Hüquqi / Maliyyə / Təşkilati / Kadrlar Ehtiyatı / Digər (brend)**

☑ **Hüquqi təsir**

Etika komissiyası və normalara riayət mütəxəssisi arasında dəqiq iş bölgüsünü təmin etmək məqsədilə, Etika komissiyasından tələb olunur ki, o, səlahiyyət və öhdəliklərin bölgüsünə dair öz təklifini irəli sürsün.

☑ **Maliyyə təsiri**

Yoxdur

☐ **Təşkilati təsir**

☑ **Kadrlar şöbəsinə təsir**

Yeni vəzifə

☑ **Digər təsir**

Yoxdur

# Tövsiyə 32

## Etikanı gücləndirmə

| |
|---|
| **BOK-un Etika komissiyası Etika məcəlləsinin və Prosedura qaydalarının 2020-ci ilədək Olimpiya fəaliyyəti gündəliyinə tam uyğun gəldiyinə və şəffaflığın artırılmasını, səmərəli idarəçiliyi və məsuliyyəti təşviq etdiyinə əmin olmaq üçün həmin məcəlləni və qaydaları yoxlamalıdır.** |
| **TƏSİRLƏR: Hüquqi / Maliyyə / Təşkilati / Kadrlar Ehtiyatı / Digər (brend)** |
| ☑ **Hüquqi təsir**<br><br>Etika Məcəlləsi |
| ☑ **Maliyyə təsiri**<br>Yoxdur |
| ☐ **Təşkilati təsir** |
| ☑ **Kadrlar şöbəsinə təsir**<br><br>Yoxdur |
| ☑ **Digər təsir**<br><br>Yoxdur |

# İşçi qrupu 13 – Sponsorluğun, lisenziyalaşdırmanın və reklamın satışı strategiyasının təhlili

| | |
|---|---|
| Sədr: | Tsunekazu Takeda (iştirak etmir) |
| Sədr Müavini: | Xuan Antonio Samaranx (Juan Antonio Samaranch) |
| İşçi qrupunun görüş tarixi: | 16 iyun 2014 |

**MƏZMUN**

Olimpiya hərəkatının müstəqilliyinin və həyat qabiliyyətinin təmin edilməsi sahəsində kommersiya dəstəyi həmişə mərkəzi yer tutub – o, Olimpiya oyunlarının həyata keçirilməsi və Olimpiya dəyərlərinin təşviq edilməsi üçün zəruridir. Hazırda BOK öz gəlirinin 90 faizindən çoxunu Olimpiya hərəkatına ayırır.

Bunun əsasını BOK tərəfindən idarə olunan sabit gəlir mənbəyini yaratmaq üçün nəzərdə tutulan Olimpiya Tərəfdaşı (OT) proqramı təşkil edir və beləliklə bütün MOK-lara və Olimpiya oyunlarının təşkilat komitələrinə (OOTK) maliyyə yardımının göstərilməsi mümkün olur. Ötən 30 il ərzində OT proqramı Olimpiya hərəkatı üçün çox dəyərli bir sponsorluq platforması olub və I OT proqramının müddəti (1985-1988-ci illər) ərzində gəlirlər 98 milyon ABŞ dollarına bərabər olduğu halda, hazırkı Olimpiada çərçivəsində, VIII OT Proqramının müddəti (2013-2016-cı illər) ərzində gəlirlər 1 milyard ABŞ dollarını keçib. Son zamanlarda imzalanan müqavilələr belə bir əminlik yaradır ki, əlavə əhəmiyyətli artım gözlənilə bilər.

Nağd gəlir şəklində köməklik göstərməkdən əlavə, OT tərəfdaşları Olimpiya oyunlarının həyata keçirilməsi üçün mallar, xidmətlər və ixtisaslaşdırılmış ekspert rəyləri təmin etməklə, Olimpiya hərəkətini dəstəkləyirlər. Onlar həm də Olimpiya sponsorlarının mənfəət əldə edəcəklərinə dair inandırıcı zəmanət verirlər və bu, sponsorların həm MOK-lar, həm də OOTK-lar tərəfindən həyata keçirilən yerli proqramlara cəlb olunmasına kömək edir. Bundan əlavə, OT sponsorları həm də bütün dünyada çox böyük “fəallaşmanı” təmin edirlər və Olimpiya oyunlarının və dəyərlərinin təbliğ olunmasına yaradıcı şəkildə töhfə verirlər.

OT proqramının davamlı uğuruna və həmçinin Olimpiadada iştirak üçün lisenziyaların verilməsinin əhəmiyyətinin artmasına baxmayaraq, bu platformaların Olimpiya hərəkatı üçün hələ də məqsədəuyğun olduğuna və mümkün qədər səmərəli və məhsuldar olduğuna əmin olmaq məqsədilə BOK-un həmin platformaları qiymətləndirməyə davam etməsi vacibdir. 2020-ci ilədək Olimpiya fəaliyyəti gündəliyi Olimpiya hərəkatının mənfəəti naminə OT proqramının və lisenziyaların verilməsinin davamlı və uğurlu şəkildə inkişaf etdiyinə əmin olmaq üçün üç istiqamətə xüsusi diqqət yetirmək imkanı yaratdı.

# Tövsiyə 33

## Sponsorların "Olimpizm fəaliyyətdə" proqramlarına cəlb edilməsi

**BOK OT tərəfdaşlarının BOK-un "Olimpizm fəaliyyətdə" tədbirlərinin maliyyələşdirilməsinə, təbliğ edilməsinə və həyata keçirilməsinə cəlb olunması işlərinin planını təsdiqləməlidir və buna aidiyyəti olan sponsorların təsdiqlənməsini sürətləndirməlidir.**

1. BOK "Olimpizm fəaliyyətdə" proqramlarından konkret olaraq hansı birinin Olimpiya markasını təbliğ etməyə kömək edəcəyini müəyyən etməlidir.

2. BOK sponsorların istinad edə biləcəyi və "idman vasitəsilə daha yaxşı dünyanın yaradılması" başlıqlı əsas konsepsiyaya uyğun gələn bir neçə əsas təşəbbüs əsasında "Olimpizm fəaliyyətdə" təşəbbüslərini nizama salmalıdır.

3. BOK özünün "Olimpizm fəaliyyətdə" məqsədlərinin təşviq edilməsi baxımından hər bir OT ilə tərəfdaşlığın nə vəd edə biləcəyini təhlil etməli və başa düşməlidir.

4. OT tərəfdaşları gələcək "Olimpizm fəaliyyətdə" təşəbbüslərini birlikdə tərtib etmək üçün BOK-un Televiziya və marketinq xidmətləri (TMX) şirkəti tərəfindən fəaliyyətə cəlb edilməlidir.

5. "Olimpizm fəaliyyətdə" proqramlarında tərəfdaşların iştirakının təsdiqlənməsini sürətləndirmək.

**TƏSİRLƏR: Hüquqi / Maliyyə / Təşkilati / Kadrlar Ehtiyatı / Digər (brend)**

☑ **Hüquqi təsir**

Tələb olunduqda, OT ilə bağlanan sazişləri yeniləmək.

☐ **Maliyyə təsiri**

☐ **Təşkilati təsir**

☑ **Kadrlar şöbəsinə təsir**

Bir tam ştatlı ekvivalent: Prosesi idarə etmək və Beynəlxalq əməkdaşlıq və inkişaf şöbəsinin əlaqələndirici nümayəndəsi olmaq üçün TMX şirkətinin Korporativ sosial məsuliyyət üzrə daxili koordinatorunun (mövcud ştat vahidi) təyin edilməsi.

☑ **Digər təsir**

Brendə təsir: BOK məhsulları portfelinin nəzərdən keçirilməsi

# Tövsiyə 34

## Qlobal lisenziya proqramının hazırlanması

**BOK dünya miqyaslı lisenziyaların verilməsi proqramını işləyib hazırlamalıdır və bu zaman gəlirin hasil edilməsinə deyil, daha çox təşviqat işlərinə xüsusi diqqət yetirməlidir.**

**İLKİN MƏLUMAT / TƏSVİR**

Tarixən Olimpiadada iştirak üçün lisenziyaların verilməsi ən çox OOTK-nə aid olan ərazilərlə və BOK-un nisbətən böyük ərazilərinin bir neçəsi ilə məhdudlaşıb. Özünün uzun müddətli marka idarəetməsi strategiyasını təmin etmək məqsədilə BOK uzun müddətli, dünya miqyaslı lisenziya vermə proqramını işləyib hazırlamalıdır:

1. BOK OT-lər, beynəlxalq lisenziya sahibləri, MOK-lar və onların müvafiq lisenziya sahibləri ilə əməkdaşlıq üçün tərəfdaşlıq modelləri işləyib hazırlamalıdır.

2. BOK həqiqətən nadir və "mütləq əldə edilməli" olan Olimpiada lisenziyalı məhsul yaratmaq məqsədilə lisenziya sahibinin planlaşdırma qruplarının istiqamətləndirilməsinə və ruhlandırılmasına kömək etmək üçün Olimpiada planlaşdırması prinsiplərini işləyib hazırlamalıdır.
Olimpiada planlaşdırması prinsiplərini işləyib hazırlamalıdır.

3. BOK aşağıdakı proqramlara uyğunlaşmaq məqsədilə öz lisenziya vermə proqramlarının hər biri üçün öz təşviqat qaydasını yoxlamalıdır:
   - "Olimpiya kolleksiyası" (5-halqa üstəgəl konsepsiyanın əsas dəyəri haqqında mesaj).
   - "Olimpiya irsi kolleksiyası" (əvvəlki Oyunlar).
   - "Olimpiya oyunları proqramları" (gələcək Oyunlar).

4. BOK bazarın ən yaxşı və aparıcı üsulunun qəbul edildiyinə əmin olmaq üçün proqramların ümumi idarəetmə qaydasını yoxlamalıdır və Olimpiadanın maraqlı tərəflərindən bəhrələnmək üçün Olimpiadada iştirak üçün lisenziyaların verilməsi modelini optimallaşdırmalıdır.
   - Yenilənmiş davamlı inkişaf strategiyası və standartları işlənib hazırlanmalı, sonra isə tətbiq edilməlidir.
   - Azarkeşlərlə cari əlaqəni təşkil etmək üçün Müştərilərlə əlaqələrin idarə edilməsi (MƏİ) metodologiyasının tətbiqi başladılmalıdır.
   - BOK dünya miqyaslı, mərkəzləşdirilmiş lisenziya vermə modellərinin bazar auditini yerinə yetirməlidir.
   - Müxtəlif lisenziya vermə proqramları ilə emosional əlaqəni gücləndirmək üçün Olimpiada iştirakçılarının (həm keçmiş, həm də hazırkı) xoş məramlı səfir kimi istifadə olunması imkanı nəzərdən keçirilməlidir.

**TƏSİRLƏR: Hüquqi / Maliyyə / Təşkilati / Kadrlar Ehtiyatı / Digər (brend)**

☑ **Hüquqi təsir**

Müqavilə sənədləri kommersiya tədbirlərinə uyğun olaraq işlənib hazırlanmalıdır.

☑ **Maliyyə təsiri**

10 illik müddət ərzində BOK-un lisenziya verilməsindən əldə etdiyi gəlirlərin tədricən artması

| |
|---|
| ☑ **Təşkilati təsir**<br><br>Proqram idarəetməsi naminə Olimpiya muzeyi ilə uzlaşma |
| ☑ **Kadrlar şöbəsinə təsir**<br><br>Bir tam ştatlı ekvivalent: 2016-cı ildən etibarən TMX şirkətində tam ştatlı lisenziya verilməsi koordinatoru vəzifəsinin təsis edilməsi |
| ☑ **Digər təsir** |

# Tövsiyə 35

## Olimpiya Tərəfdaşları olan sponsorların BOK ilə münasibətini inkişaf etdirmək

**BOK OT-lər və MOK-lar arasında əməkdaşlığın artmasını nəzərə alaraq, müvafiq proqram tərtib etməlidir.**

1. BOK yerlərdə OT-lərin fəallığını və MOK-lar ilə birgə fəaliyyətini artırmaq üçün lazım olan tədbirləri fərdi tələbata uyğunlaşdırmalıdır. MOK-ların vəsaitlərindən istifadə etməklə, yerlərdə sponsorluq fəaliyyətlərini inkişaf etdirməkdə və artırmaqda ayrı-ayrı MOK-lara və sponsorlara kömək etmək.
2. Olimpiya marketinqi və ən yaxşı üsullar haqqında məlumat vermək məqsədilə BOK Olimpiya Həmrəyliyi təşkilatı və Azərbaycan MOK ilə birlikdə BOK-un marketinq seminarlarını təşkil etməlidir. Bütün MOK-lar üçün nəzərdə tutulan bu seminarın proqramı sponsorluq fəaliyyətlərini daha yaxşı dəstəkləmək və maksimuma çatdırmaq məqsədilə sponsorlarla əməkdaşlıq etmək üçün MOK-ların marketinq və xidmət göstərmə bacarıqlarını artıracaq və inkişaf etdirəcək. MOK-lar üçün mövcud təlim paketi seminar proqramının əsas tərkib hissəsi olacaq.
3. OT-lər MOK-lar ilə əməkdaşlığını təşkil etmək məqsədilə BOK OT tərəfdaşları ilə imzalanan müqavilələrə daxil edilməli olan müqavilə öhdəliklərini nəzərə almalıdır.

**İLKİN MƏLUMAT / TƏSVİR**

BOK-un hüquqları OT tərəfdaşları üçün mühüm vəsaitdir. Hərçənd tarixən OT tərəfdaşları bu vəsaiti öz potensiallarına uyğun olaraq tam həcmdə istifadə etməyiblər. OT-lər ilə birlikdə yeni əlavə dəyərlər yaratmağa davam etmək.

**TƏSİRLƏR: Hüquqi / Maliyyə / Təşkilati / Kadrlar Ehtiyatı / Digər (brend)**

☑ **Hüquqi təsir**

1. MOK-nin səlahiyyət dairəsini, fəaliyyətinin qiymətləndirilməsini və məzmununu əhatə etmək məqsədilə P&G şirkəti /BOK ilə imzalanan xidmət müqaviləsinin tərtib edilməsi
OT-ları ilə bağlanan müqavilə çərçivəsində rəhbərlik bacarıqları mövzusunda təlim

2. Müvafiq hallarda, OT-lər ilə bağlanan müqavilələr yenilənməlidir.

☑ **Maliyyə təsiri**

Tədqiqat davam etdirilməlidir.

☑ **Təşkilati təsir**

1. BOK TMX Olimpiya həmrəyliyi və MOK əlaqələr üzrə departamenti ilə əməkdaşlıqla seminar proqramının məzmununu hazırlamalı və əməliyyatları və onların tətbiqini idarə etməlidir.

☑ **Kadrlar şöbəsinə təsir**

İki tam ştatlı ekvivalent:1. BOK-un TMX şirkəti daxilində (daxildən idarə olunduğu təqdirdə) tam ştatlı layihə meneceri vəzifəsinin təsis edilməsi

2. BOK-un TMX şirkəti daxilində tam ştatlı layihə meneceri vəzifəsinin təsis edilməsi

# Tövsiyə 36

## Olimpiya brendinin qeyri-kommersiya məqsədi ilə istifadəsini genişləndirmə

| |
|---|
| **Olimpiya brendinin qeyri-kommersiya məqsədi ilə istifadəsini genişləndirmə.** |
| **İLKİN MƏLUMAT / TƏSVİR**<br><br>Aşağıdakı şərtləri nəzərə alaraq, Olimpiya brendinin qeyri-kommersiya məqsədləri üçün daha geniş miqyasda istifadə olunması (o cümlədən müstəqil Olimpiya patentinin mümkün istifadəsi) naminə hər hansı hüquqi-normativ aktı işləyib hazırlamaq:<br>- Olimpiya Hərəkatına/Olimpiya oyunlarına etdikləri töhfə əsasında qeyri-kommersiya istifadəsini/təşkilatları prioritetləşdirmə .<br>- Brendin ifadə etdiyi mesajın təhrifinin qarşısının alınması üçün brendin bütövlüyünün saxlanılması<br>- Əsas tərəfdaşları Olimpiya İP-dən səlahiyyətsiz istifadədən qorumağa davam etmək. |
| **TƏSİRLƏR: Hüquqi / Maliyyə / Təşkilati / Kadrlar Ehtiyatı / Digər (brend)** |
| ☑ **Hüquqi təsir**<br><br>Olimpiada Nizamnaməsi, Fəsil 1, 7-ci və 14-cü Qaydalar - Olimpiya Oyunları və Olimpiya Mülkiyyətləri, Olimpiya nişanları üzərində hüquqlar<br>- Yeni brendin təbliğatı və idarəçiliyinə dair çərçivə sazişinin razılaşdırıldığı halda zəruri yeniləmələrin həyata keçirilməsi |
| ☐ **Maliyyə təsiri** |
| ☑ **Təşkilati təsir**<br><br>Brend idarəçiliyinə dair çərçivə sazişini Olimpiya Hərəkatı və onun tərəfdaşları arasında yaymaq və müxtəlif iştirakçı qurumlar arasında brend idarəçiliyinin əlaqələndirilməsini gücləndirmək |
| ☐ **Kadrlar şöbəsinə təsir** |
| ☑ **Digər təsir**<br><br>Brend idarəçiliyinə dair çərçivə sazişini yeniləmək |

# BOK strukturu və təşkilatı

# İşçi Qrupu 14 - BOK Üzvlüyü

| | |
|---|---|
| Sədr: | Əlahəzrət Ekshersoq Lüksemburqlu Henri |
| İşçi qrupunun görüş tarixi: | 17 iyun 2014 |

**MƏZMUN**

Beynəlxalq Olimpiya Komitəsinin 2000-ci il İslahatları Beynəlxalq Olimpiya Komitəsinin üzvlüyünə seçilmək üçün bu gün də tətbiq edilən meyarlara, proses və qaydalara yenidən baxılmasına səbəb olmuşdur.

İslahatlar Komissiyası eyni zamanda əməkdaşlığın əsas prinsipini Beynəlxalq Olimpiya Komitəsinin və onun üzvlərinin müstəqilliyinin zəmanəti kimi qəbul etmişdir. Komissiya Seçim Komitəsinin təsis edilməsini və yeni üzvün hansı prosedura üzrə seçilməsinin aydınlaşdırılmasını təklif etmişdir. Bundan əlavə, Sessiya gizli səsvermə qaydasında yeni üzvləri seçəcəkdi.

Beynəlxalq Olimpiya Komitəsinin üzvləri üçün cari yaş həddi 70 yaşdır. Məhdudiyyətlərin aradan qaldırılmasına dair təklif yalnız bu yaş həddini nəzərdə tutur. 1999-cu ildən öncə seçilmiş üzvlərin mənafelərini müdafiə edən “Keçid qaydalar” saxlanılacaqdır. Müxtəlif ssenariləri nəzərdən keçirdikdən sonra İşçi qrupu belə nəticəyə gəlmişdir ki, ümumi yaş həddinin artırılması Beynəlxalq Olimpiya Komitəsi üçün əlverişsizdir. Çünki, bu onun heyətinin yenilənməsinin qarşısını alacaq.

Bütün üzvlər hər səkkiz ildən bir yenidən seçilməlidirlər. İcra Şurasının Üzvlərinin seçilməsi üçün müddət həddi vardır. Bu isə o deməkdir ki, İcra Şurasının üzvləri ardıcıl olmaqla iki dəfə dörd il müddətinə seçilə bilər, Komitənin Prezidenti üçün bu limit 12 ildir.

Digər tövsiyələrə Sessiyanın tərkibi, heyətin milli mənsubiyyət meyarları və səlahiyyətlərini daxil edilmişdir.

Sənədlərin inkişaf etdirilməsi və təqdimatı, İşçi Qrupuna Beynəlxalq Olimpiya Komitəsinin strukturunun müxtəlif aspektlərini, xüsusilə də yeni üzvlərin seçilməsini, işə cəlb edilməsini nəzərdən keçirməyə şərait yaratdı.

İlk dəfə BMT-nin Baş Katibinin xüsusi müraciət ilə çıxış etdiyi Soçi şəhərində keçirilmiş görüşdə qəbul edilmiş Sessiyanın idarə edilməsi qaydalarına dair digər tövsiyələr üzvlər tərəfindən müsbət qarşılanmışdır.

Cari vəziyyət

| | **Üzvlər fərdi xüsusiyyətlərə görə seçilir** | **Aktiv idmançılar** | **Beynəlxalq Federasiyaların Prezidentləri** | **Milli Olimpiya Komitələrinin və ya Qitələr arası assosiasiyaların Prezidentləri** |
|---|---|---|---|---|
| **Üzvlərin bölüşdürülməsi** | 70<br>(bir və ya iki yer Beynəlxalq Olimpiya Komitəsinin təmsilçilərinə - tanınmış təşkilatlara verilməlidir) | 15 | 15<br>( Yay və qış idman növləri arasında tarazlaşdırılmış say) | 15 |
| **Milliyyəti** | Hər bir ölkə üzrə 1 nəfərdən artıq olmamaqla | Hər bir ölkədən yalnız 1 nəfər (Fərdi xüsusiyyətlərə görə seçilmiş üzvlər istisna olmaqla) | Beynəlxalq Federasiyaların Prezidentləri arasında milli mənsubiyyətə görə məhdudiyyət tətbiq edilmir. | Hər bir ölkədən yalnız 1 nəfər<br>(Fərdi xüsusiyyətlərə görə seçilmiş üzvlər istisna olmaqla) |
| **Səlahiyyət müddəti** | İslahatlar Komissiyası səlahiyyət müddəti kimi 8 il və təkrar olaraq seçilən üzvün yenidən səlahiyyət müddəti kimi 8 il olmasını təklif etmişdir. | İdmançılar üçün şərtlər İdmançılar Komissiyası tərəfindən müəyyən edildiyi kimi olacaqdır. İdmançılar Komissiyası tərəfindən | Aşağıdakı qurumların prezidenti olan üzvlər Beynəlxalq Federasiyaların Prezidentləri, Milli Olimpiya Komitələrinin və ya Qitələr arası assosiasiyaların Prezidentləri üçün səlahiyyət müddəti onların vəzifə səlahiyyətləri ilə məhdudlaşır. Onlar öz vəzifələrindən azad edildikdən sonra Beynəlxalq Olimpiya Komitəsində də öz səlahiyyətlərini itirmiş olurlar. | |

Bu çərçivə sazişi Olimpiya Qurultayı tərəfindən 2009-cu ildə qəbul edilmişdir. *Buna baxmayaraq, Olimpiya Qurultayı təklif etmişdir ki, "idmanın inkişafı və öz müstəqilliyini artırmaq və gücləndirmək üçün Beynəlxalq Olimpiya Komitəsi üzvlüyə qəbul etməyə dair prosedura qaydaları qiymətləndirməlidir."*

Olimpiya Hərəkatının inkişafı ilə əlaqədar olaraq, Beynəlxalq Olimpiya Komitəsinin Sessiyası aşağıdakı məsələləri müzakirəyə təqdim etməyi qərarlaşdırmışdır: Hər hansı üzvün təşkilatdakı rolundan asılı olaraq ona tətbiq edilən yaş həddinin dəyişdirilməsi və Beynəlxalq Olimpiya Komitəsinin (BOK) gələcək uğurlarının əldə edilməsi üçün onun lazimi bacarıqda olan mütəxəssislər ilə gücləndirilməsini təmin etmək.

# Tövsiyə 37

## BOK üzvlüyü üçün yaş həddini həll etmə

**BOK üzvlüyü üçün yaş həddi:**

- Beynəlxalq Olimpiya Komitəsinin İcra Şurasının tövsiyələri əsasında BOK-un Sessiyası təşkilatın cari 70 yaş həddini keçməyən hər hansı bir üzvünün səlahiyyətlərinin yalnız bir dəfə üçün 4 il müddətinə uzadılmasına dair qərar qəbul edə bilər.
- Bu Sessiyanın çağırışının fəaliyyətdə olduğu müddət ərzində yalnız beş dəfə baş verə bilər.
- Bu halda Təyinat Komissiyası ilə məsləhətləşmələr aparılmalıdır.

**TƏSİRLƏR: Hüquqi / Maliyyə / Təşkilati / Kadrlar Ehtiyatı / Digər (brend)**

☑ **Hüquqi təsir**

*Olimpiya Nizamnaməsinə dəyişikliklər:*
Ümumi Qaydaların 16.3.3 saylı bəndi və Təşkilatın Nizamnaməsinin 16.2.3 və 16.2.4 saylı bəndi

**16 Üzv**

3.3 Yaş həddi:

3.3.1 70 yaşına daxil olan hər bir BOK üzvü bu hüquqdan məhrum edilir. Bu Təşkilatının Nizamnaməsinin 16.3.3.2 və 16.2.7.1 saylı bəndlərinə uyğun həyata keçirilir.

3.3.2 Yaş Həddinin artırılması:

3.3.2.1 Sessiya Beynəlxalq Olimpiya Komitəsinin İcra Şurasının təklifi əsasında hər hansı üzvün yaş həddini artırmaq hüququna malikdir.
16.2.7.1.
3.3.2.2 BOK üzvləri arasında yaş həddinin artırılmasına zərurəti olan üzvlərinin sayı beşdən artıq deyildir.
3.3.2.3 Səlahiyyət müddətinin uzadılması maksimum dörd il müddəti əhatə edə bilər.
3.3.2.4 Sessiyada səsvermə gizli qaydada, üzvlərin səs çoxluğu əsasında qəbul edilir.

☐ **Maliyyə təsiri**

☐ **Təşkilati təsir**

☐ **Kadrlar şöbəsinə təsir**

# Tövsiyə 38

## Qarşıya məqsəd qoyulmuş işəgötürmə prosesini tətbiq etmə

**Ərizəçidən BOK üzvlüyünə seçimə gedən yol:**

1. Təyinat Komissiyası BOK Missiyasında olan boş yerlərə peşəkar mütəxəssislərin təyin edilməsi üçün ciddi fəaliyyət göstərir.

2. Təqdim edilmiş meyarlara cavab verən Namizədlərin tərcümeyi-halları Təyinat Komissiyası tərəfindən BOK-un İcra Şurasına təsdiq edilməsi üçün təqdim olunur.

- BOK əsasən lazimi bacarıqları olan şəxsləri (misal üçün tibb işçilərini, sosioloqları, mədəniyyət üzrə mütəxəssisləri, siyasətçiləri, biznes üzrə mütəxəssisləri, hüquqşünasları, idman idarəçiliyi üzrə mütəxəssisləri və s.)
- Coğrafi tarazlığı qorumaqla, həmçinin, eyni ölkədən maksimum sayda nümayəndələri cəlb etməyi qərarlaşdırıb.
- Gender tarazlığı
- İdmançılar komissiyasının Təşkilatın daxilində Beynəlxalq Federasiyaları / Milli Olimpiya Komitələrini təmsil etməsi

3. BOK-un Sessiyası milli mənsubiyyət meyarına görə maksimum beş üzv üçün xüsusi hal nəzərdə tuta bilər.

**TƏSİRLƏR: Hüquqi / Maliyyə / Təşkilati / Kadrlar Ehtiyatı / Digər (brend)**

☑ **Hüquqi təsir**
*Olimpiya Nizamnaməsinə dəyişikliklər:*

### 16 Üzv

1. BOK-un tərkibi – Uyğunluq, işə cəlb olunması, seçkilər, qəbul olunma və BOK üzvlərinin statusu

BOK üzvləri:

BOK-un üzvləri neytral şəxslərdir. Təşkilatın Nizamnaməsinin 16-cı maddəsinə görə BOK-un üzvlərinin maksimal sayı 115-i keçə bilməz. BOK aşağıdakılardan təşkil edilmişdir:

1.1.1 Təşkilatın Nizamnaməsinin (BLR) 16.2.2.5-ci bəndinə əsasən xüsusi hallarda seçilən beşə qədər təşkilat üzvü daxil olmaqla təşkilatdakı üzvlüyü onun tutduğu vəzifə ilə heç bir əlaqəsi olmayan üzvlərin sayı 70-dən artıq ola bilməz; yuxarıda qeyd edilən beş üzvdən başqa Təşkilatın Nizamnaməsinin (BLR) 16.2.2.5-ci bəndinə görə belə üzvlərin sayı ölkə üzrə bir nəfərdən artıq ola bilməz.

*BOK-un Təyinat Komissiyası:*

BOK-un Təyinat Komissiyası Beynəlxalq Olimpiya Komitəsi üzvləri arasında müxtəlifliyi və tarazlığı qorumaq üçün namizədləri seçərək BOK-un İcra Şurasına təsdiq edilməsi üçün təqdim edir. Təşkilatın Nizamnaməsinin (BLR) 16.2.4 və 21.3-cü bəndlərinə görə BOK-un Təyinat Komissiyası Beynəlxalq Olimpiya Komitəsinə seçilməsi üçün təqdim olunmuş bütün namizədləri yoxlamalı və qiymətləndirməlidir

Və hər bir namizəd haqda BOK-un İcra Şurasına yazılı qaydada BOK-un Prezidenti tərəfindən göstərilən müddət ərzində hesabat təqdim etməlidir.

*BOK-un Təyinat Komissiyası namizədin peşəkar və maddi vəziyyəti daxil olmaqla, onun karyerası və idman fəaliyyətli kimi namizədlər haqda bütün lazimi məlumatları toplayır; Komissiya şəxsdən ona rəy verilməsi üçün əlaqələndirici şəxslər haqda məlumat tələb edə bilər. Komissiya eyni zamanda namizədi müsahibəyə dəvət edə bilər.*

*BOK-un Təyinat Komissiyası hər bir namizədin uyğunluğunu və onun kimliyini, zəruri olduğu təqdirdə isə idmançının və ya vəzifəli şəxsin onun mənsub olduğu qurumdakı fəaliyyətini nəzərdən keçir.*

*Beynəlxalq Federasiyalar / Milli Olimpiya Komitələrində çalışan, ona bağlılığı olan namizədlərin qiymətləndirilməsi zamanı*

*Komissiya həmin namizədin mənsub olduğu Beynəlxalq Federasiya / Milli Olimpiya Komitədə idmançılar komissiyasının mövcudluğunu və Beynəlxalq Federasiyanın / Milli Olimpiya Komitəsinin fəaliyyətinin BOK-un və Anti-Dopinq Məcəlləsinin tələblərinə uyğun qurulmasını nəzərə alır.*

*2.3.5 BOK-un Təyinat Komissiyasında ən azı bir nəfər BOK-un Etika Komissiyasının,*

*bir nəfər isə BOK-un İdmançılar Komissiyasının nümayəndəsi təmsil olunmalıdır.*

(…)

~~2.4 BOK-un Təyinat Komissiyasının vəzifələri:~~

> ~~*2.4.1 BOK-un Təyinat Komissiyasının vəzifələrinə Beynəlxalq Olimpiya Komitəsinə namizədliyini irəli sürmüş bütün namizədlərin yoxlanılmasını, hər bir namizədə dair Beynəlxalq Olimpiya Komitəsinin İdarə Heyətinə yazılı arayışların BOK-un Prezidenti tərəfindən müəyyən edilmiş müddət ərzində təqdim edilməsi daxildir.*~~
>
> ~~*2.4.2 BOK-un Təyinat Komissiyası namizədin peşəkar və maddi vəziyyəti daxil olmaqla, onun karyerası və idman fəaliyyətli kimi namizədlər haqda bütün lazimi məlumatları toplayır; Komissiya şəxsdən ona rəy verilməsi üçün əlaqələndirici şəxslər haqda məlumat tələb edə bilər. Komissiya eyni zamanda namizədi müsahibəyə dəvət edə bilər.*~~

| |
|---|
| ~~*2.4.3 2.4.3 BOK-un Təyinatları Komissiya hər bir namizədin uyğunluğunu və onun kimliyini, zəruri olduğu təqdirdə isə idmançının və ya vəzifəli şəxsin onun mənsub olduğu qurumdakı fəaliyyətini nəzərdən keçir.*~~ |
| ☑ **Maliyyə təsiri**<br><br>İşə cəlb etmə / seçim prosesinə yardım etmək |
| ☐ **Təşkilati təsir** |
| ☐ **Kadrlar şöbəsinə təsir** |
| ☐ **Digər təsir** |

# Tövsiyə 39

## Cəmiyyətlə və Olimpiya hərəkatı daxilində dialoqu inkişaf etdirmə

**Cəmiyyətlə və Olimpiya hərəkatı daxilində dialoqu inkişaf etdirmə:**

1. Beynəlxalq Olimpiya Komitəsi dörd ildən bir keçirilən “Olimpizm fəaliyyətdə” Qurultayının yaradılması imkanlarını öyrənməlidir:

- Olimpiya Hərəkatının nümayəndələrini, onun maraqlı tərəflərini və vətəndaş cəmiyyətinin nümayəndələrini bir araya gətirmə.
- Həyatının müxtəlif anları ilə tanış olan, idmanın və cəmiyyətin inkişafında rolu olan şəxsləri vahid dialoq altında birləşdirmə.
- Olimpiya Hərəkatının cəmiyyətin təhsil, vahidlik və inkişaf kimi aspektlərinə verdiyi xidmətləri müzakirə etmə.

2. BOK öz Sessiyasını Beynəlxalq Olimpiya Komitəsi üzvləri arasında strateji mövzularda, qonaq spikerlərin çıxışı ilə daha da interaktiv müzakirə mərkəzinə çevirmək niyyətindədir.

**İLKİN MƏLUMAT / TƏSVİR**

BOK-un sonuncu iki Qurultayı 15 il fərqlə 1994-cü il və 2009-cu illərdə olmuşdur. Bununla belə, Olimpiya hərəkatı daxilində olan çevik dəyişikliklər və daim artan məlumat mübadiləsi daha tez – tez görüşlərin keçirilməsinə səbəb olur.

Digər tərəfdən isə, BOK-un dünya konfransları, araşdırmaların, yaxşı təcrübələrin bölüşməsi üçün gözəl imkan yaradır və ortaq yanaşmaları ərsəyə gətirərək idmanın cəmiyyətin inkişafında xüsusi rol oynamasına töhfə verir.

Demək olar ki, komissiyanın nəzarətində olan fəaliyyət sahəsi üzrə keçirilən bütün dünya üzrə konfranslar komissiya ilə əlaqələndirilir.

Dünya konfransları Beynəlxalq Olimpiya Komitəsi, ev sahibi ölkələri, Olimpiya Həmrəyliyi üçün əhəmiyyətli maliyyə aləti funksiyasını yerinə yetirir və bu konfranslar planlaşdırma və təşkilatçılıq baxımından böyük maliyyə dəstəyi tələb edir. BOK-un brendinin təbliği və nəticəyə hesablanan fəaliyyət planlarının hazırlanması baxımından onların səmərəliliyi fərqlənir.

Bu günə qədər BOK-un dünya konfransları müzakirə mövzusundan və bu mövzu ilə məşğul olan komissiyadan asılı olaraq iki ildən, üç və dörd ildən bir təşkil edilir. Misal üçün, Qadınlar və İdman üzrə Dünya Konfransı hər dörd ildən bir təşkil edilir, halbuki, İdman hamı üçün və İdman, Təhsil və Mədəniyyətə dair dünya konfransları hər iki ildən bir təşkil edilir.

BOK-un dünya konfranslarının təsir gücünün və maliyyə səmərəliliyinin artırılması məqsədilə, oxşar mövzulu müzakirələri bir geniş həcmli konfrans daxilində qruplaşdırmaq tövsiyə edilir. 2017-ci ildən etibarən “Olimpiya Hərəkatda Konqresi” hər dörd ildən bir, qeyri-olimpiya illərində keçiriləcəkdir.

| **TƏSİRLƏR: Hüquqi / Maliyyə / Təşkilati / Kadrlar Ehtiyatı / Digər (brend)** |
|---|
| ☑ **Hüquqi təsir**<br><br>1. Olimpiya Nizamnaməsi, 1-ci Fəsil, təşkilatın Nizamnaməsinin 4-cü Qaydası: Olimpiya Qurultayı: Olimpizm Fəaliyyətdə Qurultayının Vətəndaş cəmiyyəti üçün açıq olmasını nəzərdə tutan yeni konsepsiyanı təcəssüm etdirmək |
| ☑ **Maliyyə təsiri**<br><br>1. Birinci ili üçün “Olimpizm Fəaliyyətdə Qurultayı”-nın xərcləri 12.8 milyon ABŞ dolları dəyərində qiymətləndirilmişdir.<br>Bir sıra mövcud Dünya Konfranslarını və əlavə Olimpiya Qurultayını təşkil etməməklə, əhəmiyyətli şəkildə qənaətlər nəzərə alınmalıdır. |
| ☐ **Təşkilati təsir** |
| ☑ **Kadrlar şöbəsinə təsir**<br><br>1. Bu həcmdə tədbirin təşkilatçılığı iki təşkilati rəhbərin olmasını zəruri edir. |
| ☑ **Digər təsir**<br><br>1. BOK-un Sessiyasının təşkilatçıları ilk növbədə “Olimpizm Fəaliyyətdə Qurultayı” tədbirini təşkil etməlidirlər.<br>Brendə təsir: “Olimpizm Fəaliyyətdə” Qurultayı / BOK Sessiyasının brendləşdirilməsi və tanıtımı məsələsi sonradan nəzərdən keçirilərək müəyyən edilməlidir. |

# Tövsiyə 40

## BOK komissiyalarının iş həcmini və tərkibini nəzərdən keçirmə

1. **Beynəlxalq Olimpiya Komitəsinin Prezidenti BOK-un işlərinin həcminə və tərkibinə nəzər salınmasına və onların 2020-ci il Olimpiya Gündəliyinə uyğun nizamlanmasına cavabdehdir.**
2. **BOK-un İcra Şurası tövsiyələrin icra edilməsi üçün prioritetləri müəyyənləşdirir.**

**İLKİN MƏLUMAT / TƏSVİR**

BOK ümumilikdə 22 komissiyaya malikdir ki, onlar da öz növbəsində təşkilatın Prezidentinə, İcra Şurasına və Sessiyaya tövsiyələri verir. Burada həmçinin hər bir Olimpiya Oyunları üzrə əlaqələndirici komissiya və namizəd ölkə üzrə qiymətləndirici komissiya fəaliyyət göstərir. Komissiyalar ya daimi, ya da "ad hoc" (müvəqqəti) xarakter daşıya bilər.

BOK-un Prezidenti hər bir komissiyanın missiyasını müəyyən edir və onun üzvlərini təyin edir. Bu zaman həmin şəxsin komissiyanın nəzdində olan hansı sahə üzrə ixtisaslaşması əsas meyar kimi nəzərə alınır. Yalnız BOK-un üzvü komissiyaya rəhbərlik edə bilər. Bu komissiyaların bəziləri qarışıq olub, onlarla BOK üzvləri, Beynəlxalq Olimpiya İdman Federasiyalarının və Milli Olimpiya Komitələrinin nümayəndələri, idmançılar, texniki ekspertlər, məsləhətçilər və idman mütəxəssisləri daxildir.

Bu 40 tövsiyənin əhatə dairəsi geniş olub, bir sıra ehtimalları (maliyyə, hüquq, insan ehtiyatları və s.) daxil edir. Bu, tam olaraq bir dəfəyə tətbiq edilə bilməyən strateji plandır. Buna görə də, BOK İcra Şurası prioritetlərlə bağlı qərar qəbul etməli, bütün tövsiyələrin 2020-ci ilə qədər tətbiq edilməsi məqsədini qarşıya qoymaqla, tətbiq planını təsdiq etməlidir.

Müxtəlif işçi qrup müzakirələrində, komissiyalarda, İcra Şurasında və ictimai təqdimatlarda bir çox fikirlər təqdim edilmişdir, lakin onlar ancaq Olimpiya gündəliyi-2020 prioritetləri təyin edildikdə həll edilə bilər.
BOK komissiyalarının həcmi və tərkibi ilə bağlı müxtəlif qruplarda müxtəlif yaxınlaşma üsulları, o cümlədən aşağıdakılar müzakirə edilmişdir:

**Ətraf mühit / Davamlılıq**

- Cari BOK İdman və Ətraf Mühit Komissiyasının adını, rolunu, əhatə dairəsini, strukturunu və təşkilini tələblərə uyğunlaşdıraraq, davamlılığın birləşdirilməsini daha da artırmaq.

**Mədəniyyət / Tədris**

- Mədəniyyət və Tədris Komissiyasını bir tərəfdən Tədris Komissiyasına və digər tərəfdən, Mədəniyyət və İrs Komissiyasına bölməyi nəzərdən keçirmək.
- Kolleksiya yığanlar arasından bir və ya iki nümayəndə təyin etməklə Olimpiya Filateliya, Numizmatika və Kolleksiya əşyaları üzrə Komissiyasını Mədəniyyət və İrs Komissiyasına birləşdirməyi nəzərdən keçirmə.

**Olimpizm fəaliyyətdə**

- Müvafiq komissiyaların sədrlərini bir araya gətirəcək çətir kimi çıxış edən Olimpizm

Fəaliyyətdə strukturunun yaradılmasını nəzərdən keçirmək (Olimpiya Mədəniyyəti və Tədris

Qadınlar və İdman, Beynəlxalq Münasibətlər, İdman və Ekoloji və Hamı üçün İdman).

- Beynəlxalq Olimpiya Sülh Fondunu Beynəlxalq Əlaqələr Komissiyasına birləşdirməklə, onun işini gücləndirmək.

**İdmançıların Komissiyasına Üzvlük**

- Komissiya tövsiyə edir ki, BOK İdmançılar Komissiyasının seçkilərinə namizəd kimi təklif edilmək üçün, müvafiq namizədlərin BF-in BOK-un verilmiş yerdə tələblərinə cavab verən İdmançı Komissiyası olmalıdır. Bu məsələ Soçi Qış İdman Oyunlarından sonra qərara alınmış və ilk dəfə olaraq Rio Olimpiya Oyunlarında tətbiq edilməlidir.

**TƏSİRLƏR: Hüquqi / Maliyyə / Təşkilati / Kadrlar Ehtiyatı / Digər (brend)**

☑ **Hüquqi təsir**

Sonrakı müzakirələrdən asılı olaraq, ola bilsin ki, Olimpiya Nizamnaməsinin 2-ci Fəsli

☑ **Maliyyə təsiri**

Komissiyaların və komissiya üzvlərinin sayına uyğun olaraq

Xüsusilə, İdman və Ətraf mühit Komissiyası:

Daha səmərəli fəaliyyət göstərmək üçün Komissiya və onun tabeliyində olan qruplar öncəkindən daha tez-tez görüşməlidirlər. Bu görüşlər konfranslar və video konfranslar vasitəsilə təşkil ediləcəkdir. Eyni zamanda Komissiya üzvlərinin sayı xərclərə nəzarəti artırmaq üçün müəyyən həddə qədər azaldılması gözlənilir.

Xarici ekspertlərdən öz vaxtlarını və bacarıqlarını “könüllülüyə” həsr edəcəklərini gözləməmək, onları zəhmətinin dəyərini ödəmək lazım olacaq.

☑ **Təşkilati təsir**

BOK-un komissiyalarının və onları dəstəkləyən şöbələrin iş həcminin dəyişdirilməsi.

☑ **Kadrlar şöbəsinə təsir**

Komissiyaların və onların departamentlər üzrə bölgüsünün sayına uyğun olaraq

☑ **Digər təsir**

Davamlı inkişaf siyasətini yaradaraq və komissiyanın işini asanlaşdıraraq, BOK Olimpiya Hərəkatının tərəfdaşları və ictimaiyyəti arasında etimad səviyyəsini artırmış olacaq.

**BEYNƏLXALQ OLİMPİYA KOMİTƏSİ**
CHÂTEAU DE VIDY, 1007 LOZANNA, İSVEÇRƏ
www.olympic.org